# SENTYABR

**1. Leksik mənası olan sözlər necə adlanır?**
A) leksem
B) lüğəvi vahid
C) frazem
D) loru sözlər
E) poetik sözlər

**2. Sözün zahiri cəhətində əsas götürülənlərə aiddir:**
A) fonetik cəhətdən formalaşma
B) anlaşıqlıq
C) müstəqillik
D) semantik valentlik
E) məna

**3. Hər iki tərəfi alınmadan ibarət hibrid söz:**
A) həmfikir
B) sözbaz
C) toyxana
D) yeməkxana
E) tappıltı

**4. Hamıya məlum olmayan və hamı tərəfindən sistematik şəkildə istifadə olunmayan sözlər adlanır:**
A) dilin lüğət tərkibinin əlavə hissəsi
B) dilin lüğət tərkibinin əsas hissəsi
C) köhnəlmiş sözlər
D) terminlər
E) ekzotik sözlər

**5. Tarixizm və arxaizmlərin dildə üslubi imkanlarına aid olmayanı müəyyənləşdirin?**
A) dilin lüğət tərkibi dəyişmir, yeniləşmir, olduğu kimi qalır
B) tarixizmlər və arxaizmlər konkret bir tarixi dövrün real xüsusiyyətlərini əks etdirir
C) tarixizmlər və arxaizmlər, nitq prosesində istehza, kinayə, zarafat və s. çalarlar yaratmaq üçün istifadə olunur
D) tarixizmlər və arxaizmlər nitqdə təntənə çalarlığı yaratmaq üçün istifadə olunur
E) Tarixizmlər və arxaizmlər obrazların xarakterini, ictimai mənşəyini və s. məsələləri oxucuya çatdırmaq məqsədi ilə istifadə olunur

**6. Köhnəlmiş sözlər verilmiş cərgəni göstərin?**
A) göftar, sərməst, huşyar, bad
B) qut, davay, şkol, girov, eş
C) podvadit, soqlasit, yüzbaşı, uz
D) molodes, çuxa, kaftan, seir
E) sənək, kivi, kottec, qolf

**7. Ərəb-fars mənşəli alınma terminlər hansı cərgədə doğru göstərilmişdir?**
A) hədis, namaz, pişnamaz, fitrə
B) arqo, varvarizm, epiloq, fitva

C) ellips, interval, allah, imam
D) piket, fayl, sayt, saziş
E) şəriət, şiə, funksioner, disk

**8. Ərəb-fars mənşəli alınma terminlər hansı cərgədə doğru göstərilmişdir?**
A) dərman, zökəm, imam, mürid
B) ziyarət, piket, spiker, hərrac
C) konsensus, disk, dügah, segah
D) təriqət, sünni, natural, modal
E) pinq, epiloq, antiteza, kamerton

**9. Ərəb-fars mənşəli alınma terminlər hansı cərgədə düzgün göstərilmişdir?**
A) qiyamət, qiblə, müalicə, təsnif
B) saziş, funksioner, spiker, valyuta
C) kserokopiya, kross, ellips, kalka
D) antiteza, qamma, akkord, siyasət
E) pir, vəqf, yevra, totalitar

**10. Ərəb-fars mənşəli alınma terminlər hansı cərgədə düzgün göstərilmişdir?**
A) ziyarət, mömin, təriqət, şəriət
B) akkord, kamerton, leqato, vokalizm
C) sayt, fayl, disk, elektrofaks
D) yevro, hərrac, embarqo, suffiks
E) sayt, fayl, embarqo, suffiks

**11. Ərəb-fars mənşəli alınma terminlər hansı cərgədə düzgün göstərilmişdir?**
A) sünni, şiə, şəriət, fitva
B) pir, müayinə, saziş, piket
C) totalitar, unitar, prefiks, interval
D) antiteza, melodram, infiks, müşavirə
E) hürriyyət, sayt, spiker, monizm

**12. Avropa mənşəli alınma terminlər hansı cərgədə düzgün göstərilmişdir?**
A) akkord, ellips, suveren, reforma
B) sayt, hədis, təriqət, sünni
C) funksioner, yevro, zabit, saziş
D) valyuta, fitva, qiyamət, şəriət
E) konsensus, media, brifinq, pir

**13. Tarixi leksikologiyanın tədqiqat obyektinə hansı məsələlər daxildir?**
A) sözləri tarixilik, müxtəlif tarixi dövrlərdəki məna xüsusiyyəti baxımından öyrənilməsi;
B) dilin lüğət tərkibindəki sözləri müqayisə yolu ilə öyrənilməsi;
C) qohum olan dillərin lüğət tərkibinin tarixini öyrənilməsi;
D) qohum olan dillərin lüğət tərkibini müqayisə ilə öyrənilməsi;
E) dildəki sözləri təsvir yolu ilə öyrənilməsi

**14. Müqayisəli leksikologiyanın tədqiqat obyektini göstərin:**
A) qohum və qohum olmayan dillərin lüğət tərkibindəki sözlər
B) qohum dillərin lüğət tərkibində tarixən inkişaf edən sözlər
C) ayrı-ayrı dövrlərdə məna cəhətdən dəyişən sözlər
D) dilin lüğət tərkibində olan sözlərin məcmusu
E) inkişaf və formalaşma mərhələsi keçən sözlər

**15. Leksikologiyanın növlərini göstərin?**
A) təsviri leksikologiya, müqayisəli leksikologiya, tarixi leksikologiya
B) semasiologiya, etimalogiya, onomalogiya
C) frazeologiya, leksikoqrafiya, derivatologiya
D) antroponimlər, toponimlər, etnonimlər
E) tarixi leksikologiya, etimologiya, semasiologiya

**16. Sözün kommunikativ funksiyası nəyi bildirir?**

A) sözün fikrin ifadə olunmasındakı funksiyası
B) sözün ad bildirməsi funksiyası
C) sözün semantik yük daşıması funksiyası
D) sözün müstəqil mənaya malik olması funksiyası
E) leksik və qrammatik mənaya malik olması

**17. Sözün leksik mənasını səciyyələndirən əlamətlər hansılardır?**
A) fərdiliyi, ilkin olması, müstəqilliyi
B) asılılığı, ümumiləşdirməyə malik olması
C) qrammatik vasitələrlə ifadə olunması, mücərrədləşdirmə xüsusiyyəti
D) suala cavab verməsi, müstəqil işlənə bilməməsi
E) ad, əşya bildirmə xüsusiyyəti, müstəqil olmaması

**18. Dilin əsas lüğət fondunun səciyyəvi cəhətləri hansılardır?**
A) ümumxalq səciyyəlidir, sabitdir, həcmcə kiçikdir;
B) uzun ömürlüdür, həcmcə genişdir, üslubi cəhətdən rəngarəngdir;
C) dildəki sözlərin hamısını əhatə edir, dəyişkəndir;
D) həcmcə genişdir, uzunömürlüdür;
E) dəyişkəndir, üslubi cəhətdən rəngarəngdir.

**19. Dilin lüğət tərkibindəki sözlərin məcmusu necə adlanır?**
A) Leksika
B) Semantika
C) Onomastika
D) Frazeologiya
E) Etimologiya

**20. Sözə aid söylənən fikirlərdən biri səhvdir**
A) Sözün ad bildirməsi onun kommunikativ, fikrin ifadə olunmasında xidməti isə nominativ funksiyasıdır
B) Söz hər bir dilin öz daxili qayda-qanunları əsasında yaranır
C) Söz müəyyən səs kompleksinə malik olur
D) Söz dildə hazır şəkildə mövcud olur
E) Söz leksik və qrammatik mənaya malik olur

**21. Sözün zahiri cəhəti dedikdə nə əsas götürülür?**
1- fonetik cəhətdən formalaşma
2- məna
3- bir vurğulu olma
4- müstəqillik
5- sabitlik
6- anlaşıqlıq
7- ahəngə tabelilik
A) 1;3;7
B) 2;4;6;
C) 1;2;5
D) 1;3;6
E) 2;6;7

**22. Sözün leksik mənası barədə fikirlərdən biri səhvdir**
A) Leksik məna konkret mənaya malik sözləri ümumiləşdirən mənadır
B) Sözün ilkin, başlanğıc mənasıdır
C) Leksik məna müstəqil mənalı sözlərə aiddir
D) Leksik məna sözün kökü, əsası ilə ifadə olunur
E) Leksik mənaya malik sözlər suala cavab verir və cümlə üzvü olur

**23. Saf sözlər cərgəsini göstərin**
A) Gəl, yaz, oxu
B) Aşbaz, ata, tut

C) Kitabxana, həmfikir, tappıltı
D) Fısıltı, at, davakar
E) Toyxana, saatsaz, bağban
**24. Dilin quruluşunun dəyişmə ardıcıllığını göstərin**
A) Leksik quruluş, qrammatik quruluş, fonetik quruluş
B) Leksik quruluş, fonetik quruluş, qrammatik quruluş
C) Qrammatik quruluş, leksik quruluş, fonetik quruluş
D) Fonetik quruluş, leksik quruluş, qrammatik quruluş
E) Qrammatik quruluş, fonetik quruluş, leksik quruluş
**25. Dilin lüğət tərkibinin əsas hissəsi barədə fikirlərdən biri səhvdir**
A) Əsas hissəyə dialektizmlər, arxaizmlər, loru sözlər, terminlər və s. aiddir
B) Hamıya məlum olan və hamı tərəfindən sistematik şəkildə istifadə olunan sözlərə dilin lüğət tərkibinin əsas hissəsi deyilir
C) Əsas lüğət fondu ümumxalq xarakterlidir
D) Əsas lüğət fondu xarici təsirlərə qarşı müqavimətli olması ilə seçilir
E) Əsas lüğət fondu yeni sözlərin yaranması üçün baza rolunu oynayır
**26. Appelyativ leksika barədə verilən fikirlərdən biri yanlışdır**
A) Etnonimlər, toponimlər, hidronimlər və s. appelyativ leksikaya aiddir
B) Appelyativ leksika dedikdə ümumi sözlərin məcmuyu başa düşülür
C) Appelyativ sözlər əşya, hadisə, predmet və s. haqqında anlayışları ümumi şəkildə ifadə edir
D) Appelyativ leksikada sözlər xaotik şəkildə deyil, sistemli şəkildə mövcuddur
E) Arxaizmlər, neologizmlər, terminlər, ekzotik sözlər və s. appelyativ leksikaya aiddir
**27. Aşağıdakılardan hansılar geniş dairədə işlənən aktiv sözlərə aiddir?**
**1- Ümumişlək sözlər**
**2- Loru sözlər**
**3- Dialektizmlər**
**4- Peşə-sənət sözləri**
**5- İctimai-siyasi leksika**
**6- Poetik sözlər**
**7- Rəsmi üslubda işlənən sözlər**
**8- Terminlər**
**9- Jarqon və arqo sözlər**
A) 1;2;6;7
B) 1;3;4;5
C) 2;5;7;8
D) 1;3;8;9
E) 1;4;6;9
**28. Hansılar xalis Azərbaycan sözləri deyil?**
A) Hind-Avropa dilləri ilə ortaqlı olan sözlər
B) Türk dilləri ilə ortaqlı olan sözlər
C) Həm türk, həm də monqol dilləri ilə ortaqlı olan sözlər
D) Şumer dili ilə ortaqlı olan sözlər
E) Xüsusi Azərbaycan sözləri
**29. Təsviri leksikalogiya nəyi öyrənir?**
A) Dilin lüğət tərkibinin müasir vəziyyətini
B) Dilin lüğət tərkibinin tarixi inkişaf formasını
C) Dildə olan sözlərin qohum dillərlə müqayisəsini
D) Lüğət tərkibinin əmələ gəlməsini və onun inkişaf formasını
E) Dildə olan sözlərin həm tarixi, həm də müasir vəziyyətini
**30. Əsl Azərbaycan sözlərinin xüsusiyyətlərinə aid ola bilməz:**
A) Əsl Azərbycan sözlərinin əksəriyyəti e; o və ö saitləri ilə başlayır
B) Əsl Azərbaycan sözləri l;n;r;j;f;m;h;x;z samitləri ilə az başlanır

C) Əsl Azərbaycan sözlərində sözün əvvəlində iki samit yanaşı işlənmir
D) Azərbaycan sözlərində predloq (ön şəkilçi) olmur
E) Azərbaycan dilində söz kökü ilə ona qoşulan şəkilçi diffuziyaya uğramır

**31. Əsl Azərbaycan sözlərinin xüsusiyyətlərinə aid ola bilməz:**
A) Azərbaycan sözlərində cins kateqoriyası sözlərin həm leksik, həm də qrammatik mənasında olur
B) Azərbaycan sözlərində ahəng qanunu qorunur
C) Azərbaycan sözlərində vurğu son hecanın üzərinə düşür
D) Əsl Azərbaycan sözləri əsasən təkhecalı olur
E) Söz kökündə sait-samit sıralanması əsl Azərbaycan sözləri üçün xarakterikdir

**32. Əsl Azərbaycan sözlərindən ibarət cərgəni göstərin**
A) Çadır, sürmə, qulaq
B) Tunc, yanaq, plan
C) Ailə, açıq, qatıq
D) Qatar, ələk, mətbəə
E) Daraq, yarış, inşa

**33. Əsl Azərbaycan sözlərindən ibarət cərgəni göstərin**
A) Ələk, çəkmə, yarpaq
B) Gəlin, şimal, aqibət
C) Vəzifə, ərazi, pir
D) Pərvaz, gənc, çarə
E) Ustad, pəri, mətbəə

**34. Əsl Azərbaycan sözlərindən ibarət cərgəni göstərin**
A) Ələk, sümük, ipək
B) Göz, vücud, fəal
C) Əsatir, səliqə, təbiət
D) Ləng, arif, cani
E) Nadir, saat, kafir

**35. Əsl Azərbaycan sözlərindən ibarət cərgəni göstərin**
A) At, yaraq, al
B) Cənnət, namərd, zərb
C) Hərf, qənd, bəxt
D) Müftəxor, laqeyd, işğal
E) Kələkbaz, minnət, qübbə

**36. Alınmalarla bağlı deyilənlərdən hansı doğru deyil?**
A) Başqa dildən yalnız sözlər keçə bilir
B) Dünyada ancaq öz xalis sözlərindən ibarət olan dil yoxdur
C) Bütün dillər bir-birinə söz vermiş və başqasından söz almışdır
D) Bu və ya digər dilin başqa dildən aldığı sözə alınma söz deyilir
E) Alınma sözlərin çoxluğu dilin müstəqilliyini inkar etmir

**37. Hansı cərgədə yalnız ərəb dilindən keçən alınma sözlər vardır?**
A) qafiyə, aləm, Hüseyn
B) sayə, bənd, problem
C) folklor, fonem, rol
D) ahəng, pərvaz, eskiz
E) arxiv, real, bioloq

**38. Rus mənşəli alınma sözlər hansı cavabdadır?**
A) samovar, zavyazka, razvyazka
B) avanqard, aqronom, büro
C) duet, novella, marşal
D) xarço, xuqarı, becid
E) maaş, əsatir, fəal

**39. Hamı tərəfindən başa düşülən, bütün üslublarda işlədilən, nitqdə daha çox istifadə olunan, ad, əlamət, keyfiyyət, miqdar, zaman, məkan, hərəkət və s. bildirən sözlər necə adlanır?**
A) Ümumişlək sözlər
B) Dialekt sözlər
C) Loru sözlər
D) Neologizmlər
E) Arxaizmlər
**40. Hansı sözlərin müəyyənləşməsində əsas meyar dilin müasir vəziyyətidir?**
A) Köhnəlmiş sözlər
B) Varvarizmlər
C) Loru sözlər
D) Dialekt sözlər
E) Vulqar sözlər
**41. Köhnəlmiş sözlərdən ibarət cərgəni göstərin**
A) Əhfad, bülənd, əmud
B) Ab, huşyar, arpa
C) Dərdmənd, xab, dəniz
D) Siyah, yarpaq, laqeyd
E) Mah, işğal, ələk
**42. İfadə etdiyi əşya, hadisə və məfhumla birlikdə köhnəlmiş sözlər necə adlanır?**
A) Tarixizmlər
B) Arxaizmlər
C) Neologizmlər
D) Vulqar sözlər
E) Loru sözlər
**43. Şairin, alimin, yazıçının yaradıcılığında-əsərlərində məqsədlə bağlı olaraq yaradılmış fərdi sözlər necə adlanır?**
A) Okkazional sözlər
B) Potensial sözlər
C) Neologizmlər
D) Loru sözlər
E) Vulqar sözlər
**44. Potensial sözlər barədə fikirlərdən biri səhvdir**
A) Geniş dairədə fəaliyyət göstərir
B) Neologizmlərlə okkazional sözlər arasında orta mövqe tutur
C) Nə zaman və kim tərəfindən yaradılmasını müəyyən etmək olmur
D) Dilin öz qayda-qanunu, sözyaratma modeli əsasında əmələ gəlir
E) Hamı tərəfindən işlədilməsi məqbul sayılmır
**45. Okkazional sözlər barədə fikirlərdən biri səhvdir**
A) Öz yeniliyini uzun müddət saxlaya bilmir
B) Kim tərəfindən yarandığı məlum olur
C) Mənasını mətn daxilində başa düşmək, anlamaq olur
D) Yarandığı tarix məlum olur
E) İşlənmə sahəsi məhduddur
**46. Dialektizmlər barədə fikirlərdən biri səhvdir**
A) Dialektizmlərin 4 növü var: fonetik, qrammatik, lüğəvi və sintaktik dialektizmlər
B) Məhdud dairədə, ərazidə işlədilən dialekt və şivə sözlərinə dialektizmlər deyilir
C) Fonetik dialektizmlər hər hansı bir dialektin fonetik xüsusiyyətlərini əks etdirir
D) Lüğəvi dialektizmlər müxtəlif şivələrə aid dialekt xüsusiyyətlərini əks etdirir
E) Dilçilik ədəbiyyatında dialektizmlər qeyri-ədəbi dil ünsürləri hesab olunur

**47. Dəqiqlik, qısalıq, təkmənalılıq, adlandırma, sistemlilik, üslubi neytrallıq, azkomponentlilik, təkvariantlılıq, sinonimsizlik,** işlədilmə məhdudiyyəti. Sadalanan xüsusiyyətlər hansı sözlərə aiddir?
A) Terminlər
B) Dialektizmlər
C) Peşə-sənət sözləri
D) Arqo sözlər
E) Loru sözlər
**48. Terminlər barədə fikirlərdən biri səhvdir**
A) Terminlərin hamısı alınmadır
B) Terminlər işlənmə dairəsinə görə 2 yerə bölünür: ümumişlək terminlər, xüsusi dar sahə terminləri
C) Termin yaradıcılığında 3 cəhət var: təkmənalılıq, azkomponentlilik, sinonimsizlik
D) Terminlər dilin lüğət tərkibində emosionallığa və obrazlılığa malik olmayan sözlərdir
E) Azərbaycan dilindəki terminlər quruluşuna görə 2 cür olur: bir sözdən ibarət, bir neçə sözdən ibarət olan terminlər
**49. Aşağıdakılardan hansı terminlərin əmələgəlmə üsullarına aid deyil?**
A) leksik üsul
B) sintaktik üsul
C) semantik üsul
D) morfoloji üsul
E) kalka üsulu
**50. Terminləri ümumişlək sözlərdən fərqləndirən xüsusiyyətlərdən biri səhvdir**
A) Ümumişlək sözlər təkmənalılığa, termin isə çoxmənalılığa meyil edir
B) Ümumişlək sözlər üçün ümumişləklik, terminlər üçün dəqiqlik, konkretlik səciyyəvidir
C) Ümumişlək sözlər fəal işlənir, terminlər isə məhdud sahə ilə bağlı olur
D) Ümumişlək sözlər həqiqi, məcazi və frazeoloji mənalarda, terminlər isə ancaq həqiqi, nominativ mənada işlənir
E) Ümumişlək sözlərə modallıq, ekspressivlik xasdır, terminlərdə bu xüsusiyyət yoxdur
**51. Okkazional sözlər nədir?**
A) Şairin, alimin, yazıçının yaradıcılığında məqsədlə bağlı olaraq yaradılmış fərdi sözlərdir
B) Müəyyən dairədə, ərazidə fəal şəkildə işlədilən sözlərdir
C) Müəyyən sahə ilə bağlı başqa dillərdən dilimizə keçərək sabitləşən sözlərdir
D) Rus mənşəli alınma sözlərdir
E) Sinonim və antonimi olmayan sözlərdir
**52. Hansı cərgə terminlərdən ibarətdir?**
A) artilleriya, kapitan, kalka, interval
B) lampa, becid, qəməlti, əriştə
C) ramazan, məlamət, sini, not
D) saat, lüğət, arqo, piket
E) media, namərd, həyat, ixtisas
**53. Azərbaycanda Terminologiya Komitəsi ilk dəfə neçənci ildə yaranmışdır?**
A) 1922
B) 1938
C) 1958
D) 1960
E) 2003
**54. Dəqiqlik, qısalıq, sistemlilik, konkretlik kimi xüsusiyyətlər hansı sözlərə aiddir?**
A) Terminlər
B) Dialektizmlər
C) Neologizmlər

D) Ümumişlək sözlər
E) Tarixizmlər
**55. Bunlardan yalnız biri terminlərin əmələgəlmə üsullarına aid deyil?**
A) fonetik üsul
B) semantik üsul
C) morfoloji üsul
D) kalka üsulu
E) sintaktik üsul
**56. Sintaktik üsulla yaranan terminlər hansılardır?**
A) həndəsi silsilə, təktərkibli cümlə
B) Azərkitab, AzərTac
C) məhsuldar, danışıq
D) bölmə, surət, tar
E) boğaz, sifət, göl
**57. Hansı sırada sözlər ümumişləkdir?**
A) otaq, avtobus, körpü, yorğan
B) metodika, ampula, qan, dövr
C) məzun, auditoriya, kainat
D) şərf, fonem, morfologiya, sual
E) stress, yalqız, bulud, duel
**58. Qayçı, iynə, sap, astar, düymə. Bu sözlər işlənmə dairəsinə görə hansı söz qrupuna daxildir?**
A) peşə-sənət sözləri
B) terminlər
C) poetik sözlər
D) neologizmlər
E) ekzotik sözlər
**59. Mənşəcə başqa dilə mənsub olub, xalqın məişətini, adət-ənənəsini, milli xüsusiyyətlərini göstərən, Azərbaycan dilində qarşılığı olmayan sözlər necə adlanır?**
A) Ekzotik sözlər
B) Varvarizmlər
C) Jarqon sözlər
D) Arqo sözlər
E) Vulqar sözlər
**60. Məhdud sosial dairədə işlənən sözlər necə adlanır?**
A) Jarqon sözlər
B) Poetik sözlər
C) Vulqar sözlər
D) Varvarizmlər
E) Ekzotik sözlər
**61. Yüksək obrazlılığa, emosionallığa malik sözlər necə adlanır?**
A) Poetik sözlər
B) Ekzotik sözlər
C) Jarqon sözlər
D) Arqo sözlər
E) Varvarizmlər
**62. Sözün əvvəlinin "mak" ilə başlaması (maket, makaron), Azərbaycan dilinə keçən hansı alınma mənşəli sözlərin** xüsusiyyətidir?
A) Rus mənşəli sözlər.
B) Ərəb mənşəli sözlər.
C) Fars mənşəli sözlər.
D) Avar mənşəli sözlər.

E) Qafqaz mənşəli sözlər.
**63. Dildə olan bütün sözlərin məcmuyunu dilçilikdə hansı şöbə öyrənir?**
A) leksikologiya
B) onomalogiya
C) morfologiya
D) fonetika
E) sintaksis
**64. Əksmənalı sözlər necə adlanır?**
A) antonim
B) dialektizm
C) arxaizm
D) sinonim
E) çoxmənalı söz
**65. Təkmənalı sözü göstərin:**
A) ürək
B) qol
C) burun
D) ağız
E) ayaq
**66. Omonimlər sırasını göstərin:**
A) yay, at, don
B) ipək, yaz, xəşil
C) arzu, mətbəx
D) qaz, körpü, tar
E) tüfəng, süz, divan
**67. Sinonim sözlər hansıdır?**
A) hündür, uca, yüksək
B) həkim, hakim, sənəd
C) ləpə, çay, dəniz
D) səhər, axşam, gündüz
E) göz, qaş, baş
**68. Antonim sözləri göstərin:**
A) böyük, kiçik; pis, yaxşı
B) adam, insan; uşaq, ata
C) gül, ağla; ağac, otlaq
D) igid, qəhrəman; qoçaq, cəsur
E) göz, qaş; qulaq, qol
**69. Çoxmənalı söz hansıdır?**
A) ayaq
B) top
C) sarı
D) insan
E) çay
**70. “Ağ” sözü hansı cərgədə məcazi mənadadır?**
A) ağ gün
B) ağ çörək
C) ağ bulud
D) ağ kağız
E) ağ divar
**71. Antonim sözlərin cərgəsini göstərin:**
A) ağ-qara, tez-gec, axşam-səhər
B) əziz-hörmətli, nikbin-bədbin, tünd-açıq

C) el-oba, yurd-yuva, dərə-təpə
D) sülh-müharibə, qəm-qüssə, sevinc-kədər
E) oğul-uşaq, çox-xeyli, xeyir-şər
**72. Alınma sözlər cərgəsi hansıdır?**
A) insan, ittifaq, zina
B) biz, düz, iç
C) el, qələm, ay
D) payız, dəniz, sona
E) nənə, ata, ana
**73. Əsl Azərbaycan sözlərini göstərin:**
A) böyük-iri
B) rütbə-çin
C) dünya-aləm
D) dairə-çevrə
E) istedad-bacarıq
**74. "Mə" önşəkilçili mədaxil, məxaric tipli sözlər Azərbaycan dilinə keçən hansı alınma mənşəli sözlərin xüsusiyyətidir?**
A) Ərəb mənşəli sözlər.
B) Avropa mənşəli sözlər.
C) Qafqaz mənşəli sözlər.
D) Rus mənşəli sözlər.
E) Fars mənşəli sözlər.
**75. Sözün sonu "ng" səs birləşməsi ilə bitir. Məs.: cəng, ləng, ahəng və s. Bu xüsusiyyət hansı alınma sözlərə aiddir?**
A) Fars mənşəli sözlər.
B) Rus mənşəli sözlər.
C) Ərəb mənşəli sözlər.
D) Qafqaz mənşəli sözlər.
E) Avropa mənşəli sözlər.
**76. Aşağıda sadalananlardan hansı sözün zahiri cəhətində əsas götürülür?**
A) ahəngə tabelilik
B) anlaşıqlıq
C) müstəqillik
D) sabitlik
E) leksik məna
**77. Köhnəlmiş sözləri göstərin**
A) Güz, vəl, koxa
B) Zərbəçi, kürü, atəşkəs
C) Manqa, çimərlik, qayıq
D) Kürk, qılınc, bölgə
E) Alışqan, ələk, tütək
**78. Köhnəlmiş sözlər cərgəsini göstərin:**
A) baqqal, yanşaq, arxalıq
B) divan, bağ, yazı
C) mürşid, tanıq, gözəl
D) bəşər, cüt, ələk
E) mədrəsə, iraq, eynək
**79. Arxaizmlər cərgəsini göstərin:**
A) qazamat, əsrük, ağac, suç
B) yey, mərsiyə, misqal, biyar
C) sövdəgər, şeytan, dışarı, raykom
D) çeşmək, sərf, qeysi, nimdər

E) uyumaq, çadra, nəhv, cadu
**80. Ümumişlək sözlər olan sıranı göstər.**
A) çünki, almaq, bulud
B) miz, ozan, nökər
C) baqqal, cadu, bilgisayar
D) balet, kafel, ödəniş
E) müqəddəs, robot, tabesiz
**81. Müqayisəli leksikalogiyanın əsasında hansı metod durur?**
A) Tarixi-müqayisəli metod
B) Təsviri metod
C) Qarşılaşdırma metodu
D) Struktur metod
E) Leksik-statistik metod
**82. Hansı sırada yalnız tarixizmlər vardır?**
A) jandarm, çadra, seminariya
B) donluq, qayçı, bayımaq
C) həna, menecer, biznes
D) orbit, balet, aymaq
E) irişmək, əsrük, uyumaq
**83. Liza, mister, gitara. Bu sözlər işlənmə dairəsinə görə hansı söz qrupuna daxildir?**
A) ekzotik sözlər
B) arqo sözlər
C) jarqon sözlər
D) varvarizmlər
E) dialektizmlər
**84. Loru sözlər hansı cavabdadır?**
A) cibişdan, lələş
B) goplamaq, danışmaq
C) əzizim, gülüm
D) marka, çuxa
E) mismar, cənab
**85. Söz ilə məfhum arasındakı fərqlərə aid olmayanı müəyyənləşdirin.**
A) məfhumun həqiqi və məcazi mənası var, sözün isə yoxdur
B) məfhumun çoxmənalılığı yoxdur, sözün isə var
C) məfhum hökm bildirir, söz isə məfhumları ifadə edir
D) sözlər milli səciyyəli olur, məfhumlar ümumbəşəri səciyyə daşıyır
E) məfhumlar eyni olduğu halda, sözlər müxtəlif olur
**86. Metonimiya hadisəsi bu cümlələrdən hansında baş verir?**
A) Füzulini əzbər bilirəm.
B) Qara fikirlərini unut.
C) Sən eşqin salamını qorxuyamı dəyişdin? (B.Vahabzadə)
D) Zal sükut içindədir.
E) Yaşılpaltar oynamağa başladı.
**87. Dünyagörüşü, əməkhaqqı və s. kimi sözlər hansı üsulla sözyaratmaya aiddir?**
A) kalka üsulu ilə
B) fonetik dəyişmə hesabına
C) yeni söz və ifadələr yaratmaqla
D) dialekt və şivələrdən söz götürməklə
E) heç birinə
**88. Fonetik dialektizmlər olan sıranı göstər.**
A) bajı, degil, qərdeş
B) qənbər, yalaq, eyzən

C) qəmə, şülək, həncəri
D) asma, oxartana, lapdan
E) kora, bəgəm, qəhmər
**89. Alınma sözlər cərgəsini seçin**
A) paralel, teleqraf, opera, estetika
B) seminar, pələng, qatar, qatıq
C) at, sümük, ekran, serviz
D) yarpaq, pioner, yarış, aqibət
E) yanaq, daraq, qəflətən, ehtimal
**90. Fars mənşəli alınma sözlər cərgəsini göstər:**
A) qəşəng, xanəndə, şöhrətpərəst
B) xırdavat, bələdiyyə, şərf, icad
C) fəndgir, vaqon, ibtidai, əsr
D) xiyaban, rəmz, üslub, ferma
E) gənc, ianə, epizod, metodika
**91. Avropa mənşəli alınma sözlər cərgəsini göstərin:**
A) akademiya, dram
B) şüur, vücud
C) müəllim, müəmma
D) fəal, səadət
E) qəzəblənmək, karandaş
**92. Hansı cərgə əsl Azərbaycan sözlərindən ibarətdir?**
A) sümük, vurma, ələk
B) qatar, mədaxil, nəşr
C) ibadət, mədrəsə, cəlb
D) cürət, qalib, pəri
E) qismət, vərəq, əməkdar
**93. Çoxmənalı söz hansıdır?**
A) ətək
B) ərik
C) ələk
D) ərzaq
E) əmlak
**94. Nümunələrdən biri dialekt sözdür:**
A) qarqundey
B) qalxan
C) arşın
D) nəbatat
E) nəqliyyat
**95. Əsl Azərbaycan sözləri olan sıranı göstərin**
A) Barış, qorxmaz, döyüşkən
B) Naməlum, narahat, namərd
C) Bitərəf, bisavad, bivəfa
D) Məna, şölə, şeir
E) Müasir, təbii, dairə
**96. I - iki saitin yanaşı işlənməsi;**
**II - bəzi saitlərin uzun tələffüzü;**
**III - ahəng qanununun pozulması -**
**aşağıdakılardan hansılar üçün daha səciyyəvidir?**
A) Ərəb-fars mənşəli alınma sözlər
B) Əsl Azərbaycan sözləri
C) Bunların hər ikisi üçün

D) Rus dilindən alınma sözlər
E) Avropa dillərindən alınma sözlər

**97. Milli mənşəli neologizmləri seçin**
1- işbirliyi
2- internet
3- soydaş
4- prezident
5- Başqan
A) 1;3;5
B) 1;2;4
C) 3;4;5
D) 1;2;5
E) 2;3;4

**98. Sözün lüğəvi və qrammatik mənasını fərqləndirən xüsusiyyətlərdən biri yanlışdır?**
A) leksik məna sözün əsası, kökü ilə əlaqəli deyil, qrammatik məna isə daha çox leksik vasitələrlə bağlıdır
B) leksik məna tək-tək sözlərlə, qrammatik məna isə bütöv bir nitq hissəsinə aiddir
C) qrammatik və leksik mənalar bir-birindən mücərrədləşmənin dərəcəsinə görə də fərqlənirlər
D) lüğəvi məna əşya və hadisələrin özü ilə birbaşa əlaqədardır, qrammatik məna isə belə deyildir
E) lüğəvi məna hər bir sözün fərdi xüsusiyyətidir.

**99. Sintaktik yolla yaranmış söz hansı bənddə verilmişdir?**
A) bugünkü
B) bu günkü
C) bu gün kü
D) bu gün ki
E) bu günki

**100. Dilçilikdə tədris edilən məcazların növləri hansı cərgədə düzgün göstərilmişdir?**
A) metafora, metonimiya, sinekdoxa
B) varvarizmlər, sinekdoxa, vulqarizmlər
C) metonimiya, litota, metafora
D) vulqarizm, litota, metafora.
E) sinekdoxa, metonimiya, litota.

**101. Köhnəlmiş sözlər verilmiş cərgəni göstərin?**
A) əhfad, bivə, leyk, xud
B) qazı, çuxa, rəncbər, metodika
C) poema, xarakter, dastan, fonetika
D) uçitel, syezd, obşi, dərdmənd
E) molodes, poka, huşyar, bad.

**102. "Azərbaycan xalq şivələri" lüğəti neçənci illərdə çap edilmişdir?**
A) 1930-1931
B) 1924-1926
C) 1929-1930
D) 1921-1924
E) bu tipli lüğət hələ çap edilməmişdir.

**103. Tərcümə lüğətləri, izahlı lüğətlər, omonim lüğətlər hansı lüğət növlərinə daxildir?**
A) linqvistik lüğətlərə
B) ensiklopedik lüğətlərə
C) Azərbaycan dilinin dialektoloji lüğətinə
D) Azərbaycan xalq şivələri lüğətinə
E) Azərbaycan dilindəki əcnəbi sözlər lüğətinə.

**104. Sinonimik cərgə hansı bənddə verilmişdir?**
A) aləm – cahan - kainat
B) gözəl – göyçək - ağıllı
C) cəsur – igid - bacarıqlı
D) göz – qaş - kirpik
E) böyük – iri – qüvvətli
**105. Aşağıdakı xüsusiyyətlərdən biri frazeoloji birləşmələrə aid deyil?**
A) frazeoloji vahidlər ancaq xitab kimi işlənir, bu da bədii effekti daha da gücləndirir;
B) frazeoloji vahidlər bir ümumi mənanı bildirir;
C) frazeoloji vahidlər obrazlı, emosional olur;
D) frazeoloji vahidlər möhkəm milli xüsusiyyətə malik olur;
E) bir sıra frazeoloji vahidlərdə eyni söz təkrar olunur.
**106. Müasir Azərbaycan ədəbi dilindəki onomastik leksikanın təsnifinə aşağıdakılardan biri aid deyil?**
A) omonimlər, sinonimlər, antonimlər;
B) antroponimlər, etnonimlər, toponimlər;
C) hidronimlər, zoonimlər, kosmonimlər;
D) antroponimlər, ktematonimlər, zoonimlər;
E) etnonimlər, toponimər, ktematonimlər.
**107. Düzəltmə şəxs adlarının yaranmasında hansı şəkilçilər iştirak etmir?**
A) –ağan2, -dır, -acaq2, -ımsa4;
B) –iyyə, -ış4, -ar2, -ə;
C) –dıq, -dik, -k, -maz, -baz, -süm;
D) -süm, -mış4, -üstanu, -çı;
E) –ıl4, -ı4, -gər, -gir, -ım4.
**108. Düzəltmə şəxs adların yaranmasında hansı şəkilçilər iştirak etmir?**
A) –ır4, -malı2, -ası2, -sa2;
B) –çin, -cın, -daş, -ca2;
C) –lıq4, -lı4, -ım4, -gər, -gir;
D) –cı4, -lı4, -ı4, -dar;
E) –mar, -man, -gi, -lı, -can2.
**109. Dilçilikdə hansı şöbə xüsusi sözlərin məcmuyunu öyrənir?**
A) onomalogiya
B) leksikologiya
C) morfologiya
D) fonetika
E) semasiologiya
**110. Xüsusi sözlər adı altında hansı sözlər öyrənilir?**
A) onomastik vahidlər
B) frazeoloji vahidlər
C) isimlər
D) terminlər
E) lüğət tərkibi
**111. Hansı cərgədə milli soyad verilmişdir?**
A) Əkrəm Əylisli, Vaqif Yusifli, Fərman Eyvazlı
B) Bəxtiyar Muradov, Seyid Əzim Şirvani, Bəxtiyar Vahabzadə
C) Cəlil Məmmədquluzadə, Fərman Kərimzadə, Musa Yaqubov
D) Mirzə İbrahimov, Məmməd Səid Ordubadi, Əminə Yusifqızı
E) Xan Şuşinski, Leyla Şıxlinskaya, Barat Şəkinskaya
**112. Etnonim hansıdır?**
A) Əfşar, ayrım, bayat
B) Rəsul, Əsgər, Vüqar

C) Maral göl, Göygöl, Zəligöl
D) "Vətən" kinoteatrı, Səməd Vurğun küçəsi
E) Bakı, Gəncə, Sumqayıt
**113. Toponimi tapın:**
A) Bərdə, Bakı, Tovuz
B) Ağqoyunlu, oğuz, əfşar
C) Nərmin, Gülnaz, Gülgəz
D) Məstan, Toplan, Alabaş
E) Böyük ayı bürcü, Ay, Günəş
**114. Hidronimi göstərin:**
A) Araz, Kür, Maralgöl
B) Qaraqoyunlu, Ağqoyunlu
C) Lənkəran, Tərtər
D) Qafqaz, Murov
E) Maral, Bazardüzü
**115. Antroponimika nəyi öyrənir?**
A) Şəxs adlarını, soyadları
B) Tayfa adlarını, toponimləri
C) Coğrafi adları
D) Hidronimləri, toponimləri
E) Heyvanlara verilən xüsusi adları
**116. Kosmonimi göstərin:**
A) Kiçik Ayı
B) Leyla
C) Qartal
D) Kür
E) Alp dağları
**117. Ktematonimi tapın:**
A) Tələbə Elmi Cəmiyyəti
B) Lalə
C) Ərəbistan
D) Gümüş göl
E) Günəş
**118. Hansı cümlədə məcazi mənada işlənmiş söz var?**
A) Onların arasında soyuq münasibət yaranmışdır.
B) Hava çox soyuq idi.
C) O, şirin çörəyi xoşlayır.
D) Mehriban şirin çay içdi.
E) Arif bacısına soyuq su verdi.
**119. Yeni sözlər işlənmiş cərgəni göstərin:**
A) soyad, çağdaş, soydaş, öndər
B) radio, televizor, telefon, kino
C) maşın, lampa, universitet, direktor
D) elektrik, televizor, avtomobil, tramvay
E) qatar, vağzal, tramvay, teleqraf
**120. Verilmiş əlamətlərdən biri dilin öz daxili imkanları hesabına yeni söz yaratmağın üsulu hesab oluna bilməz?**
A) arxaizmlərdən istifadə etməklə;
B) yeni söz və ifadələr yaratmaqla;
C) dialekt və şivələrdən söz götürməklə;
D) kalka üsulu ilə söz yaratmaqla;
E) fonetik dəyişmə hesabına sözyaratma.

**121. Hansı sırada verilən şəkilçilər omonim ola bilməz?**
A) –tı$^{4}$, -gə –ıd$^{4}$;
B) –ı$^{4}$, -ın$^{4}$, -qın$^{4}$;
C) –la$^{2}$, -da$^{2}$, -dan$^{2}$;
D) -lı$^{4}$, -kı$^{4}$, -lıq$^{4}$;
E) –ma$^{2}$, -malı$^{2}$, -ası$^{2}$.
**122. Azərbaycan dilinin leksik sisteminin cərgəsini göstərin?**
A) appelyativ leksika, onomastik leksika;
B) xüsusi leksika, ümumişlək leksika;
C) əsasi lüğət fondu, dilin lüğət tərkibi;
D) ümumişlək sözlər, xüsusi leksika;
E) əsas lüğət fondu, passiv lüğət fondu.
**123. Əsl Azərbaycan sözlərinin səciyyəvi xüsusiyyətləri verilmiş cərgəni göstərin?**
A) əsasən təkhecalı olur, cins kateqoriyası sözün leksik mənasında olur, ön şəkilçisi olmur;
B) iki samit yanaşı işlənmir, ön şəkilçi işlənir, əsasən üçhecalı olur;
C) sözlər n və c samitlərilə qurtarır, çoxhecalı olur, 2 samit yanaşı işlənmir;
D) 2 sait yanaşı işlənmir, vurğu dəyişkəndir, ahəngə tabedir;
E) şəkilçi diffuziyaya uğrayır, sözün əvvəlində 2 samit işlənmir.
**124. Azərbaycan dilindəki alınma sözlərin təsnifi prinsipləri hansı cərgədə verilmişdir?**
A) tarixinə, işlənmə dairəsinə, mənşəyinə görə;
B) coğrafi şərait, elmi, mədəni əlaqələrə görə;
C) istilalara məruz qalmasına, obyektiv inkişaf qanunlarına görə;
D) məcburi və zəruri səbəblərə görə;
E) vasitəli və vasitəsiz olmasına görə.
**125. Söz və məfhum arasındakı fərqlərdən hansı doğrudur?**
A) məfhumlar ümumbəşəri səciyyəli, sözlər milli səciyyəlidir;
B) məfhumlar müxtəlif olduğu halda, sözlər eyni olur;
C) sözün həqiqi və məcazi mənası yoxdur, məfhumun isə var;
D) məfhumlar çox mənalılığa malikdir, sözlər isə yox;
E) söz hökm bildirir, məfhum isə söz və hökm bildirir.
**126. Fars mənşəli şəkilçilər hansı cərgədə düzgün verilmişdir?**
A) bi-, na-, ba-;
B) la-, na-, -anti;
C) -stan, ba-, -dır4;
D) -xana, -da2, -zadə;
E) -ban, -saz, -lar2.
**127. Ərəb-fars mənşəli alınma sözlər hansı cərgədə düzgün göstərilmişdir?**
A) məktəb, müayinə, fəaliyyət, saat;
B) azadlıq, kişi, getmək, hünər;
C) ziyarət, fayl, povest, natural;
D) ilıq, zabit, qiyamət, nahaq;
E) naxoş, valyuta, fitva, media.
**128. Omonim şəkilçilər hansılardır?**
A) –ı4, -ın4, -da2, -dan2;
B) –lı4, -lar2, -zadə, -xana;
C) bi-, -la, -stan, -ov (ova);
D) –tı, -dır4, -la2, -lı4;
E) –ımsa4, -ca2, -yana2, -xana.
**129. Ərəb-fars mənşəli alınma sözlər hansı cərgədə düzgün göstərilmişdir?**
A) mədrəsə, malik, sabit, səliqə;
B) vəsiqə, gözəl, gəlmək, görmək;
C) ilıq, işıq, nadinc, baməzə;

D) idrak, susmaq, doqquz, zaman;
E) nahaq, xışıltı, səksən, əlaçı.
**130. Ərəb-fars mənşəli alınma sözlər hansı cərgədə verilmişdir?**
A) asudə, fəal, vəsiqə, nəzakət;
B) Rauf, malik, müəllim, altmış;
C) radio, relyef, nadinc, baməzə;
D) laməkan, jurnal, kollec, doqquz;
E) görüşmək, qəzəblənmək, komandir, tərbiyə.
**131. Dilin semantik sistemindən bəhs edən dilçilik şöbəsi necə adlanır?**
A) Semasiologiya
B) Etimologiya
C) Frazeologiya
D) Leksikologiya
E) Leksikoqrafiya
**132. Fikirlərdən biri səhvdir:**
A) Qrammatik məna hər bir sözün fərdi xüsusiyyətidir
B) Qrammatik məna sözün leksik mənasını ümumiləşdirir
C) Qrammatik mənada mücərrədləşmə daha yüksək səviyyədədir
D) Qrammatik məna həm müstəqil, həm də köməkçi sözlərə aiddir
E) Qrammatik məna daha çox qrammatik vasitələrlə bağlıdır
**133. Öpsün alnımızı axşamın yeli**
**Bu geniş düzlərin əvəzi varmı?**
**(H.Arif)**
**Nümunədə məcazın hansı növü işlənmişdir?**
A) Metafora
B) Metonimiya
C) Sinekdoxa
D) Litota
E) Epitet
**134. İki və ya daha artıq əşyanın yaxınlığı, əlaqəsi əsasında yaranan məcaz necə adlanır?**
A) Metonimiya
B) Metafora
C) Sinekdoxa
D) Litota
E) Epitet
**135. Çoxmənalılıq ən çox hansı nitq hissəsində üstünlük təşkil edir?**
A) Fel
B) İsim
C) Sifət
D) Say
E) Əvəzlik
**136. Bir-birilə əlaqəsi olmayan və məna əlaqəsini çoxdan itirmiş məfhumları ifadə edən, eyni səs tərkibinə malik sözlər necə adlanır?**
A) Omonim
B) Sinonim
C) Antonim
D) Çoxmənalı söz
E) Təkmənalı söz
**137. Fikirlərdən biri səhvdir**
A) Leksik omonimlərə həm də omoqraflar deyilir
B) Omoformlar yazılışı və forması eyni olan müxtəlif vurğulu sözlərdir

C) Fonetik omonimlər səslənmələrinə görə eyni olub, lakin başqa formada yazılan və başqa mənaları bildirən sözlərə deyilir
D) Müasir Azərbaycan ədəbi dilində omonimlər dilin daxili imkanları hesabına və başqa dillərdən alınma sözlər hesabına yaranır
E) Omonimlərin 3 tipi vardır: fonetik, morfoloji və leksik omonimlər
**138. Eyni səs kompleksinə malik olan sözün bir-birinə əks olan mənaları bildirməsi necə adlanır?**
A) Enantiosemiya
B) Polisemiya
C) Monosemiya
D) Antonimlik
E) Sinonimlik
**139. Dilin lüğət tərkibində səslənməsi və yazılışı müxtəlif olub, mənaca bir-birinin tam eynini təşkil edən, aralarında nə məna, nə də üslubi cəhətdən fərq olmayan sözlər necə adlanır?**
A) Leksik dubletlər
B) Evfemizmlər
C) Sinonimlər
D) Antonimlər
E) Omonimlər
**140. Antonimlərə aid fikirlərdən biri səhvdir**
A) Antonimlər quruluşca sadə və mürəkkəb olur
B) Antonimləri təşkil edən sözlər eyni nitq hissəsinə aid olur
C) Ədəbi dilimizdəki antonimlər iki mənbə əsasında əmələ gəlir: dilin daxili imkanları hesabına və başqa dillərdən söz almaqla
D) Ziddiyyətin dərəcəsinə görə antonimlər tam və nisbi olmaqla iki yerə ayrılır
E) Antonimlər dilimizdə həm də təzad yaradır
**141. İctimai yerlərdə işlədilməsi münasib sayılmayan sözlər necə adlanır?**
A) Tabu sözlər
B) Oksümoron
C) Antiteza
D) Evfemizm
E) Varvarizm
**142. Dildə səslənmə cəhətdən bir-birinə yaxın, lakin müxtəlif məna ifadə edən və nitq prosesində səhv olaraq biri digərinin yerində işlənən sözlər necə adlanır?**
A) Paronimlər
B) Leksik dubletlər
C) Sinonimlər
D) Evfemizmlər
E) Omonimlər
**143. Hansı sırada vaxt anlayışı bildirən antonimlər vardır?**
A) yay-qış, dünən-sabah, tez-gec
B) ağ-qara, soyyuq-isti, acı-şirin
C) böyük-kiçik, az-çox, yüngül-ağır
D) o tərəf-bu tərəf, bəli-xeyir, ora-bura
E) qısa-uzun, tənbəl-çalışqan, ön-arxa
**144. Hansı cərgədəki antonimlərin bir tərəfi öz sözümüzlə, digər tərəfi isə alınma sözlə ifadə olunub?**
A) aydın – zülmət
B) isti-soyuq
C) uzun-gödək
D) düz-əyri

E) yazı-pozu
**145. Tabu sözlərə aid xüsusiyyətlərdən biri səhvdir.**
A) Bu sözlərdən ictimai yerlərdə çox istifadə olunur
B) Bu qəbildən olan sözlər əslində etnoqrafik anlayışları bildirir
C) Tabu sözü "ta" (qeyd etmək), pe (tamamilə) sözlərindən ibarətdir
D) Bu sözlərin deyilməsi etik normalara uyğun gəlmir
E) Bu sözlərdən daha çox uşaqları qorxutmaq üçün istifadə edilir. Məs.: cin, xortdan və s.
**146. Hansı bənddə sinonim dialekt sözü əsasında yaranmışdır?**
A) hündür – uca – qəlbi
B) böyük – uca - hündür
C) gözəl – göyçək – qəşəng
D) gözlük – eynək – çeşmək
E) dialekt sözlər sinonim yaradıcılığında iştirak etmir
**147. Türk dilləri ilə ortaqlı olan sözlər hansı cavabdadır?**
A) qardaş, mən, almaq
B) ürək, qoyun, böyürtkən
C) örtmək, quldur, duru
D) yelpənək, azəri, boranı
E) göz, daraq, açıq
**148. Əsl Azərbaycan sözləri olan sıranı göstər.**
A) qatıq, yarpaq, qulaq
B) vərəq, qalib, bəyaz
C) rəmz, cild, idarə
D) pərvaz, çarpayı, gənc
E) filosof, medal, mikrob
**149. Hansı nitq hissələri paronimlər hadisəsində daha fəal iştirak edir?**
A) İsim və sifət
B) İsim və fel
C) Sifət və əvəzlik
D) Fel və sifət
E) Fel və əvəzlik
**150. Fikirlərdən biri səhvdir**
A) Paronimlərin hamısı milli mənşəlidir
B) Paronimlərin 2 növü var: leksik paronimlər, poetik paronimlər
C) Paro-yanında, ətrafında, onoma-ad deməkdir
D) Paronimlik hadisəsi dildə dolaşıqlıq yaradır
E) Paronimlər üçün daha spesifik xüsusiyyət fonetik xüsusiyyətdir
OKTYABR
**151. "Toxunmaq" sözü hansı cümlələrdə məcazi mənada işlənmişdir?**
I- O, dirsəyi ilə mənə toxunub üzr istədi.
II- Heç kəs bu kitablara toxunmasın.
III- Bu sual anaya bərk toxundu.
IV- Uşaq pəncərədəki güldana toxunub yerə saldı.
V- Məruzəçi Qarabağ məsələsinə də toxundu.
A) III, V
B) III, IV, V
C) II, V
D) I, II, IV
E) II, III, V
**152. Çoxmənalı sözlər hansı sıradadır?**
A) Qaş, ayaq, boğaz
B) Hava, əqrəb, yaş

C) Polad, dolu, bağ
D) Xal, çay, say
E) Sifət, bel, bal
**153. “nimdər”, “hancarı”, “becid” sözləri aşağıdakılardan hansına aiddir?**
A) Dialekt sözləri
B) Köhnəlmiş sözlər
C) Poetik sözlər
D) Yeni sözlər
E) Ümumişlək sözlər
**154. Hansı sırada omonim yoxdur?**
A) Kürün bir neçə qolu var. Uşağın qolu sarıqlıdır.
B) Belim ağrıyır. Bel və balta gətir.
C) Uşaqlar top oynayırlar. Düşmən topu susduruldu.
D) Paltar yaşdır. Uşağın yaş kağızını aldım.
E) Göldə qaz üzür. Otaqda qaz iyi var.
**155. “Bel bağlamaq” ifadəsinin antonimi hansıdır?**
A) Ümidini üzmək
B) Ümid bəsləmək
C) Könül bağlamaq
D) Qəlbinə dəymək
E) Əldən düşmək
**156. Bütünlüklə omonimlərdən ibarət cərgə hansıdır?**
A) Bal, zərf, aşıq
B) Dil, diş, yaş
C) Qanad, qaş, bağ
D) Baş, çay, burun
E) Qalın, qol, ayaq
**157. “Təvazökar” sözünün antonimi hansıdır ?**
A) Lovğa
B) Səmimi
C) Mülayim
D) Nadinc
E) Yumşaq
**158. “Cəld”, “diribaş” sözlərinin sinonimini göstərin**
A) Zirək
B) Mülayim
C) Yumşaq
D) Dikbaş
E) Cavan
**159. Hansı fikir səhvdir?**
A) Omonimləri təşkil edən sözlər həmişə eyni nitq hissəsinə aid olur
B) Sinonimləri təşkil edən sözlər eyni nitq hissəsinə aid olur
C) Antonimləri təşkil edən sözlər eyni nitq hissəsinə aid olur
D) Çoxmənalı sözlər arasında mənaca yaxınlıq olur
E) Bir sıra sözlər həm həqiqi, həm də məcazi mənada işlənə bilir
**160. Müxtəlif nitq hissələrinə aid omonimləri göstərin:**
1- Sap
2- Şiş
3- Bar
4- Yaş
5- Hava
6- Oynaq

7- Yal
8- Saç
A) 2;4;6;8
B) 1;2;3;4
C) 2;4;5;8
D) 1;4;6;8
E) 3;4;5;6

**161. Biri isim və fel kimi işlənən omonimdir:**
A) Sürü
B) Sərin
C) Göz
D) Dolu
E) Quru

**162. Hansı cərgədə hər iki sözü omonim kimi işlətmək mümkündür?**
A) çay, yaş
B) ürək, könül
C) yaz, həyət
D) gəlin, külək
E) gül, ev

**163. Hansı cərgə omonim sözlərdən ibarətdir?**
A) çalmaq, qabaq, ay
B) yara, kağız, dolma, səma
C) dolu, iraq, igid, yük
D) donluq, yuxa, ox, ürək
E) göy, üçmaq, tale, hava

**164. Sözlərdən yalnız biri omonim ola bilər:**
A) qaz
B) dəftər
C) elm
D) külək
E) rəng

**165. Hansı cərgədəki antonimlər dilin daxili imkanları hesabına yaranıb?**
A) yuxarı-aşağı, isti-soyuq, əkin-biçin
B) yazı-pozu, sual-cavab,piyada-süvari
C) səfa-cəfa, halal-haram, inam-şübhə
D) ağa-nökər, nikbin-bədbin, kasıb-varlı
E) əvvəl-axır, xoşbəxt-bədbəxt, dost-düşmən

**166. Hansı xüsusiyyət antonimlərə aid deyil?**
A) Yalnız dilin daxili imkanları hesabına yaranır
B) Quruluşca sadə, düzəltmə və mürəkkəb olur
C) Bu sözlər eyni nitq hissəsinə aid olur
D) Antonimlər vasitəsilə dildə antiteza hadisəsi yaranır
E) Antonimlərin bir qismi mürəkkəb sözləri əmələ gətirir

**167. Paronim sözlər nədir?**
A) Dildə səslənmə cəhətinə görə bir-birinə yaxın olan, lakin müxtəlif məna ifadə edən sözlərdir
B) İctimai yerlərdə işlədilməsi münasib sayılmayan sözlərdir
C) Bir-birilə əlaqəsi olmayan, eyni səs tərkibinə malik sözlərdir
D) Formaca müxtəlif, mənaca bir-birinin əksi olan sözlərdir
E) Bir məfhumun bir deyil, bir neçə müxtəlif sözlə ifadə edən sözlərdir

**168. Sinonimlərdən hansı alınmadır?**
A) hal-əhval, məram-niyyət, nicat-xilas

B) başlıq-sərlövhə, naxoş-nasaz, dost-aşna
C) ahıl-yaşlı, aylıq-donluq, gen-enli
D) qəm-dərd, azar-xəstəlik, kiçik-balaca
E) varlı-dövlətli, ləqəb-ayama, uca-qəlbi
**169. Biri çoxmənalı söz deyil:**
A) Danlamaq
B) Almaq
C) Atmaq
D) Yaymaq
E) Çəkmək
**170. Sözlərdən yalnız biri omonim kimi işlənə bilər:**
A) Bənd
B) Arx
C) Misra
D) Sətir
E) Nəzm
**171. İsim və fel kimi işlənə bilən omonimi göstərin:**
A) İnci
B) Mirvari
C) Sancaq
D) Sarı
E) Gəlin
**172. "Müsahib" sözünün leksik təhlilinə aid düzgün fikri müəyyənləşdirin:**
A) Leksik mənasına görə "həmsöhbət" deməkdir
B) Milli sözdür
C) Omonimdir
D) Qrammatik mənasına görə hərəkət bildirir
E) Sinonimi yoxdur
**173. "Gözüaçıq" sözünün leksik təhlili ilə bağlı səhv cavabı göstərin**
A) Antonimi yoxdur
B) Omonim ola bilmir
C) Ümumişlək sözdür
D) Bir sadə, bir düzəltmə sözdən əmələ gəlmişdir
E) Əsl Azərbaycan sözüdür
**174. Aşağıdakı xüsusiyyətlərdən biri frazeoloji vahidlərlə sözlər arasındakı oxşar xüsusiyyətlərə aid deyil?**
A) hər ikisinin sintaktik vəzifəsi yoxdur;
B) hər ikisinin leksik mənası vardır;
C) hər ikisinin quruluşu olur;
D) hər ikisi başqa sözlərlə sintaktik əlaqəyə girir;
E) hər ikisi bir məfhumu ifadə edir.
**175. Aşağıdakı xüsusiyyətlərdən biri frazeoloji vahidlərlə sözlər arasındakı oxşar xüsusiyyətlərə aid deyil?**
A) hər ikisinin omonimi, sinonimi və antonimi yoxdur;
B) hər ikisi dil vahididir və cümlə üçün tikinti materialıdır;
C) hər ikisi bu və ya digər nitq hissəsinə aiddir;
D) hər ikisinin quruluşu olur;
E) hər ikisinin leksik mənası vardır.
**176. "Ağız açmaq" frazeoloji birləşməsinə hansı məna yaxındır?**
A) xahiş etmək
B) yalnız həqiqi məna bildirir
C) arzu etmək

D) yalnız sərbəst söz birləşməsidir
E) dil-dil ötmək
**177. Frazeoloji birləşmələri tapın:**
A) əldən düşmək, qulaq asmaq, başa salmaq
B) gülməli hadisə, aparılası məktub, yazılacaq əsər
C) oxuyan tələbə, ağlayan insan, görünməmiş gözəl
D) yaşıl bayraq, çay içmək, mahnı oxumaq
E) gözə gəlmək, yol getmək, sinif otağı
**178. Frazeoloji birləşməyə hansı xüsusiyyət aiddir?**
A) Təhlil zamanı bütöv götürülür
B) Əsas və asılı tərəfi olmur
C) Onların qarşılığını bir sözlə ifadə etmək mümkün olmur
D) Onları əmələ gətirən sözlər ilkin mənalarından uzaqlaşır
E) Tərəfləri birlikdə bir leksik məna bildirir
**179. Aşağıdakı xüsusiyyətlərdən biri frazeoloji vahidlərə aid deyil?**
A) frazeoloji vahidlər möhkəm milli xüsusiyyətə malik deyil;
B) frazeoloji vahidlər bir ümumi mənanı bildirir;
C) frazeoloji vahidlər obrazlı, emosional olur;
D) frazeoloji vahidlərin tərəfləri məcazi mənada işlənir;
E) frazeoloji vahidlər dildə hazır şəkildə mövcuddur.
**180. Frazeoloji vahidlər sözdən hansı xüsusiyyətlərinə görə fərqlənir?**
A) sözlər həm həqiqi, həm də məcazi, frazeoloji vahidlər isə ancaq məcazi mənada işlənir;
B) hər ikisinin omonimi, sinonimi və antonimi olur;
C) hər ikisi bu və ya digər nitq hissəsinə aiddir;
D) hər ikisinin quruluşu olur;
E) hər ikisinin sintaktik vəzifəsi vardır.
**181. Aşağıdakılardan biri frazeoloji birləşmələr ilə sözlər arasındakı fərqli xüsusiyyətlərə malik deyil?**
A) hər ikisi bu və ya digər nitq hissəsinə aiddir;
B) sözlərdən yeni söz düzəltmək olur, frazeoloji vahidlər isə cümlə yaratmağa xidmət edir;
C) sözlər həm həqiqi, həm də məcazi, frazeoloji vahidlər isə ancaq məcazi mənada işlənir;
D) sözlər adlandırır, frazeoloji vahidlər isə obrazlı şəkildə adlandırır;
E) frazeoloji vahidlər sözlər əsasında formalaşır.
**182. Sinonim frazeoloji vahidlər hansılardır?**
A) abırdan salmaq – abrını ətəyinə bükmək, qoyunu qurda tapşırmaq – quzunu qurda tapşırmaq;
B) ağzı qatıq kəsmək – ağzı pendir kəsmək, ara düzəltmək – ara pozmaq;
C) başı açılmaq-başı qarışıq olmaq, əli boşa çıxmaq – əli boşda qalmaq;
D) başını pambıqla kəsmək – pambıqla baş kəsmək, bərk ayaqda-boş ayaqda;
E) xoşbəxt olmaq-bədbəxt olmaq, acığı gəlmək-xoşu gəlmək.
**183. Sinonim frazeoloji vahidlər hansılardır?**
A) baş-başa gəlmək – kəllə-kəlləyə gəlmək, ürəyini açmaq – qəlbini açmaq;
B) üzü ağ olmaq – üzü qara olmaq, ağlı başına gəlmək-ağlı başından çıxmaq;
C) başını bağlamaq –ayağını açmaq, kefini açmaq – qanını qaraltmaq;
D) acığı gəlmək –xoşu gəlmək, abırdan salmaq-abrını ətəyinə bükmək;
E) xoşu gəlmək – zəhləsi getmək, dayaq durmaq-dalından qaçmaq.
**184. Antonim frazeoloji vahidlər hansılardır?**
A) acığı gəlmək – xoşu gəlmək, məsləhət almaq-məsləhət vermək;
B) istiqamət almaq-istiqamət götürmək, başa çatdırmaq-başa vurmaq;
C) ağıl vermək-ağıl öyrətmək, azarı tutmaq-azarı qalxmaq;
D) ələ keçirmək-ələ almaq, ürəyini açmaq-qəlbini açmaq;
E) əli boşa çıxmaq-əli boşda qalmaq, dilə-dişə düşmək-dilə-ağıza düşmək.
**185. Xalq ədəbiyyatı əsasında əmələ gələn frazeologizmlər hansılardır?**

A) Kərəm kimi alışmaq, Koroğlu kimi nərə çəkmək;
B) İsgəndər kimi sədd aşmaq, Çin səddi çəkmək;
C) Nadiri taxtda görmək, axına qarşı çıxmaq;
D) İynə üstə oturmaq, qlaflı adam;
E) Kəbədə yağ içmək, züy tutmaq.

**186. Xalq ədəbiyyatı əsasında əmələ gələn frazeologizmlər hansılardır?**
A) Qəribi burada ağlamaq tutub, Leyli-Məcnun olmaq;
B) Nuhu beşikdə görmək, Nadiri taxtda görmək;
C) Nuh tufanı qopmaq, İsgəndər kimi sədd aşmaq;
D) Mizrabı sarı simə vurmaq, züy tutmaq;
E) aşının suyunu vermək, quşu gözündən vurmaq.

**187. Tarixi şəxsiyyətlərin adı ilə yaranan frazeologizmlər hansılardır?**
A) Nadiri taxtda görmək, İsgəndər kimi sədd aşmaq;
B) Kərəm kimi alışmaq, Nuhu beşikdə görmək;
C) Koroğlu kimi nərə çəkmək, Çin səddi çəkmək;
D) Kəbədə yağ içmək, Nuhun gəmisi;
E) Məcnun kimi dağa-daşa düşmək, zurna çalmaq.

**188. Coğrafi adlarla bağlı yaranan frazeologizmlər hansılardır?**
A) Çin səddi çəkmək, Kəbədə yağ içmək;
B) Qəribi burada ağlamaq tutuq, aşını bişirmək;
C) Pərdəni yırtmaq, qəpiyə güllə atmaq;
D) Zurna çalmaq, Leyli-Məcnun olmaq;
E) Kərəm kimi alışmaq, qaytağı oynamaq.

**189. Dini əfsanə və rəvayətlər əsasında yaranmış frazeologizmlər hansılardır?**
A) Nuhu beşikdə görmək, Nuh tufanı qopmaq;
B) Koroğlu kimi nərə çəkmək, Leyli-Məcnun olmaq;
C) Kərəm kimi alışmaq, Çin səddi çəkmək;
D) İynə üstə oturmaq, zurna çalmaq;
E) Qaytağı oynamaq, aşını bişirmək.

**190. Dini əfsanə və rəvayətlər əsasında yaranmış frazeologizmlər hansılardır?**
A) Nuh Əyyamdan qalmaq, Həzrət İsa kimi qeyb olmaq;
B) Mizrabı sarı simə vurmaq, züy tutmaq;
C) Kərəm kimi alışmaq, Leyli-Məcnun olmaq;
D) Koroğlu kimi nərə çəkmək, Kəbədə yağ içmək;
E) Axına qarşı çıxmaq, Mizrabı sarı simə vurmaq.

**191. Peşə-sənətlə bağlı əmələ gəlmiş frazeologizmlər hansılardır?**
A) Mizrabı sarı simə vurmaq, züy tutmaq;
B) Kərəm kimi alışmaq, Leyli-Məcnun olmaq;
C) Züy tutmaq, aşının suyunu vermək;
D) Qəpiyə güllə atmaq, iynə üstə oturmaq;
E) Nuhu beşikdə görmək, Nuh tufanı qopmaq.

**192. Peşə-sənətlə bağlı əmələ gəlmiş, frazeologizmlər hansılardır?**
A) pərdəni yırtmaq, iynə üstə oturmaq;
B) ümumi dil tapmaq, Çin səddi çəkmək;
C) Nadiri taxtda görmək, Koroğlu kimi nərə çəkmək;
D) Kərəm kimi alışmaq, Nuh əyyamdan qalmaq;
E) Həzrət İsa kimi qeyb olmaq, axına qarşı çıxmaq.

**193. Peşə-sənətlə bağlı əmələ gəlmiş frazeologizmlər hansılardır?**
A) züy tutmaq, zurna çalmaq;
B) Nuhun gəmisi, Leyli-Məcnun olmaq;
C) Koroğlu kimi nərə çəkmək, qəpiyə güllə atmaq;
D) qlaflı adam, axına qarşı çıxmaq;

E) ümumi dil tapmaq, aşını bişirmək.
**194. Peşə-sənətlə bağlı əmələ gəlmiş frazeologizmlər hansılardır?**
A) aşının suyunu vermək, qəpiyə güllə atmaq;
B) ümumi dil tapmaq, Amerika kəşf etmək;
C) qlaflı adam, aşını bişirmək;
D) Kərəm kimi alışmaq, Koroğlu kimi nərə çəkmək;
E) Məcnun kimi dağa-daşa düşmək, Nuhun gəmisi.
**195. Peşə-sənətlə bağlı əmələ gəlmiş frazeologizmlər hansılardır?**
A) İynə üstə oturmaq, quşu gözündən vurmaq;
B) Kərəm kimi alışmaq, Məcnun kimi dağa-daşa düşmək;
C) Leyli-Məcnun olmaq, Isgəndər kimi sədd çəkmək;
D) Çin səddi çəkmək, Kəbədə yağ içmək;
E) Nuh əyyamdan qalmaq, aşını bişirmək.
**196. Peşə-sənətlə bağlı əmələ gəlmiq frazeologizmlər hansılardır?**
A) Mizrabı sarı simə vurmaq, iynə üstə oturmaq;
B) Nuhu beşikdə görmək, Nuh tufanı qopmaq;
C) Ümumi dil tapmaq, Həzrət İsa kimi qeyb olmaq;
D) Nuhun gəmisi, Koroğlu kimi nərə çəkmək;
E) Leyli-Məcnun olmaq, Amerika kəşf etmək.
**197. Frazeoloji vahidlər ilə mürəkkəb sözlər arasındakı fərq nədən ibarətdir?**
A) Mürəkkəb sözləri başqa dilə tərcümə eləmək olur, frazeoloji vahidləri olduğu kimi tərcümə eləmək olmur;
B) hər ikisi ancaq leksik vahid kimi götürülür;
C) hər ikisi həm həqiqi, həm də məcazi mənaya malik olur;
D) hər ikisi obrazlı şəkildə olur;
E) hər ikisindən yeni söz düzəltmək olur.
**198. Aşağıdakılardan biri frazeoloji vahidlər ilə sözlər arasındakı fərqli xüsusiyyətə aid deyil?**
A) həm frazeoloji vahidlər, həm də sözlər başqa sözlərlə sintaktik əlaqəyə girir;
B) frazeoloji vahidlər sözlər əsasında formalaşır, söz isə kök və şəkilçi əsasında formalaşır;
C) sözlərdən yeni söz düzəltmək olur, frazeoloji vahidlər isə cümlə yaratmağa xidmət edir;
D) sözlər həm həqiqi, həm də məcazi frazeoloji vahidlər isə ancaq məcazi mənada işlənir;
E) sözlər adlandırır, frazeoloji vahidlər isə obrazlı şəkildə adlandırır.
**199. Aşağıdakılardan hansı oronimlərdir?**
A) Bozdağ, Dəlidağ, Şahdağ;
B) Bərdə, Qazax, Salyan;
C) Alpaut, Badar, Bucaq;
D) Bozdağ, Dağ Cəyir (Şamxor), Dağ Kəsəmən/Qazax;
E) Yuxarı Qışlaq, Yengicə, Yengibar.
**200. Aşağıdakılardan hansı zootoponimlərdir?**
A) İlanboğan, Atbulaq, Dəvəçi;
B) Qızılağac, Meşəli, Ördəkli;
C) Moruxlu, Fındıqlı, Tikanlı;
D) Atbulaq, Çinarlı, Ceyrançöl;
E) Qozlu, Tikanlı, Ceyrançöl.
**201. Aşağıdakılardan hansı düzəltmə toponimlərdir?**
A) Dondarlı (Qubadlı), Şirvanlı (Bərdə), Yaqublu;
B) Çaykənd, Qalakənd, Qanaqkənd;
C) Alpaut, Bucaq, Böyük tala;
D) Böyük tala, Dağ cəyir, Samanlıq;
E) Dondarlı, Şıxlar, Padar.

**202. Dromonimikada nə öyrənilir?**
A) quru, su, hava və yeraltı nəqliyyat xətlərinin, yolların adları öyrənilir;
B) xalq, tayfa, qəbilə adları öyrənilir;
C) heyvan, quş adlarından əmələ gəlmiş toponimlər öyrənilir;
D) bitki adlarından əmələ gəlmiş toponimlər;
E) adam adları öyrənilir.
**203. Hansı fitotoponimdir?**
A) Almalı;
B) Atbulaq;
C) Dəvəçi;
D) Laçın;
E) Ördəkli.
**204. Aşağıdakı xüsusiyyətlərdən biri frazeoloji vahidlərin xüsusiyyətlərinə aid edilə bilməz?**
A) frazeoloji vahidlər möhkəm milli xüsusiyyətə malik olduğuna görə başqa dilə asanlıqla tərcümə olunur;
B) bir sıra frazeoloji vahidlərdə eyni söz təkrar olunur;
C) frazeoloji vahidlər dildə hazır şəkildə mövcuddur;
D) frazeoloji birləşmələr emosional və obrazlıdır;
E) frazeoloji birləşmələrin tərəfləri məcazi mənada işlədilir.
**205. Aşağıdakılardan biri frazeoloji vahidlərin sözlə oxşar xüsusiyyətlərinə aid edilə bilməz?**
A) hər ikisi ancaq məcazi mənaya malikdir;
B) hər ikisi leksik mənaya malikdir;
C) hər ikisinin sintaktik vəzifəsi var;
D) hər ikisi bir məfhum ifadə edir;
E) hər ikisinin omonimi, sinonimi və antonimi olur.
**206. Aşağıdakılardan biri frazeoloji birləşmələrə aid edilə bilməz?**
A) sabit söz birləşmələrində sözlər mənaca müstəqil olur;
B) sabit söz birləşmələrini hissələrə ayırmaq olmur;
C) bütün sabit söz birləşmələri sərbəst söz birləşmələrindən yaranıb;
D) sabit söz birləşmələri dildə hazır şəkildədir;
E) sabit söz birləşmələrin tərkibini və sırasını pozmaq olmaz.
**207. Sözün ad bildirməsi funksiyası necə adlanır?**
A) nominativ funksiya
B) ad dəyişmə funksiyası
C) kommunikativ funksiya
D) mənanın dəyişilməsi funksiyası;
E) mənanın köçürülməsi funksiyası.
**208. Nisbi sinonimlər hansı cərgədə düzgün göstərilmişdir?**
A) cild – rəng
B) uca - hündür
C) gözəl – göyçək
D) qoçaq - igid
E) xırda - balaca
**209. Sözün daxili cəhətinin əsas cəhətləri hansılardır?**
A) məna, müstəqillik, sabitlik, anlaşıqlıq;
B) fonetik formalaşma, ahəngə tabe olma, məna;
C) semantik valentlik, ahəngə tabe olma, məna;
D) müstəqillik, bütövlük, fonetik cəhətdən formalaşma;
E) bir vergüllü olmaq, semantik valentlik, bütövlük.
**210. Sözün formasını səciyyələndirən əlamətləri göstərin?**

A) fonetik tərkibi, sözün forması, səslənməsi;
B) sözün mənası, məfhumla bağlılığı, nominativ funksiyası;
C) sözün fonetik tərkibi, məfhumla bağlılığı, daxili aləmi;
D) sözün daxili aləmi, anlayışla bağlılığı;
E) anlayışı ifadə etməsi, məfhumla bağlılığı.

**211. Sözlərin mənşəyini öyrənən dilçilik bölməsi necə adlanır?**
A) Etimologiya
B) Semasiologiya
C) Leksikologiya
D) Onomalogiya
E) Frazeologiya

**212. Köhnəlmiş sözlərin müəyyənləşdirilməsinin əsas meyarı nədir?**
A) dilin müasir vəziyyəti
B) işləkliliyini itirmə
C) dilin tarixiliyi
D) sözün dialektlərdə işlənməsi
E) sözün bədii əsərdə işlənməsi

**213. Fikirlərdən biri səhvdir**
A) Ləqəblər müsbət məna kəsb etdiyi halda, təxəllüslər müsbət və mənfi mənalara malik olur
B) Təxəllüslər rəsmi, ləqəblər isə qeyri-rəsmi xarakter daşıyır
C) Ləqəblər hər bir şəxsə, təxəllüslər isə tanınmış adamlara, görkəmli şəxsiyyətlərə verilir
D) Təxəllüsü şəxsin özü seçir, ləqəblər isə şəxsə adamlar tərəfindən verilir
E) Təxəllüslər sayca az, ləqəblər isə çoxdur

**214. Şəhərdəki bütün coğrafi obyektlərin, küçələrin, dalanların, məhəllələrin adlarını öyrənən elm sahəsi necə adlanır?**
A) Urbanonimika
B) Aqronimika
C) Oronimika
D) Oykonimika
E) Dromonimika

**215. Maddi-mədəniyyət abidələrinin, elm və texnika adlarının, elmi-mədəni əsərlərin adlarının, inzibati idarə adlarının, təşkilat, məqalə, park və s. adlarının öyrənilməsi ilə məşğul olan elm sahəsi necə adlanır?**
A) Ktematonimlər
B) Hidronimlər
C) Zoonimlər
D) Kosmonimlər
E) Antroponimlər

**216. Şəxs adları, familiya, təxəllüs və ləqəblərin tədqiq olunduğu onomastika bölməsi hansıdır?**
A) antroponimika
B) kosmonimika
C) hidronimika
D) etnonimika
E) toponimika

**217. Xasiyyətə, xarakterə görə verilən ləəqəblər haysılardır?**
A) Yalançı Səbzəli, Tənbəl Əhməd
B) Dərzi Kamak, Misgər Nəsib
C) Yekə Xıdır, Çopur Alı
D) Tülkü Məmməd, Qotur Məhərrəm
E) Kürd Musa, Gürcü Vəli

**218. Sadalanan xüsusiyyətlərdən hansı təxəllüslərə aid edilə bilməz?**

A) təxəllüs şəxsə adamlar tərəfindən verilir
B) təxəllüslər rəsmi xarakter daşıyır
C) təxəllüslər başqa dilə tərcümə olunmur
D) təxəllüslərin bir qismi şəxs adlarına çevrilir: Füzuli, Müşfiq və s.
E) təxəllüslər müsbət məna kəsb edir
**219. Düzəltmə toponimlər hansı cərgədədir?**
A) Şıxlar, Almalı, Dondarlı
B) Padar, Oğuz, Xələc
C) Qacar, Qonaqkənd, Çaykənd
D) Göyçay, Atbulaq, Alpaut
E) Bucaq, Qarabulaq, Xanlıqoba
**220. Urbanonimika nəyi öyrənir?**
A) şəhərdəki bütün coğrafi obyektlərin – küçələrin, dalanların, məhəllələrin adlarını
B) su obyektlərinin adlarını
C) dağ, dərə, düz, təpə adlarını
D) makrotoponimləri
E) mikrotoponimləri
**221. Frazeoloji vahidlərə aid xüsusiyyətlərdən biri düzgün deyildir**
A) Frazeoloji vahidlər obrazlılıq və emosionallıq yaratmır
B) Frazeoloji vahidlər başqa dillərə tərcümə olunmur
C) Dildə hər hansı mənanı ifadə edən hər bir sabit birləşməyə, bölünməz ifadə və ibarələrə frazeoloji vahid deyilir
D) Frazeoloji vahidlərin mənasında sözlərin bir-birinə qaynayıb-qarışması və qovuşması özünü aydın göstərir
E) Frazeoloji vahidləri təşkil edən sözlər onun tərəfləri, komponentləri adlanır
**222. 1279-cu ildə türklərə fars dilində daha düzgün yazmaq qaydalarını öyrətmək məqsədilə yazılmış əsər hansıdır və müəllifi kimdir?**
A) Fəxrəddin Hinduşah Naxçıvani "Əs-sihah əl-əcəmiyyə"
B) Mahmud Kaşğari "Divani-lüğət-it-türk"
C) İbn Mühənna "Kitabi-məcmueyi-tərcümani türki, farsi və monqoli"
D) Məhəmməd Naxçıvani "Sihah əl-fors"
E) Əlişir Nəvai "Mühakimətül lüğəteyn"
**223. "Qanad açıb uçmaq" frazeoloji birləşməsinin antonimi hansıdır?**
A) Qəm dəryasına batmaq
B) Könül açmaq
C) Dəridən-qabıqdan çıxmaq
D) Döşünə döymək
E) Burnunun ucu göynəmək
**224. Aşağıdakılardan biri frazeoloji vahidlərin məna növlərindən birinə aid deyil?**
A) mürəkkəb frazeoloji vahidlər
B) omonim frazeoloji vahidlər
C) sinonim frazeoloji vahidlər
D) antonim frazeoloji vahidlər
E) çoxmənalı frazeoloji vahidlər
**225. Peşə-sənət leksikası hansı bənddə verilmişdir?**
A) kürə, təndir, lavaş;
B) səs, söz, cümlə;
C) hidrogen, oksigen, karbon;
D) güc, qüvvət, təzyiq;
E) toplama, çıxma, vurma.
**226. Çoxmənalı frazeoloji vahid nədir?**
A) eyni frazeoloji vahidin bir sıra mənaları bildirməsi;

B) eyni sabit birləşmənin fərqli mənaları bildirməsi;
C) frazeoloji vahidlərin birinin digərini əvəz etməsi;
D) frazeoloji vahidlərin bir-birinin əksi şəkildə işlənməsi;
E) həm eyni sabit birləşmənin fərqli mənaları bildirməsi, həm də birinin digərini əvəz etməsi.

**227. İsmi frazeologizm hansıdır?**
A) dəvəsi ölmüş ərəb, quyruqlu ilan, qan çanağı;
B) Allahın bəlası, abrına qısılmaq, boynuna qalmaq;
C) boynuna götürmək, arabanın dal çarxı, ürəyinə gətirmək;
D) ürəyin başı, dilinə gətirmək, ağzını dağıtmaq;
E) dəryada balıq sevdası, ağzını sürümək, ağlını itirmək.

**228. İsmi frazeologizmlər hansılardır?**
A) çağrılmamış bayatı,ayağı ağır, ürəyi dağlı;
B) dəvəsi ölmüş ərəb, ağzını sürümək, ağlını itirmək;
C) başını itirmək, burnunu sallamaq, quyruqlu ilan;
D) dodağını sallamaq, barmağını dişləmək, Allahın bəlası;
E) başını qorumaq, dəryada balıq sevdası, quyruqlu ilan.

**229. Feli frazeologizmlər hansılardır?**
A) qulaq asmaq, fikir vermək, dərd çəkmək;
B) dəvəsi ölmüş ərəb, quyruqlu ilan, qan çanağı;
C) elm dəryası, Allahın bəlası, ayağından çəkmək;
D) ayağı yüngül, başından basmaq, dalından qaçmaq;
E) milçəyini qorumaq, xəyalından keçirmək, ürəyi dağlı.

**230. Feli frazeologizmlər hansılardır?**
A) pəl vurmaq, əldən salmaq, abırdan salmaq;
B) anasını ağlatmaq, ürəyin başı, ayağı ağır;
C) çağrılmamış bayatı, dağdan ağır, özünü tutmaq;
D) dağdan ağır, dalından qaçmaq, burnunu sallamaq;
E) boynundan atmaq, nəzər salmaq, ayağı ağır.

**231. Feli frazeologizmlər hansılardır?**
A) abırdan salmaq, nəzər salmaq, ağzını sürümək;
B) gün görmək, dövran sürmək, Allahın bəlası;
C) baş aparmaq, oyun çıxarmaq, ayağı yüngül;
D) dağdan ağır, çağrılmamış bayatı, aranı pozmaq;
E) aranı qarışdırmaq, dilinə gətirmək, arabanın dal çarxı.

**232. İsmi frazeologizimlər hansılardır?**
A) dağdan ağır, ürəyi yaralı, barmaq hesabı;
B) dəryada balıq sevdası, nəzər salmaq, başından atmaq;
C) xəyalından keçirmək, özündən çıxmaq, mat qalmaq;
D) özündən getmək, Allahın bəlası, dövran sürmək;
E) abrına qısılmaq, burnundan tökmək, ölüm ayağı.

**233. Omonim frazeoloji vahidlər hansılardır?**
A) can vermək, üz ağartmaq, əl atmaq;
B) əl açmaq, ara düzəltmək –ara pozmaq;
C) bərk ayaqda-boş ayaqda, ələ keçirmək;
D) əl qaldırmaq, atəş açmaq – atəşə tutmaq;
E) lağa qoymaq, əli yatmaq – əli öyrənmək.

**234. Antonim frazeoloji vahidlər hansılardır?**
A) ağ gün-qara gün, üzü ağ olmaq-üzü qara olmaq;
B) başa çatdırmaq-başa vurmaq, özünə gətirmək-huşa gətirmək;
C) yaxşı düşməz-yaxşı çıxmaz, gözü doymamaq-gözü ac olmaq;
D) ağıl vermək-ağıl öyrətmək, azarı tutmaq-azarı qalxmaq;
E) zəhləsi getmək-zəhləsi qaçmaq, dövran sürmək-həyat sürmək.

**235. Antonim frazeoloji vahidlər hansılardır?**
A) ad almaq-ad batırmaq, ara düzəltmək-ara pozmaq;
B) əli yatmaq-əli öyrənmək, zəhləsi getmək-zəhləsi qaçmaq;
C) xətrini qırmaq-xətrini sındırmaq, qılığına girmək-qılıq etmək;
D) atəş açmaq-atəşə tutmaq, ələ keçirmək-ələ almaq;
E) dövran sürmək-həyat sürmək, yaxşı düşməz-yaxşı çıxmaz.
**236. Antonim frazeoloji vahidlər hansılardır?**
A) bərkə-boşa düşmək – bərkdən-boşdan çıxmaq, başı açılmaq-başı qarışıq olmaq;
B) istiqamət almaq-istiqamət götürmək, əl qaldırmaq;
C) özünə gətirmək-huşa gətirmək, baş vermək;
D) zəhləsi getmək-zəhləsi qaçmaq, lağa qoymaq;
E) əli yatmaq-əli öyrənmək, əl qaldırmaq.
**237. Sinonim frazeoloji vahidlər hansılardır?**
A) əli yatmaq-əli öyrənmək, zəhləsi getmək-zəhləsi qaçmaq;
B) bərk ayaqda-boş ayaqda, ağ gün-qara gün;
C) xətrini qırmaq-xətrini sındırmaq, kələfin ucunu itirmək-kələfin ucunu tapmaq;
D) qılığına girmək-qılıq etmək, ara düzəltmək-ara pozmaq;
E) ad almaq-ad batırmaq, özünə gəlmək-özündən getmək.
**238. Sinonim frazeoloji vahidlər hansılardır?**
A) başa çatdırmaq-başa vurmaq, gözü doymamaq-gözü ac olmaq;
B) bərk ayaqda-boş ayaqda, ələ keçirmək-ələ almaq;
C) ara düzəltmək-ara pozmaq, atəş açmaq-atəşə tutmaq;
D) başı açılmaq-başı qarışıq olmaq, başa çatdırmaq-başa vurmaq;
E) ağ gün-qara gün, dildən-dilə düşmək – dilə-ağıza düşmək.
**239. Alınma yolla əmələ gəlmiş frazeologizmlər hansılardır?**
A) qlaflı adam, axına qarşı çıxmaq;
B) züy tutmaq, aşının suyunu vermək;
C) zurna çalmaq, ümumi dil tapmaq;
D) Çin səddi çəkmək, iynə üstə oturmaq;
E) aşını bişirmək, Leyli-Məcnun olmaq.
**240. Alınma yolla əmələ gəlmiş frazeologizmlər hansılardır?**
A) Amerika kəşf etmək, ümumi dil tapmaq;
B) Həzrət Isa kimi qeyb olmaq, Çin səddi çəkmək;
C) Leyli-Məcnun olmaq, Kərəm kimi alışmaq;
D) Nadiri taxtda görmək, pərdəni yırtmaq;
E) İynə üstə oturmaq, aşının suyunu vermək.
**241. Kommunikativ frazeologizmlər hansılardır?**
A) Haranın daşını başıma salım, yağışdan çıxıb yağmura düşdüm.
B) Nuhu beşikdə görmək, pərdəni yırtmaq;
C) axına qarşı çıxmaq, Amerika kəşf etmək;
D) Nuh əyyamdan qalmaq, iynə üstə oturmaq;
E) qlaflı adam, Leyli-Məcnun olmaq.
**242. Kommunikativ frazeologizmlər hansılardır?**
A) Adı var, özü yoxdur, Elə bil qurbağa gölünə daş atdım.
B) Kərəm kimi alışmaq, Qəribi burada ağlamaq tutub;
C) Koroğlu kimi nərə çəkmək, Nadiri taxtda görmək;
D) İsgəndər kimi sədd aşmaq, züy tutmaq;
E) Zurna çalmaq, axına qarşı çıxmaq.
**243. Kommunikativ frazeologizmlər hansılardır?**
A) qaz vurub qazan doldurmaq lazımdır, kasa dibi yalayandır;
B) ümumi dil tapmaq, quşu gözündən vurmaq;
C) qlaflı adam, Məcnun kimi dağa-daşa düşmək;

D) İsgəndər kimi sədd aşmaq, Nuhun gəmisi;
E) aşını bişirmək, Amerika kəşf etmək.
**244. Atalar sözü və məsələlər əsasında əmələ gəlmiş frazeoloji vahidlər hansılardır?**
A) qarnı götürməmək, üz verməmək;
B) ayağının altını qazmaq, ağzına su almaq;
C) üz göstərmək, qulaq çəkmək;
D) ayağından çəkmək, başından basmaq;
E) boynundan atmaq, xəyalından keçirmək.
**245. Hansı bənddə yalnız leksik arxaizmlər verilmişdir?**
A) ayıtmaq, əsrük, yeg
B) qanğı, qamu, xansı
C) ol, kim, tutsaq
D) çöl, qansı, kim
E) qoçu, donluq, kim
**246. Hansı cərgədə tarixizmlər işlənmişdir?**
A) töycü, çuxa, batman;
B) ayıtmaq, əsrük, tamu;
C) yey, qanğı, tutsaq;
D) yazı, uçmaq, irişmək;
E) donluq, qoçu, xalat.
**247. Aşağıdakı xüsusiyyətlərdən biri frazeoloji birləşmələrə aid deyil:**
A) Xüsusi frazeoloji vahidlər müəyyən ərazidə (şəhər, kənd, qəsəbə) yaranır
B) Frazeoloji vahidlər ümumi və xüsusi olur
C) Frazeoloji vahidlər 2, 3 və daha çox komponentə malik ola bilirlər
D) Ümumi frazeoloji vahidlər ümumxalq tərəfindən işlədilir
E) Dildə olan hər hansı sabit birləşməyə, bölünməz ifadə və ibarələrə deyilir
**248. Aşağıdakı xüsusiyyətlərdən biri frazeoloji vahidlərə aid deyil:**
A) Frazeoloji vahidlər leksik və morfoloji yolla yaranır
B) Frazeoloji vahidlər obrazlı və emosional olur
C) Frazeoloji vahidlərin tərəfləri məcazi mənada işlədilir
D) Başqa dillərə kalka yolu ilə tərcümə olunur
E) Frazeoloji vahidlərin omonim, sinonim və antonimi olur
**249. Biri frazeoloji vahidlərin sözlə oxşar xüsusiyyətlərinə aid deyil**
A) Hər ikisinin məna müstəqilliyi var
B) Hər ikisinin leksik mənası var
C) Hər ikisinin sintaktik vəzifəsi var
D) Hər ikisi başqa sözlərlə sintaktik əlaqəyə girir
E) Hər ikisi dil vahididir
**250. Biri frazeoloji vahidləri sözdən fərqləndirən xüsusiyyətlərə aid deyil**
A) Sözlər həqiqi, frazeoloji vahidlər isə həm həqiqi, həm də məcazi mənada işlənir
B) Sözlərdən yeni söz, frazeoloji vahidlərdən isə cümlə yaranır
C) Sözlər morfemdən, frazeoloji vahidlər isə sözlərdən yaranır
D) Sözlər adlandırır, frazeoloji vahidlər isə obrazlı şəkildə adlandırır
E) Sözlər söz yaradıcılığı modelləri əsasında, frazeoloji vahidlər isə qrammatik modellər əsasında əmələ gəlir
**251. Aşağıda sadalanan xüsusiyyətlərdən biri frazeoloji vahidlərin mürəkkəb sözlərdən fərqinə aid deyil**
A) Mürəkkəb sözlərin komponentləri arasına söz artırmaq olur, frazeoloji vahidlərdə isə bu mümkün deyil
B) Mürəkkəb sözlər məfhumu müstəqil şəkildə, frazeoloji vahidlər isə dolayı yolla ifadə edir
C) Mürəkkəb sözlər bir vurğuya, frazeoloji vahidlərin komponentlərinin isə hər birinin öz vurğusu olur

D) Mürəkkəb sözlər leksik vahid olduğu halda, frazeoloji vahidlər sintaktik vahid kimi götürülür
E) Mürəkkəb sözlərin dildə variantı yoxdur, frazeoloji vahidlərin isə bir qisminin dildə variantı vardır
**252. Biri frazeoloji söz birləşmələri ilə sərbəst birləşmələrin oxşar cəhətlərinə aid deyil**
A) Hər ikisində sözlər mənaca müstəqil olur
B) Hər ikisi cümlədə müəyyən cümlə üzvü vəzifəsində işlənir
C) Hər ikisi 2 və daha artıq sözün birləşməsindən yaranır
D) Hər ikisinin tərəfləri qrammatik əlaqələr əsasında birləşir
E) Hər ikisinin modelləri eyni olur
**253. Frazeoloji qovuşma nədir?**
A) Bütün sözlərin öz müstəqil mənalarından ayrılıb ümumi bir mənası olan bölünməz söz birləşməsidir
B) Bu tip frazeoloji sabit birləşmələrdə sözlərdən birinin mənası zəif hiss olunur və komponentlərin birində həqiqi mənanın izləri müşahidə olunur
C) Bu tip sabit birləşmələrdə komponentlərdən biri öz mənasında işlənir, qalan hissəsi isə asılı vəziyyətdə olur
D) Bu birləşmələrdə II tərəf həqiqi, I tərəf isə məcazi mənada işlədilir
E) Bu birləşmələrdə məna müstəqilliyi olur, dilçilikdə buna bəzən idiom da deyilir
**254. Biri frazeoloji birliyə aiddir:**
A) Bu tip sabit birləşmələrdə sözlərdən birinin mənasının zəif hiss olunması və komponentlərin birində həqiqi mənanın olması əsasdır
B) Bu birləşmələrdə komponentlərdən biri öz mənasında işlənir, qalan hissəsi isə asılı vəziyyətdə olur
C) Bu birləşmələrdə məna müstəqilliyi olur
D) Bu birləşmələrdə ayrı-ayrı sözlər öz müstəqil mənalarından ayrılaraq ümumi bir məna əmələ gətirir
E) Bu birləşmələrdə II tərəf həqiqi, I tərəf məcazi olur
**255. Biri frazeoloji birləşməyə aiddir:**
A) Bu birləşmələrdə komponentlərdən biri öz mənasında işlənir, qalan hissəsi isə asılı vəziyyətdə olur
B) Bu tip sabit birləşmələrdə sözlərdən birinin mənasının zəif hiss olunması və komponentlərin birində həqiqi mənanın olması əsasdır
C) Bu birləşmələrdə ayrı-ayrı sözlər öz müstəqil mənalarından ayrılaraq ümumi bir məna əmələ gətirir
D) Bu birləşmələrdə II tərəf həqiqi, I tərəf məcazi olur
E) Bu birləşmələrdə məna müstəqilliyi olur, bunlara bəzən idiom da deyilir
**256. Biri frazeoloji sabit ifadə və ibarələri frazeoloji söz birləşmələrindən fərqləndirən xüsusiyyətlərə aid edilə bilməz**
A) Frazeoloji ifadə və ibarələr müstəqil söz birləşməsi şəklində də işlənə bilir
B) Frazeoloji ifadə və ibarələri təşkil edən sözlər arasında sintaktik əlaqə özünü aydın şəkildə göstərir
C) Frazeoloji ifadə və ibarələr sintaktik vəzifələrinə görə əsasən cümlə olur
D) Frazeoloji ifadə və ibarələrin bu və ya digər sözlə sinonimi, ekvivalenti ola bilmir
E) Frazeoloji ifadə və ibarələr frazeoloji vahidlərə nisbətən dildə az işlənir
**257. Atalar sözləri ilə bağlı xüsusiyyətlərə aid deyil:**
A) Atalar sözü və məsəllərdə obrazlılıq yoxdur
B) Frazeoloji vahidlər kimi dildə hazır şəkildə işlənsələr də, onlardan fərqli olaraq cümlə quruluşlu olub bitmiş fikri ifadə edirlər
C) Atalar sözlərinin bir hissəsinin atılması yolu ilə frazeoloji vahidlər formalaşmışdır
D) Atalar sözləri frazeologizmlərin zənginləşməsində mənbə rolunu oynayır.
E) Nəsihət, məsləhət məzmunlu atalar sözlərinin bir qismi dəyişikliyə uğrayaraq frazeoloji vahidə çevrilmişdir

**258. Hansı rəvayətli ifadələrə daxil deyil:**
A) Bu ifadələr frazeoloji vahidlərin yaranmasında mənbə rolunu oynaya bilmir.
B) Bu ifadələr konkret olaraq müəyyən rəvayətlər əsasında formalaşır
C) Rəvayətli ifadələri şair və yazıçılar da yaradır
D) Rəvayətli ifadələrin komponentləri arasında sintaktik əlaqə mövcuddur
E) Dildə frazeoloji vahidlərdən də çox işlənir
**259. Aşağıdakılardan biri frazeoloji vahidlərin məna növünə aid deyil:**
A) təkmənalı frazeoloji vahidlər
B) omonim frazeoloji vahidlər
C) sinonim frazeoloji vahidlər
D) antonim frazeoloji vahidlər
E) çoxmənalı frazeoloji vahidlər
**260. Omonim frazeoloji vahidlər nəyə deyilir?**
A) Eyni sabit birləşmənin (frazeoloji vahidin) fərqli mənaları bildirməsidir
B) Bir frazeoloji vahidin digərini əvəz edə bilməsidir
C) Bir-birinin əksini bildirən frazeoloji vahidlərdir
D) Eyni frazeoloji vahidin bir sıra mənaları bildirməsidir
E) Bir-birinə oxşar olan mənaları ifadə etməsidir
**261. Sinonim frazeoloji vahidlər nəyə deyilir?**
A) Bir-birini əvəz edə bilən frazeoloji vahidlərdir
B) Bir-birinin əksini bildirən frazeoloji vahidlərdir
C) Bir sıra mənaların toplanmasından yaranan frazeoloji vahidlərdir
D) Fərqli mənaları ifadə edən frazeoloji birləşmələrdir
E) Eyni frazeoloji vahidin iki və daha çox mənaları bildirməsidir
**262. Həm ümumişlək söz, həm də termin kimi işlənən sözlər hansı bənddə düzgün göstərilmişdir?**
A) xəbər, turşu, hava
B) semasiologiya, frazeologiya, leksikalogiya
C) sakit, yavaş, cəld
D) səs, boğaz, qazan
E) top, qaş, şkaf
**263. Frazeoloji vahidlərin yaranma şərtlərinə daxil deyil:**
A) Nağıllar əsasında yaranır
B) Həyat və yaşayış tərzi ilə əlaqədar yaranır
C) Sənətlə, peşəylə bağlı yaranır
D) Adət-ənənə ilə bağlı yaranır
E) Dinlə, mövhumatla bağlı yaranır
**264. Kommunikativ frazeologizmlər nədir?**
A) Məzmun və forma baxımdan cümləyə bərabər olan və bitmiş fikri bildirən frazeoloji vahiddir
B) Alınma yolla əmələ gələn frazeologizmlərdir
C) Dilin daxili imkanları hesabına yaranan frazeoloji vahidlərdir
D) Xalq ədəbiyyatı əsasında yaranan frazeoloji vahidlərdir
E) Tarixi şəxsiyyətlərin adı ilə yaranan frazeoloji vahidlərdir
**265. Frazeoloji vahidlərin dilin daxili imkanları hesabına yaranma yollarına aid deyil:**
A) Kalka yolu ilə yarananlar
B) Ayrı-ayrı sözlərin məcazi mənada işlənməsi əsasında yarananlar
C) Dildəki sərbəst birləşmələrin bir qisminin tədricən məcazlıq kəsb etməsi əsasında
D) Atalar sözü və məsəllər əsasında və onların bir qisminin ixtisarı ilə yarananlar
E) Frazeologizmlərdən bir qisminin yeni mənalar kəsb edərək ilkin mənadan uzaqlaşması əsasında
**266. Frazeoloji birləşmələr cərgəsini göstərin:**
A) qəlbi sınmaq, abrını vermək, ürəyi sıxılmaq

B) yol getmək, kitab oxumaq, çay içmək
C) oxuyan uşaq, açarı itirmək, yola düşmək
D) hirsini tökmək, başa salmaq, məktub yazmaq
E) dodağı qaçmaq, güləyən uşaq, yatmış gözəl

**267. "Əldən düşmək" frazeoloji birləşməsinin sinonimi nədir?**
A) nəfəsi kəsilmək
B) dildən-dilə düşmək
C) ayağa qalxmaq
D) ələ salmaq
E) əl vermək

**268. Alınma sözlərə aid verilən əlamətlərdən biri səhv göstərilmişdir?**
A) alınma sözlərdə vurğu, bir qayda olaraq, son hecaya düşür;
B) sonu -at2, -iyyat2 şəkilçisi ilə bitən sözlər alınmadır;
C) fleksiyaya uğrayan sözlər alınmadı;
D) tərkibində uzun sait olan sözlər alınmadır;
E) əvvəli qoşa samitlə başlayan sözlər alınmadır.

**269. Antroponimlərə daxil edilənlərdən biri səhvdir?**
A) tayfa, nəsil adları;
B) familiya
C) təxəllüs
D) ləqəblər
E) titullar və fəxri adlar.

**270. Sözlərin lüğətdə yuva üsulu ilə verilməsinin ilk təşəbbüsçüsü kim olmuşdur?**
A) V.İ.Dal
B) Z.Budaqov
C) L.M.Lazarev
D) L.Budaqov
E) V.V.Radlov

**271. Hansı fikir yanlışdır?**
A) Lüğətlərin növləri, quruluşu, tərtibi prinsipləri, nəzəri əsasları və digər xüsusiyyətləri semasiologiyada öyrənilir
B) Leksikologiya yunan mənşəli sözdür. Mənası isə "lüğət yazıram" deməkdir.
C) Müxtəlif dil vahidlərinin müəyyən qaydada düzülüşü və izahı lüğət adlanır.
D) İlk lüğət nümunəsi qədim Yunanıstanda meydana çıxmışdır.
E) XIV əsrdə, 1328-ci ildə Məhəmməd Naxçıvaninin yazdığı "Sihah əl-fars" lüğətində fars dilində az işlənən 2300 sözün izahı verilmişdir.

**272. Lüğətlərin quruluşu və tərtibi prinsipləri ilə bağlı deyilənlərdən hansı doğrudur?**
A) Yuva üsulu ilə tərtib olunmuş lüğətlərə L.Budaqovun "Türk-tatar dillərinin müqayisəli lüğəti"ni misal göstərmək olar.
B) Əlifba üsulu dedikdə eyni kökdən olan sözlərin bir baş söz ətrafında izahı başa düşülür.
C) Yuva üsulu dedikdə sözlərin əlifba sırası ilə düzülüb, izah olunması başa düşülür.
D) Lüğətlərdə aydınlaşdırılan hər bir söz lüğət məqaləsi adlanır.
E) Yuva üsulu ilə tərtib olunmuş lüğətlərdən istifadə edərkən çox azvaxt sərf olunur.

**273. Bu lüğətlərdən hansı universal milli ensiklopediyalara aiddir?**
A) Türkmən Sovet Ensiklopediyasi
B) Sibir Sovet Ensiklopediyasi
C) Böyük Sovet Ensiklopediyasi
D) Kiçik Sovet Ensiklopediyasi
E) Tarixi lüğətlər

**274. Bu lüğətlərdən hansı birdilli lüğətdir.**
A) Azərbaycan dilinin orfoqrafiya lüğəti
B) Rusca- azərbaycanca lüğət

C) İngiliscə- azərbaycanca lüğət
D) Rusca- ingiliscə lüğət
E) Azərbaycanca-rusca- ingiliscə lüğət
**275. Bu ensiklopediyalardan yalnız biri sahə ensiklopediyasidır.**
A) Tarix ensiklopediyasi
B) Böyük Sovet Ensiklopediyasi
C) Qazax Sovet Ensiklopediyasi
D) Türkmən Sovet Ensiklopediyasi
E) Özbək Sovet Ensiklopediyasi
**276. 2005-ci ildə A.Axundovun müəllifliyi ilə çapdan çıxan "Azərbaycan dilinin izahlı lüğəti"nin vəzifələri və tərtibi prinsiplərinə bu cavablardan hansı aid deyil?**
A) Lüğətdə yalnız orta məktəblərdə tədris olunan bir neçə fənlərə aid bəzi terminlərə də diqqət yetirilib.
B) Çap olunmuş dördcildlik lüğətdə olmayan 1500-ə yaxın söz lüğətə əlavə edilmişdir.
C) Lüğətdə verilmiş dialektizmlərin mənsub olduqları dialekt və şivələr göstərilmişdir.
D) Terminlərin mənsub olduğu sahələr göstərilmişdir.
E) Alınma sözlərin, terminlərin mənşəyi haqqında məlumat da öz əksini tapmışdır
**277. Bıçqı: (Biləsuvar), iş.-mişar-pila. Bu nümunə hansı lüğətə aiddir?**
A) Azərbaycan dilinin dialektoloji lüğəti.
B) Azərbaycan dilinin əcnəbi sözlər lüğəti.
C) Azərbaycan dilinin sinonimlər lüğəti.
D) Azərbaycan dilinin omonimlər lüğəti.
E) Azərbaycan dilinin antonimlər lüğəti.
**278. Al I is. (köhnə) – hiylə, məkr, yalan.**
**Al II sif. - qırmızı və s.**
**Göstərilən nümunə hansı lüğət növünə aiddir?**
A) Azərbaycan dilinin omonimlər lüğəti.
B) Azərbaycan dilinin sinonimlər lüğəti.
C) Azərbaycan dilinin antonimlər lüğəti.
D) Azərbaycan dilinə aid orfoqrafiya lüğəti.
E) Azərbaycan dilinə aid orfoepiya lüğəti.
**279. Xod prud, prudi-itinə tök, həddindən çoxdur**
**Dat slovo – söz vermək**
**Bu nümunə hansı lüğətə aiddir?**
A) Azərbaycan dilinin frazeoloji lüğəti.
B) Azərbaycan dilinin dialektoloji lüğəti.
C) Azərbaycan dilinin izahlı lüğəti.
D) Azərbaycan dilinin omonimlər lüğəti.
E) Azərbaycan dilinin sinonimlər lüğəti.
**280. Sadə söz hansıdır?**
A) Yanaq
B) Yanacaq
C) Yanıq
D) Yataq
E) Daraq
**281. Saf və şirin sözləri hansı sırada həqiqi mənada işlənmişdir?**
A) Saf qızıl, şirin süd
B) Saf ürək, şirin dil
C) Saf niyyət, şirin yuxu
D) Saf adam, şirin uşaq
E) Saf məhəbbət, şirin söhbət
**282. Eyniköklü sözlər sırasında verilən bəndlərdən biri səhvdir.**

A) Enli, eniş, ensiz
B) Suçu, sulu, sulamaq
C) İşçi, işcil, işlək
D) Güldan, gülüstan, gülçülük
E) Bağça, bağban, bağçılıq
**283. Verilən sözlərdən biri morfoloji yolla yaranmamışdır:**
A) Təbii
B) Tibbi
C) Elmi
D) Sancı
E) Ailəvi
**284. Hansı sözdə leksik şəkilçilərin sayı çoxdur?**
A) Yığışdırıldı
B) Bacarıqlıdır
C) Bəzəklidir
D) Baramaçılıqda
E) Yarışdakılardır
**285. Sözlərdən neçəsi düzəltmədir?**
**Balaq, boyaq, bulaq, qabaq, qalaq, qıraq, qoçaq, qonaq, dayaq, dolaq, yanaq, otaq, oturaq**
A) 5
B) 7
C) 6
D) 4
E) 3
**286. Sözlərdən biri quruluşca sadədir**
A) Aşkar
B) İnadkar
C) Sehrkar
D) Tələbkar
E) Zülmkar
**287. Sözlərdən biri quruluşca düzəltmədir**
A) Qırxım
B) Narın
C) Bildirçin
D) Qırçın
E) Darçın
**288. Hansı cümlələrdə məcazi mənalı sözlər işlənmişdir?**
1-Anam deyərdi ki, biz ancaq dağ döşündə bitərik (N.Süleymanov).
2- Bükür qanadını elə ki külək,
Meşə insan kimi sükuta dalır (M.Dilbazi).
3-Cahandar gedəndən sonra bir gecə dəhşətli bir gurultu Qumrunu yuxudan ayıltdı (Ə.Məmmədxanlı).
4-Gecədən xeyli keçənə qədər Ceyran xalanın balkonunda oturub söhbət elədik (İ.Əfəndiyev)
5-Açdı qanadını sabah yelləri,
Meşənin səsinə günəş oyandı (M.Dilbazi).
A) 1, 2, 5
B) 3, 4, 5
C) 2, 3, 4
D) 3, 4
E) 1, 4, 5
**289. Hansı söz başqaları ilə eyniköklü deyil?**
A) Yanakı

B) Yanğı
C) Yanıq
D) Yanacaq
E) Yanğın
**290. Hansı sıradakı sözlərin üçü də eyniköklüdür?**
A) Yenicə-yenidən-yenilikçi
B) Yorğun-yorucu-yorğan
C) Yaşlı-yaşıl-yaşıllıq
D) Yağlı-yağıntı-yağış
E) Bildir-bildirki-bildirçin
**291. Tərkibində iki leksik şəkilçi olan mürəkkəb sözləri göstərin**
A) Gözüaçıqlıq, üzüdönüklük
B) Qanunauyğunluq, özbaşınalıq
C) Ağzıbütövlük, üzüyumşaqlıq
D) Əliəyrilik, üzüyolalıq
E) Gözüəyri, gözükölgəli
**292. Yaxın mənalı sözlərdən əmələ gəlmiş mürəkkəb söz hansıdır?**
A) Yurd-yuva
B) Dərə-təpə
C) Yoxuş-eniş
D) Gediş-gəliş
E) Yer-göy
**293. Hansı mürəkkəb söz antonim sözlərdən təşkil olunmuşdur?**
A) Var-yox
B) Səliqə-səhman
C) Taxta-şalban
D) Dil-ağız
E) Qoyun-quzu
**294. Sözlərdən birinin tərkibində bir leksik şəkilçi vardır**
A) Qızartı
B) Ağartı
C) Qaraltı
D) Soyuqqanlı
E) Açıq-şabalıdı
**295. Hansı sıradakı sözlərin hamısı düzəltmədir?**
A) Silgi, sevgi, hörgü
B) Yarış, yağış, alqış
C) Barış, tanış, qaçış
D) Güzgü, bölgü, vergi
E) Mürgü, itgi, sərgi
**296. Hansı sıradakı sözlərin tərkibindəki şəkilçilərin hamısı leksik şəkilçilərdir?**
A) Üzgüçülük, döyüşkənlik, yerliçilik
B) Üzümçülükdə, ipəkçilikdə, sürücümüz
C) Yaxınlıqda, çaşqınlıqdan, çalışqanlıqda
D) Qətiyyətsizliyimiz, üzügülər, ağlasığmaz
E) Ürəyiaçıq, iradəsizlikdən, ağılsızlıqdan
**297. Yalnız qrammatik şəkilçilər artırılmış sözlərin cərgəsini göstərin**
A) İşdəyəm, işdən, işimiz
B) İşçi, işlək, işçinin
C) İşçimiz, işcil, işsizlik
D) İşbaz, işləyən, işsizlik
E) İşçiyik, işsizdir, işləkdir

**298. Tərkibində həm leksik, həm də qrammatik şəkilçilər olan sözlər hansı sıradadır?**
A) Evliyik, evdardır, evsizə
B) Evdir, evdədir, evdəyik
C) Evcik, evli, evlilik
D) Bağça, bağlıq, bağban
E) Evdarlıq, bağçalıq, evsizlik
**299. İki sadə sözdən ibarət olan mürəkkəb sözlər hansı sıradadır?**
A) Yarımada, bəstəboy, qaragilə
B) Beşillik, yarıyuxulu, başıaçıq
C) Üzüsulu, boynubükük, itibaxışlı
D) Birtərəfli, ucaboylu, itibaxışlı
E) Enlikürək, üçtelli, qəlbisınıq
**300. Hansı sıradakı mürəkkəb sözlər iki düzəltmə sözdən ibarətdir?**
A) Enlikürəkli, açıqfikirli, dolğunbədənli
B) Sözübütöv, dilişirin, başısoyuq
C) Qəlbisınıq, gözüaçıq, üzügülər
D) Üzüyumuşaqlıq, toxumsəpən, başıbəlalı
E) Göydəndüşmə, başdansovdu, dəymədüşər
NOYABR
**301. Hansı sıradakı sözlər eyniköklü deyil?**
A) Üzgü, üzgüçü, üzgün
B) Dilçi, dilli, dilləşmək
C) Güllü, güldan, güllük
D) Kəskin, kəsici, kəsik
E) Öncə, önlük,öncül
**302. Hansı sıradakı mürəkkəb sözlərin yazılışı səhvdir?**
A) Törtöküntü, yıryığış, sirsifət
B) Söz-söhbət, oğul-uşaq, az-çox
C) Üzbəz, başabəla, ucdantutma
D) Üzüyola, gözucu, suyuşirin
E) Gec-tez, toyuq-cücə, toy-bayram
**303. Aşağıdakı sözlər sözyaratmanın hansı üsuluna aiddir?**
**Zarabotka-əməkhaqqı, mirovozrenie-dünyagörüşü**
A) Kalka üsulu
B) Yeni məna kəsbetmə hesabına sözyaratma
C) Başqa dildən sozalma hesabına sözyaratma
D) Düzəltmə sözlərin sadələşməsi hesabına sözyaratma
E) Frazeoloji vahidlər hesabına sözyaratma
**304. Aşağıdakılardan hansı yeni məna kəsbetmə hesabına sözyaratmaya aid ola bilər?**
A) Badamlı(yer adı)-Badamlı(mineral su)
B) Fabrik-fabrika
C) Sapojnik-ayaqqabı
D) Xaral-pambıq yığmaq üçün qab
E)Ları-döyüşkən xoruz
**305. Aşağıdakı sözlər hansı yolla sözyaratmanın nümunəsidir?**
**Tamarzı, sayrışan, hayqırmaq və s.**
A) Dialekt və şivələr hesabına sözyaratma
B) Kalka üsulu
C) Yeni məna kəsb etmə hesabına sözyaratma
D) Fonetik dəyişmə hesabına sözyaratma
E) Omonimləşmə hesabına sözyaratma
**306. Aşağıdakı nümunələrdən hansı yeni məna kəsb etmə hesabına sözyaratmaya misaldır?**

A) İti alət-iti yerimək
B) Tək-lək
C) Poçta-poçt
D) Faidə-fayda
E) adəm-adam
**307. Morfoloji yolla sözyaratmanın əsas göstəricisi nədir?**
A) Şəkilçi
B) Söz
C) Dialekt
D) Alınma sözlər
E) Omonimlər
**308. <u>Sevgi</u> hələ ömür deyil, əzizim,**
**Qarşıda illərin <u>sınağı</u> durur.**
**Nümunədə altından xətt çəkilmiş sözlər hansı yolla sözyaratma nümunəsidir?**
A) Morfoloji üsul
B) Leksik üsul
C) Semantik üsul
D) Sintaktik üsul
E) Leksik-semantik üsul
**309. Aşağıdakı şəkilçilərdən hansılar adlardan ad düzəldir?**
A) –lıq
B) –aq, -əq, -q, -k
C) –caq, - cək
D) –malı, -məli
E) –ülü
**310. Yağmur və fəndgir sözləri hansı yolla yaranmışdır?**
A) Morfoloji yolla
B) Dialekt və şivələr hesabına sözyaratma
C) Leksik üsul
D) Semantik üsul
E) Sintaktik üsul
**311. Hansı bənddə loru sözlər verilmişdir?**
A) sürüşmək, əkilmək
B) getmək, dayanmaq
C) danışmaq, soruşmaq
D) yazmaq, oxumaq
E) demək, söyləmək
**312. Aşağıdakı nümunələr hansı yolla sözyaratmaya misaldır?**
Sarı(sifət) Sarı(isim), qara(sifət) Qara(isim)
A) Yeni məna kəsb etmə hesabına sözyaratma
B) Dialekt və şivələr hesabına sözyaratma
C) Sintaktik üsulla sözyaratma
D) Fonetik dəyişmə hesabına sözyaratma
E) Morfoloji üsul
**313. Aşağıdakı sözlər hansı yolla yaranmış sözlərdir?**
Açıq söhbət, gizli söhbət, elmi söhbət
A) Mənanın genişlənməsi hesabına semantik yolla sözyaratma
B) Çoxmənalı sözlər hesabına semantik yolla sözyaratma
C) Omonimləşmə hesabına semantik yolla sözyaratma
D) Kalka üsulu
E) Dialekt və şivələr hesabına söz yaratma
**314. Aşağıdakı şəkilçilərdən hansılar adlardan ad düzəldir?**

A) –lıq(4),  -laq, -ça, -çə
B) –lan, -cığaz, -malı
C) –xa, -xala, -qan, -qun
D) –ağan, -əyən, -maz
E) –ar, -ər, -r, -gən
**315. Sintantik yolla sözyaratmanın göstəricisi nədir?**
A) Sözlər
B) Şəkilçilər
C) Dialektlər
D) Omonimlər
E) Sinonimlər
**316. Aşağıdakı sözlərdən hansı funksiyaya görə sözyaratma nümunəsidir?**
A) Əlüzyuyan
B) Əmidostu
C) Quzuqulağı
D) Əliqulu
E) Yer kökü
**317. Aşağıdakı sözlərdən hansı əlamətə görə yaranan mürəkkəb sözlərdir?**
A) Şəkərçörək
B) Samokritika-özünütənqid
C) Əliqulu
D) Quzuqulağı
E) Meşəbəyi
**318. Funksiyaya görə sözyaratmaya aşağıdakı sözlərdən hansı aiddir?**
A) Tozsoran
B) Çobanyastığı
C) Ördəkburun
D) Quzuqulağı
E) İstiot
**319. Fellərdən ad düzəldən şəkilçilər hansı bənddə verilmişdir?**
A) –ıq, -ış, -aq
B) –lıq, -laq, -ça
C) –çı, -cıq, -cığaz
D) –lı, -daş, -keş
E) –dar, -i, (-vi), -saz
**320. Bu nümunələrdən hansı bənzətməyə görə yaranan mürəkkəb sözlərdir?**
A) İtburnu
B) Yerqazan
C) Uzaqgörən
D) Məmmədkərim
E) Əmək haqqı
**321. Leksikalogiyada təhlilin hansı növündən istifadə edilir?**
A) leksik təhlil
B) morfoloji təhlil
C) sintaktik təhlil
D) fonetik təhlil
E) söz tərkibinə görə təhlil
**322. Bunlardan hansı ənənəyə görə sözyaratma nümunəsidir?**
A) Əliqulu
B) Taxılbiçən
C) Əmək haqqı
D) Uzunsaçlı

E) Qolbağı
**323. Adlardan fel düzəldən şəkilçini seçin.**
A) –la, -lə
B) –maz, -məz
C) –ağan, -əyən
D) –ar, -ər, -r
E) –gən
**324. Perikmək, şaxımaq, təfərinclə sözləri hansı yolla sözyaratmaya misaldır?**
A) Dialekt və şivələr hesabına sözyaratma
B) Kalka üsulu
C) Fonetik dəyişmə hesabına sözyaratma
D) Yeni məna kəsb etmə hesabına sözyaratma
E) Mənanın genişlənməsi yolu ilə semantik yolla sözyaratma
**325. –Lıq şəkilçisi hansı variantda məkan mənalı isim yaratmışdır?**
A) Üzümlük
B) Uşaqlıq
C) Onluq
D) Donluq
E) Dülgərlik
**326. Feldən sifət düzəldən şəkilçiləri seçin.**
A) –caq, -cək, -c, -ülü
B) –c, -cu, -ülü
C) –maq, -mək, -maca, -məcə, -cə
D) –ma, -mə, -gə, -c
E) –ülü, -c, -ma, -mə
**327. Adlardan ad düzəldən şəkilçiləri seçin.**
A) –lıq, -çı, -daş
B) –caq, -cək, -c, -ülü
C) –malı, -məli, -cu, -da, -də
D) –la, -lə, -laş, -ləş, -cu
E)  -cıq,-çı, --la, -lə
**328. –Lıq şəkilçisi hansı variantda məkan mənalı isim yaratmışdır?**
A) Kölgəlik
B) Donluq
C) Onluq
D) Müəllimlik
E) Dostluq
**329. Mənsubiyyətə görə yaranmış mürəkkəb sözü seçin.**
A) Yerkökü
B) Qaraqaş
C) Taxılbiçən
D) Uzunsaç
E) Şəkərçörək
**330. Əlamətə görə yaranmış mürəkkəb sözü seçin.**
A) Qaragöz
B) Taxılbiçən
C) Gecə quşu
D) Əmək haqqı
E) Dayı dostu
**331. Aşağıdakılardan hansı kalka üsulu ilə yaranmış sözdür?**
A) Dünyagörüşü
B) İlğım

C) Sayrışan
D) Nisgil
E) Sambal
**332. Bu sıralardan hansı yeni məna kəsb etmə hesabına yaranmış sözdür?**
A) Biz, kök, pul
B) Valyuta, tağ, isim
C) Ları, iti, baş
D) Sayrışan, aptek, tək
E) Top, bel, fonetika
**333. Tanış-biliş, bəzək-düzək, yan-yörə tipli mürəkkəb sözlər hansı yolla əmələ gəlmişdir?**
A) Sinonim sözlərdən birinin mənasının köhnəlməsi ilə yarananlar
B) Azərbaycan sözləri ilə alınma sözlərin birləşməsi ilə yarananlar
C) Ədəbi dildəki sözlə dialektin birləşməsindən
D) Kalka üsulu ilə
E) Məna dəyişməsi yolu ilə
**334. –lıq şəkilçisi hansı variantda mücərrəd anlayış yaradır?**
A) Dostluq
B) Müəllimlik
C) Kolluq
D) Üzümlük
E) Dülgərlik
**335. Bu nümunələrdən hansı bənzətməyə görə yaranan mürəkkəb sözlərdir?**
A) Daşarmud
B) Uzaqgörən
C) Meşəbəyi
D) Əmioğlu
E) Taxılbiçən
**336. Tabelilik əlaqəsi əsasında yaranan mürəkkəb sözü seçin.**
A) Quzuqulağı
B) Dost-aşna
C) Qol-qola
D) Dil-dilə
E) Qohum-qardaş
**337. Yanaşma əlaqəsi əsasında yaranan mürəkkəb sözü seçin.**
A) Onillik
B) Həftəarası
C) Ucdantutma
D) Dildən-dilə
E) Tez-gec
**338. İdarə əlaqəsi əsasında yaranan mürəkkəb sözü seçin.**
A) Birdən-birə
B) Şirindil
C) Ağızdan-ağıza
D) Tez-gec
E) Qol-budaq
**339. Feldən zərf düzəldən şəkilçini seçin.**
A) –caq, -cək
B) –ca, -cə
C) -ən
D) –lat, -lət
E) –ılda
**340. Əlamətə görə yaranmış mürəkkəb sözü seçin.**

A) Qaragöz
B) Daşarmud
C) Vintburan
D) Əlüzyuyan
E) Otbiçən
**341. Adlardan zərf düzəldən şəkilçiləri seçin.**
A) –an, -ən, -a, -ə, -la, -lə
B) –sa, -na, -nə, -ümsə
C) -əclə, -na, -nə, -irgə
D) –xa, -xala, -qan, -qun, -rə, -ri, -rən
E) –ğa, -ğala, -ırğa
**342. Mənsubiyyətə görə yaranan mürəkkəb sözü seçin.**
A) Meşəbəyi
B) Şirindil
C) Beşmərtəbə
D) Şüşəbənd
E) Quşəppəyi
**343. Qrammatik şəkilçiləri göstərin**
A) –lar2, -ınız4
B) –daş, -ça2
C) –laq2, -sız4
D) –çı4, -ış4
E) –lı4, -tı4
**344. "Gül" sözünə qoşulan şəkilçilərdən hansılar leksik şəkilçilərdir?**
I –dan, -çü
II –lər, -dən
III –lük, -lü
IV –üm, -də
A) I, III
B) I, IV
C) I, III, IV
D) II, III
E) I, II, IV
**345. Oykonimlər nə bildirir?**
A) yaşayış məntəqəsinin adını
B) coğrafi adları
C) toponimləri
D) hidronimləri, oronimləri
E) fitonimləri, zoonimləri
**346. Aşağıda verilmiş xüsusiyyətlərdən hansı Azərbaycan sözlərinə xas deyil?**
A) Sözün əvvəlində, ortasında və axırında iki müxtəlif və iki eyni saitin qoşa işlənilməsi
B) Azərbaycan sözlərində vurğu sözün son hecası üzərinə düşür
C) Azərbaycan sözləri, əsasən, bir, iki və üçhecalı olur
D) Azərbaycan sözləri müəyyən ahəngə tabe olur
E) Söz kökünün ilk səsi samitlə başlananda onun arxasınca əsasən, sait səs gəlir
**347. Leksika nəyə deyilir ?**
A) Dildəki sözlərin cəminə
B) Dildəki sabit sözlərin cəminə
C) Başqa dillərdən keçən sözlərə
D) Sadə sözlərin cəminə
E) Dialekt , termini, peşə sənət sözlərinin cəminə

**348. Müəyyən sahə ilə əlaqədar olan və o sahədə işlənən sözlər və sabit birləşmələr dedikdə nə başa düşülür.**
A) Danışıq dili leksikası, dialekt leksikası, terminoloji leksika, frazeoloji leksika
B) Dildə işlənən ümumiişlək sözlər.
C) Danışıq dili leksikası, dialekt leksikası
D) Alınma və beynəlmiləl leksikası
E) Dildə işlənən terminlər
**349. Leksika bir termin kimi hansı mənalarda işlənir ?**
A) müəyyən dilə məxsus bütün sözlər və sabit söz birləşmələrin cəmi; hər hansı bir sahədə işlənən söz birləşmələrin cəmi; sözlərin öz mənşəyi əsasında qruplaşması; dilin lüğət tərkibində işlənən leksik və frazeoloji vahidlər.
B) Dilin lüğət tərkibinin üslubi laylarından biri ;
C) Dilin lüğət tərkibinin üslubi laylarından biri, hər hansı bir ədibin əsərlərinin və ya konkret bir əsərini dilində işlənən sözlər və sabit birləşmələr :
D) Müəyyən sahə ilə bağlı olub, o sahədə işlənən sözlər və sabit birləşmələr
E) Müəyyən bir ərazidə işlənən sözlərin cəmi.
**350. Leksikologiya nəyi öyrənir ?**
A) dilin lüğət tərkibini
B) sözlərin mənşəyini
C) Sözlərin mənasını
D) Dilin frazeologiyasını
E) Ümumiişlək sözləri
**351. Leksikologiyanın əsas məqsədi nədir ?**
A) dilin lüğət tərkibini bir sistem kimi öyrənmək
B) sözün məna növlərini öyrənmək
C) sözlərin inkişaf tarixini öyrənmək
D) dilin frazeoloji vahidlərini öyrənmək
E) dilin lüğət tərkibində işlənən alınma sözlərini öyrənmək .
**352. Leksikologiya mənşəcə hansı dilə məxsusdur.**
A) yunan
B) latın
C) ərəb
D) fars
E) rus
**353. Dialektoloji lüğətlərdə hansı sözlər əksini tapır?**
A) dialekt sözlər
B) ümumişlək sözlər
C) terminlər və peşə-sənət sözləri
D) loru və poetik sözlər
E) varvarizmlər və ekzotik sözlər
**354. Leksikologiya nəyə deyilir ?**
A) Dilin lüğət tərkibini öyrənməklə məşğul olan dilçilik şöbəsinə
B) sözlərin inkişaf tarixini öyrənən dilçilik şöbəsinə
C) Dildəki sözlərin mənşə cəhətdən öyrənən dilçilik şöbəsinə
D) Dildə işlənən sözlərin mənasını öyrənən dilçilik şöbəsinə
E) İşlənmə dairəsinə görə olan söz qruplarını öyrənən dilçilik şöbəsinə
**355. Dilin leksik sistemində sözün mövqeyini, mahiyyətini aydınlaşdıran,sözləri mənşəyinə görə öyrənən, söz qrupları, sözün istifadə edilmə dairəsi və üslubi xüsusiyyətlərini aydınlaşdıran dilçilik şöbəsi nə adlanır**
A) Leksikologiya
B) Lekstkologiya və semosiologiya
C) Semosiologiya

D) Frazeologiya
E) Semosiologiya və frazeologiya.
**356. Hansı cərgədə leksikologiyanın növü tam və düzgün göstərilib ;**
A) tarixi leksikologiya, təsviri leksikologiya, müqayisəli leksikologiya
B) tarixi leksikologiya, müasir leksikologiya, etimoloji leksikologiya
C) tarixi leksikologiya , müqayisəli leksikologiya
D) müqayisəli leksikologiya, təsviri leksikologiya
E) tarixi leksikologiya , müqayisəli leksikologiya
**357. Tarixi leksikologiya nəyə deyilir ?**
A) Dilin leksik tərkibinin təşəkkülü, formalaşması, onun dəyişməsi və inkişafını tarixi baxımından öyrənən leksikologiyaya
B) Dilin leksik sistemini müasir inkişaf səviyyəsini öyrənən leksikologiyaya
C) Leksik və frazeoloji vahidləri müqayisəli şəkildə öyrənən leksikologiyaya
D) Dildə işlənən sözləri müqayisəli və müasir inkişaf səviyyəsində öyrənən leksikologiyaya
E) Dildə işlənən sözlərin mənasını öyrənən leksikologiya.
**358. Tarixi leksikologiyanın əsas xüsusiyyətləri nədir :**
A) dilin inkişaf mərhələləri, dövrləri nəzər alınır, dillə bu və ya digər sözün yaranması və onun taleyi , istifadədən qalması səbəbləri izah olur.
B) dilin inkişafı tarixi- müqayisəli aspektdə izah olunur.
C) dildə işlənən sözlərin mənasını işlənmə dairəsi, mənada baş verən dəyişiklikləri izah olunur.
D) dilin lüğət tərkibində işlənən sözlərin müəyyən sahələr üzrə işlənmə xüsusiyyətləri izah olunur.
E) dildə işlənən sözlərin mənşə baxımdan işlənmə xüsusiyyətləri üslubi cəhətdən izah olunur.
**359. Leksikanın əsas vahidi nədir ?**
A) Söz
B) Söz, frazeologizmlər,
C) Frazeoloji vahidlər
D) terminlər
E) Terminlər, dialekt sözlər.
**360. Söz nəyə deyilir?**
A) Dilin daxili qayda qanunlarına tabe olub leksik-qrammatik məna bildirən səslərin birləşməsinə
B) Səslər toplusuna
C) hərflərin vahid şəkildə birləşməsinə
D) Məna bildirən sözlərin toplusuna
E) Məna bildirən leksik vahidlərə
**361. Müqayisəli leksikologiya nəyi öyrənir ?**
A) dildəki ayrı-ayrı sözləri qohum dillərin leksikası ilə müqayisəli şəkildə öyrənir
B) sözlərin inkişaf tarixini dillərin lüğət tərkibini araşdırmaqla öyrənir
C) dilin inkişaf mərhələlərini dövrlərini öyrənir
D) dildəki sözlərin inkişaf tarixini dillərin lüğət tərkibini araşdırmaqla öyrənir
E) dildə bu və ya digər sözün yaranmasını, mənşəyini öyrənir
**362. Təsviri leksikologiya nəyə deyilir ?**
A) Dilin leksik sisteminin müasir inkişaf səviyyəsini öyrənən leksikologiyaya
B) Dildə işlənən sözlərin etimologiyasını öyrənən leksikologiyiaya
C) lüğət tərkibini inkişaf prosesində tədqiq edən leksikologiyaya
D) Dilin lüğət tərkibini işlənmə dairəsinə görə öyrənən leksikologiyaya
E) dildə müəyyən bir sözün yaranmasını öyrənən leksikologiyaya
**363. Müasir Azərbaycan ədəbi dilinin lüğət tərkibi mənşəcə hansı növlərdən ibarətdir.**
A) Əsl Azərbaycan sözləri, alınma sözlər
B) Xalis Azərbaycan sözləri, alınma sözlər, türk dillər ilə ortaqlı olan sözlər

C) Türk dilləri lə ortaqlı sözlər, xüsusi Azərbaycan sözləri, türk və monqol dilləri ilə ortaqlı sözlər
D) Türk və monqol dilləri ilə ortaqlı olan sözlər, alınma sözlər
E) xalis Azərbaycan sözləri, əsl Azərbaycan sözləri, alınma sözlər, türk dilləri ilə ortaqlı olan sözlər.

**364. Azərbaycan dilində türk dilləri ilə ortaqlı sözləri, hansıdır..**
A) diş, yun, gülmək, bel
B) diş, yun, gülmək, səadət, zəfər
C) yarpız, diş , imkan , katib
D) adət, ağıl, əbədi, adi
E) su, daş, kitab, adil, məlum

**365. Azərbaycan dilində türk və monqol dilləri ilə ortaqlı sözlər hansılardır ?**
A) nökər, ayran, balta, bulaq, yara
B) diş, yun, gülmək
C) agah, azad, ustad, xəstə
D) nökər, qabırğa, ustad, agah
E) daylaq, üç, dörd, mələk, ailə

**366. Türk dilləri ilə ortaqlı sözlər cərgəsini göstərin.**
A) Alov, dəniz, dış, daş, dəniz
B) nəfər, enli, cəvrən, ahıl
C) ədəbiyyat, dörd, üç, dəniz, qız
D) diş, su, bahar, fəsil
E) məyus, küz, məhrəba, malik, mülk

**367. Əsl Azərbaycan sözlərinin xüsusiyyətləri verilən cərgəni göstərin.**
A) bir, iki və üç hecalı olur, ahəng qanunu gözlənilir, vurğu əsasən son hecanın üzərinə düşür
B) çoxhecalı olur
C) sözün əvvəlindəki iki samit yanaşı gələ bilər
D) sözün əvvəlində, ortasında və axırında iki müxtəlif sait qısa işlənə bilər
E) sözlərdə qoşa saitlər, qoşa samitlər yanaşı işlənə bilər

**368. Alınma sözlər cərgəsini göstərin.**
A) qalib, qələm, əsas, agah, taqət
B) diş, yun, gülmək, mən,bir
C) dəniz, qız, getmək, üç, dörd
D) dəniz, su, əl, ata, diş
E) beş, on, oğlan, gəlin, uzun

**369. Avropa dlillərindən Azərbaycan dilinə keçən sözləri göstərin.**
A) aspirant, direktor, institut, pedaqoq, demokratiya, hektar, abzas
B) adyal, vokal, sovet, bloknot, pasport, novella, konsert, məktəb
C) artel, stol, kompas, ariya, dialoq, kafedra, poema, elm
D) poeziya, drama, kostyum, stadion, vokal, stul
E) stəkan, stol, adyal, vokal, kurort, şlyapa

**370. Hansı cərgədə dialekt sözləri verilmişdir ?**
A) əlardan, hancari, yerpənək
B) maşın, termin, texnika
C) xanım, kəndxuda, yasavul
D) fonetika, janr, təsbeh
E) yelpik, alov, saxta

**371. Hansı cümlədə dialekt sözü işlənmişdir?**
A) Onunla üzbəüz əyləşən ucaboylu, arğaz vücudlu, sarı bığlı Sərməst bəy dillənirdi.
B) Buralar yoxsulların yaşadığı məhəllə idi.
C) Bakının yaxınlığında olan Biləcəri qaynar qazan kimi qaynayırdı.
D) Axşama yaxın bizə yük vaqonları verdilər.

E) Hərbi qatarlar tez-tez Tiflisə doğru ötürdü.
**372. Hansı bənddə yalnız ümumiişlək sözlər işlənmişdir.**
A) Yenə də yamyaşıl geyinir dağlar,
Göy kimi durulur qaynar bulaqlar (S.V)
B) Hə balam, doğrusu, ay dadaş,məndəxi
Məsləhət ondan oyana bilmərəm (M.Ə.S)
C) Səndən necə min can ayrı düşdü,
Təm ya çürürdü, ya sayrı düşdü (Nəsimi)
D) İndi, ey heyvərə varmısa hünər,
Söylə, təbirini bilirsən əgər ? (S.V.)
E) Ümumdən titrədi tamam vilayət,
Elə sandılar ki, qopdu qiyaməti (M.P.V.)
**373. Azərbaycan dilinə məxsus qədim sözlər cərgəsini göstərin.**
A) toxumaq, qaçmaq, vurmaq, aparmaq.
B) kişi, ər, möhkəm, iqlim, durna.
C) dirrik, dörd, məsləhət, qiraət, səndəl, miz.
D) qəm, yataq, qoruq, icazə, qiraət.
E) hədis, xaliq, qatil, iqbal, idxal, ixrac, mələk.
**374. Yalnız milli sözlər işlənən cümlələri göstərin.**
A) Yaşamaq yanmaqdır, yanasan gərək
B) Ey könül, fürsəti bada vermə gəl
C) Bu dünya bir qızıl küzəyə bənzər
D) Səadət hər kəsin öz əlindədir
E) Səadət kamalla yetişir başa
**375. Alınma sözlər cərgəsini göstərin.**
A) məktub, şəfəq, təbii
B) vətən, ana, sait
C) səkkiz, uşaq, yurd
D) motor, torpaq, yeddi
E) bacı, su, oxumaq.
**376. Hansı lüğətdə sözlərin izahı verilir?**
A) izahlı lüğətdə
B) orfoqrafiya lüğətində
C) terminoloji lüğətdə
D) tərcümə lüğətində
E) ensiklopedik lüğətdə
**377. Semasiologiya nədən bəhs edir ?**
A) dilin semantik sistemindən
B) sözlərin işlənmə dairəsindən
C) sözlərin mənşəyindən
D) dilin lüğət tərkibindən
E) dilin lüğət tərkibindən və lüğət fondundan
**378. Hansı cərgədə verilən fikir semasiologiyaya aiddir ?**
A) Dil vahidlərinin mənasını, sözlərin və ifadələrin leksik mənalarını və bu mənaların dəyişmə üsullarını tədqiq edən dilçilik şöbəsi
B) sözün və ifadənin mənşəyini və işlənmə dairəsini öyrənən dilçilik şöbəsi
C) dil vahidlərinin mənasını və işlənmə dairəsini öyrənən dilçilik şöbəsi
D) sözlərin mənasını, mənşəyini, işlənmə dairəsini öyrənən dilçilik şöbəsi
E) sözün mənasını, onun əşyavi mənasını öyrənən dilçilik şöbəsi
**379. Tam mənalı sözlər hansı cərgədə verilib ?**
A) dağ, daş, torpaq, vergi
B) su, dağ, və, lakin, həmçinin

C) nə, da, də, lakin, habelə
D) vergi, vergül, lakin, həm də
E) daş, ağac, həmçinin, ancaq
**380. Natamam mənalı sözlər cərgəsini göstərin .**
A) və, həmçinin, ki, lakin, və ya da
B) aydın, sulu, gözləmək
C) açıq, gözlük, yaxşı, qorxu
D) həmçinin, lakin, ancaq, gözləmək
E) ordu, hakim, və, ya, rahat
**381. Alınma sözlər cərgəsini göstərin:**
A) zalım, hakim, hökm
B) diqqət, azad, lehinə
C) de, danış, söylə
D) istək, məktəb, alim
E) kitab, ov, sevgi
**382. Əsl Azərbaycan sözlərinin cərgəsini göstərin:**
A) yaz, dayı
B) elm, əla
C) kitab, xörək
D) pəncərə, çarpayı
E) hakim, janr
**383. Sözlərdən hansı çoxmənalıdır?**
A) ağız
B) divan
C) neft
D) dəniz
E) varis
**384. Bunlardan biri "günahsız" sözünün sinonimidir:**
A) məsum
B) məyus
C) pərişan
D) məhzun
E) pəjmürdə
**385. Hansı omonimlər müxtəlif nitq hissələrinə aiddir?**
1 – bal
2 – tut
3 – çən
4 – gül
5 – əqrəb
6 – yol
A) 2, 4, 6
B) 1, 3, 5
C) 4, 5
D) 2, 3, 4
E) 1, 4
**386. Hansı omonimlər müxtəlif nitq hissələrinə aiddir?**
1 – mürəkkəb
2 – nəticə
3 – qurd
4 – yaş
5 – çay
6 – şam

A) 1, 4
B) 2, 4
C) 4, 5
D) 2, 3
E) 1, 6
**387. Omonim sözlər cərgəsini göstərin:**
A) qurd, yaş, tut
B) mürəkkəb, nüfuz, daş
C) oyun, gəlin, ip
D) şam, xəbər, qulaq
E) uşaq, çətir, qonaq
**388. Sözlərdən ikisinin də omonim olduğu cərgəni göstərin:**
A) ud, yad
B) az, ban
C) yol, bol
D) dolu, boş
E) ad, yay
**389. Sözlərdən biri omonimlik xüsusiyyəti daşıyaraq, isim və feil kimi işlənə bilir:**
A) ov
B) ax
C) yox
D) yaş
E) şam
**390. Biri həm omonim, həm də çoxmənalı söz kimi işlənə bilər:**
A) kök
B) zindan
C) nəbz
D) durna
E) baş
**391. Sözlərdən yalnız biri omonim kimi işlənə bilər:**
A) bənd
B) arx
C) misra
D) sətir
E) nəzm
**392. Sözlərdən neçəsi yalnız termin kimi işlənə bilər: epitet, surət, fonetika, kərpic, orfoepiya, vurma, ahəng?**
A) 3
B) 4
C) 2
D) 5
E) 1
**393. Sözlərdən neçəsi omonimdir: aşıq, köz, qırx, düz, qəlb?**
A) 3
B) 1
C) 4
D) 5
E) 2
**394. Nümunələrdən yalnız biri əsl Azərbaycan sözüdür:**
A) qoruq
B) məqbərə
C) türbə

D) məktəb
E) karvan
**395. Hansı söz omonim kimi işlənə bilər?**
A) mürəkkəb
B) kömür
C) göz
D) ürək
E) ayaq
**396. Frazeoloji birləşmələrdən biri omonim kimi işlənə bilər:**
A) üz vermək
B) ağzına su almaq
C) acığı gəlmək
D) iştahası kəsilmək
E) xoşu gəlmək
**397. "Qara" sözü hansı cərgədə məcazi mənadadır?**
A) qara xəbər
B) qara bulud
C) qara çörək
D) qara karandaş
E) qara saç
**398. "Qara" sözü hansı cərgədə həqiqi mənadadır?**
A) qara qələm
B) qara xəbər
C) qara gün
D) qara camaat
E) qara fəhlə
**399. Çoxmənalı sözlər cərgəsini göstərin:**
A) baş, diş, burun
B) qapı, gəmi, bel
C) daraq, çay, top
D) qaz, gül, qurd
E) göz, dolu, tar
DEKABR
**400. Omonimlərdən ibarət cərgəni göstərin:**
A) yaş, biz, kök
B) yaş, əl, köç
C) qalın, doqquz, həyat
D) gün, qış, əl
E) qanad, gün, kök
**401. Leksik yolla söz artımı hansı cərgədədir?**
A) güzgü
B) hörgü
C) bölgü
D) sərgi
E) vergi
**402. Sadə söz hansıdır?**
A) qoçaq
B) sancaq
C) daraq
D) yataq
E) sınaq
**403. "Düzgünlük" sözü hansı yolla düzəlmişdir?**

A) morfoloji
B) sintaktik
C) leksik
D) semantik
E) kalka
**404. Morfoloji yolla düzələnlərdən neçəsində 2 leksik şəkilçi işlənmişdir?**
A) çalışma, canlanma, çəkiliş
B) çalışma, qurulandı, sancaq
C) göndəriş, canlanma
D) qurulandı, sancaq
E) çəkiliş, göndəriş
**405. Şeirdə morfoloji yolla düzələn neçə söz var və onlar hansı nitq hissəsinə aiddir?**
Orda olsaydım əgər,
Deyərdim: ay həkimlər,
Siz o vurğun ürəyi
Xəstə, yorğun ürəyi
Elelktrik lentinə çəkməyin.
A) iki
B) üç
C) bir
D) yoxdur
E) dörd
**406. Hansı cərgədə yalnız ad düzəldən şəkilçilər verilmişdir?**
A) –lıq (4), -laq (2), -ça (2), -çı (4)
B) –lan (2), -la (2), -laş (2)
C) –lan (2), -lıq (4), -can (2)
D) –imsə, -ümsə, -ca (2)
E) –la (2), -ça (2), -laq (2)
**407. Sözlərdən birində iki leksik şəkilçi vardır:**
A) durulaşma
B) duruxmaq
C) durmadan
D) durğu
E) duruluq
**408. Düzəltmə söz hansıdır?**
A) baxış
B) qarış
C) yarış
D) alqış
E) naxış
**409. Hansı cərgədə dilimizin öz imkanları hesabına söz artımı verilmişdir?**
A) sayrışmaq, suçlu, yığım
B) xarici, kamal, bufet
C) tarix, ədəbiyyat, hakimiyyət
D) şüurlu, ədalətli, şöhrətpərəst
E) obyektiv, mənəvi, bisavad
**410. Morfoloji üsulla düzələn söz hansı cərgədə verilib?**
A) kişilik, yorğunluq, buruq
B) qarmaq, qırıl, qapılmaq
C) itmək, ilgək, igid
D) dalğa, dalğın, darıxmaq
E) toxum, toxmaq, toxa

**411. Düzəltmə söz hansıdır?**
A) bəzək
B) mələk
C) kəpək
D) çiyələk
E) kəpənək
**412. Həm kökü, həm də şəkilçisi alınma olan söz hansıdır?**
A) dairəvi
B) sözlük
C) qızılı
D) papaqçı
E) məlumatlı
**413. Həm kökü, həm də şəkilçisi Azərbaycan mənşəli olan söz hansıdır?**
A) çiçəkli
B) bərabərlik
C) dərrakəli
D) əzabkeş
E) naməlum
**414.Hansı cərgədə sintaktik üsulla düzələn söz verilmişdir?**
A) sarıçiçək, qolbağ, ağacdələn
B) bilərzik, qızılca, qonaq
C) çarpayı, artıq, yığılmaq
D) ayır, qapılmaq, qovğa
E) kitabxana, ədəbiyyatşünas, soyuducu
**415. Hansı sözdə iki leksik şəkilçi var?**
A) tutqunlaşdı
B) geriləmişdi
C) əzizlədilər
D) uzaqlaşdım
E) bozardı
**416. Sözlərdən biri quruluşca sadədir:**
A) səhlənkar
B) zülmkar
C) peşəkar
D) həvəskar
E) sənətkar
**417. Bunlardan biri "batmaq" sözünün sinonimi mənasındadır:**
A) qərq olmaq
B) əlbir olmaq
C) məyus olmaq
D) viran olmaq
E) süst olmaq
**418. Sözlərdən hər üçünün omonim olduğu cərgəni gösrtər:**
A) ay, tut, yay
B) qurd, az, dəniz
C) divan, həyat, surət
D) qoruq, kök, kəsr
E) al, don, əsr
**419. Əsl Azərbaycan sözlərindən ibarət cərgəni göstər:**
A) gəlin, qızıl, sevgi
B) şirin, adil, eynək
C) vərəq, səhifə, müalicə

D) şüşə, fəsil, cisim
E) açar, dəhliz, şüur

**420. Alınma sözlərə aid verilən xüsusiyyətlərdən biri səhvdir:**
A) Alınma sözlər, əsasən, təkhecalı olur
B) Sözdə iki sait yanaşı işlənə bilər
B) Sözdə uzun saitin işlənməsi
D) r samiti ilə başlanan sözlər alınmadır
E) Tərkibində j samiti olan sözlər alınmadır

**421. Əsl Azərbaycan sözlərində vurğu əsasən, hansı hecada özünü göstərir?**
A) sözün son hecasında
B) sözün ilk hecasında
C) istənilən hecada
D) həm əvvəlinci, həm də sonuncu hecada
E) tələffüzdən asılıdır

**422. Azərbaycan sözlərinin xüsusiyyətlərinə aid deyil:**
A) Vurğu əsasən ilk hecaya düşür
B) Müəyyən ahəngə tabe olur
C) Əsasən, bir, iki və üç hecalı olur
D) Söz kökünün ilk səsi saitlə başladıqda onun arxasınca əsasən samit gəlir
E) Söz kökünün ilk səsi samitlə başladıqda onun arxasınca əsasən sait gəlir

**423. Ekzotik sözlər nədir?**
A) Mənşəcə başqa dilə məxsus olub hər hansı bir xalqın məişətini, onun adət-ənənəsini, milli xüsusiyyətlərini göstərən leksik vahidlər
B) Kobud və qeyri-ədəbi sözlər
C) Ali zümrə arasında işlədilən əcnəbi danışıq
D) Tələffüzü və yazılışı eyni, mənaca fərqlənən sözlər
E) Yazılışı eyni, vurğuya görə fərqlənən sözlər

**424. Lüğət tərkibi dedikdə nə başa düşülür?**
A) Dildəki bütün sözlər
B) Dildəki ümumişlək sözlər
C) Dilimizdəki terminlər
D) Dildəki paronim sözlər
E) Dildəki milli sözlər

**425. Terminoloji lüğətlərdə hansı sözlər əksini tapır?**
A) terminlər
B) peşə-sənət sözləri
C) ümumişlək sözlər
D) peşə-sənət sözləri və dialekt sözləri
E) peşə-sənət sözləri və alınma sözlər

**426. Onomastikanın hansı qrupu coğrafi adları, torpaqla bağlı obyektlərin adını öyrənir?**
A) toponimlər
B) etnonimlər
C0 hidronimlər
D) antroponimlər
E) zoonimlər

**427. Omoform nədir?**
A) Müxtəli nitq hissələrinə aid olub, lakin özlərinin bir və ya bir neçə qrammatik formalarında eyni şəkildə səslənən sözlər
B) Səslənməsinə görə eyni olub, lakin başqa formada yazılan sözlər
C) Mənası bir-birinin eyni olan sözlər
D) Bir-birinin əksi olan sözlər
E) Bir neçə dildə eyni mənada işlənən sözlər

**428. Evfemizm nədir?**
A) Tabu sözləri əvəz etmək üçün işlədilən sözlər
B) Bir-birinin əksi olan sözlər
C) İctimai həyatın müəyyən inkişaf mərhələsində qadağa bildirən sözlər
D) Yazılışı və tələffüzü eyni, mənası fərqlənən sözlər
E) Yazılışı və tələffüzü fərqli, mənaca eyni olan sözlər
**429. Hansı cərgədəki sözlər yalnız leksik dubletlərdir?**
A) çeşmək-eynək-gözlük
B) səksən-həştad-doxsan
C) həyat-həyət-ömür
D) yemiş-qovun-qarpız
E) aslan-şir-pələng
**430. Eyni tələffüz edilən, lakin müxtəlif cür yazılan sözlər necə adlanır?**
A) omofon
B) omoqraf
C) omoform
D) omonim
E) antonim
**431. Antonimlərdən ibarət cərgəni göstərin:**
A) ac-tox, yaxşı-pis
B) gecə-gündüz, duzlu-yağlı
C) səhər-axşam, almaq-gətirmək
D) az-çox, ağız-burun
E) irəli-geri, yorğan-döşək
**432. Etnonimika nəyi öyrənir?**
A) tayfa, nəsil adlarını
B) coğrafi adları
C) şəxs adlarını
D) soyadları
E) təxəllüsləri, ləqəbləri
**433. Terminlər hansı üslub üçün daha xarakterikdir?**
A) elmi üslub
B) bədii üslub
C) rəsmi üslub
D) məişət üslubu
E) publisistik üslub
**434. "Gül, ey nazlı Vətən! – Odlar torpağı**
**Duz, çörək hazırla qəhrəmanlara" – beytindəki sinonimləri tapın:**
A) Vətən – Odlar torpağı
B) duz – çörək
C) gül – nazlı
D) gül – hazırla
E) çörək – Vətən
**435. Hansı bənddə dilin müasir vəziyyəti baxımından mənası daralan söz işlənmişdir?**
A) ər, kişi, aş, don
B) dağ, dərə, daş, torpaq
C) elçi, katib, siyasət, inqilab
D) xanım, bəy, ağa, xan
E) saç, tut, şiş, kök
**436. Leksikoqrafiya nəyi öyrənir?**
A) lüğətləri
B) dilin lüğət tərkibini

C) dildə işlənən alınma sözləri
D) leksik və frazeoloji vahidləri
E) söz yaradıcılığını
**437. Hansı variantdakı söz omoqrafdır?**
A) alma
B) yaz
C) üz
D) dolu
E) bağ
**438. Hansı variantdakı söz omoformdur?**
A) gözlər
B) top
C) baş
D) ayaq
E) yatsın
**439. Müasir Azərbaycan dili lüğətləri əsasən hansı üsulla tərtib edilir?**
A) əlifba üsulu ilə
B) yuva üsulu ilə
C) həm əlifba, həm də yuva üsulu ilə
D) etimoloji üsulla
E) sözyaratma üsulu ilə
**440. Sinonim sözlər əsasən hansı nitq hissələri üçün xarakterikdir?**
A) isim, sifət, fel
B) sifət, feil
C) say, əvəzlik
D) isim, qoşma, say
E) isim, əvəzlik
**441. Dilin hansı səviyyəsində dəyişmələr daha qabarıqdır?**
A) leksik səviyyədə
B) fonetik səviyyədə
C) morfoloji səviyyədə
D) sintaktik səviyyədə
E) frazeoloji səviyyədə
**442. Paronim olan sözü seçin:**
A) əsr - əsir
B) hökm – hakim
C) sinif – sinfi
D) qırmızı – qıpqırmızı
E) uzun – uzaq
**443. Neologizmlər nəyin əsasında yaranır?**
A) elm və texnikanın, həyat tərzinin, təhsilin inkişafı nəticəsində
B) köhnəlmiş sözlərin dildən çıxması nəticəsində
C) alınma sözlərin dilə keçməsi nəticəsində
D) dilin səs sisteminin dəyişməsi nəticəsində
E) morfoloji və sintaktik yolla sözlərin yaranması nəticəsində
**444. Hansı cərgədə yalnız vəzifə adları bildirən tarixizmlər verilmişdir?**
A) koxa, darğa, yüzbaşı
B) sövdəgər, falçı, şeyx, dərviş
C) mədrəsə, baqqal, arxalıq
D) çuxa, əba, qurşaq
E) misqal, tağar, batman
**445. Antroponimlər hansı xüsusi adlardan bəhs edir?**

A) şəxs adı, ata adı, soyad, təxəllüs
B) tayfa, qəbilə, tirə adları
C) şəxs adı, familiya, nəsil adları
D) yer adı, nəsil adı, ləqəblər
E) familiya, təxəllüs, tayfa adları
**446. Etnonimlər hansı xüsusi adlardan bəhs edir?**
A) tayfa, nəsil, tirə adları
B) qəbilə, nəsil, şəxs adları
C) şəhər, kənd, oba adları
D) familiya, nəsil, tayfa adları
E) yer-yurd adları
**447. Onomastika nədən bəhs edir?**
A) dildə olan xüsusi adların cəmindən
B) dilin lüğət tərkibindən
C) sözlərin düzgün tələffüzündən
D) sabit söz birləşmələrindən
E) sözlərin üslubi xüsusiyyətlərindən
**448. Müqayisəli leksikalogiyanın əsasında hansı metod durur?**
A) tarixi-müqayisəli metod
B) təsviri metod
C) qarşılaşdırma metodu
D) struktur metod
E) leksik-statistik metod
**449. Hansı xüsusi adlar etnonimika bəhsində öyrənilir?**
A) tayfa, nəsil, tirə adları
B) qəbilə adları, familiyalar
C) şəhər, kənd adları
D) çay, göl, dəniz adları
E) səma cisimlərinin adları
**450. Sözlər mənşəyinə görə hansı qruplara ayrılır?**
A) əsl Azərbaycan sözləri və alınma sözlər
B) təkmənalı və çoxmənalı sözlər
C) ilkin və törəmə sözlər
D) ümumişlək və ümumişlək olmayan sözlər
E) sadə və düzəltmə sözlər
**451. Hansı sıradakı sözlərin hamısı sinonimlərdir?**
A) arzu-istək, bağlamaq-qıfıllamaq, atmaq-tullamaq
B) düz-düzmək, köç-köçmək, dava-dərman
C) yaxşı-pis, gözəl-göyçək, ağ-bəyaz
D) getmək-çatmaq, irəli-geri, gödək-alçaq
E) qonum-qonşu, xoşbəxt-bəxtəvər, baha-ucuz
**452. Hansı variantdakı sözlər hamısı antonimlərdir?**
A) quru-yaş, irəli-geri, gec-tez, şirin-acı
B) geniş-müxtəsər, çalışqan-tənbəl, oturmaq-əyləşmək
C) baha-ucuz, yoxsul-varlı, gözəl-göyçək
D) gülmək-ağlamaq, yatmaq-durmaq, qabaq-ön
E) ziyan-xeyir, atlı-piyada, ağıllı-bacarıqlı
**453. Hansı variantdakı sözlər məcazi mənada işlənmişdir?**
A) şirin yuxu, çiy söz, daş ürək
B) şirin söz, çiy ət, daş bina
C) sehirli xalat, ağıllı uşaq, ətirli bitki
D) gözəl qız, polad balta, gümüş qaşıq

E) dəmir iradə, maraqlı kitab, qızıl diş
**454. Tarixizmlər işlənmiş cərgəni tapın:**
A) koxa, darğa, nizə, dəbilqə, çarıq
B) molla, şeyx, sələmçi, əsən
C) kollektiv, kotan, alt, dəstək
D) nimdər, mərmi, qəlpə, məktəb
E) saz, balaban, nizə, mədrəsə
**455. Sözlərdən yalnız biri omonim kimi işlənə bilər:**
A) inci
B) gəlin
C) dimdik
D) daşı
E) qovurma
**456. Hansı cərgə yalnız terminlərdən ibarətdir?**
A) fonem, morfologiya, akvarel, karikatura
B) fənər, qalxan, kitab, nimdər
C) saat, lüğət, səs, neft
D) dəniz, ixtisas, həyat
E) kağız, çarıq, arxalıq
**457. Antonim sözlər verilmiş cərgəni göstərin:**
A) ağ-qara, tez-gec, axşam-səhər
B) xeyir-şər, el-oba, dərə-təpə
C) oğul-uşaq, ağ-boz, yol-iriz
D) igid-cəsur, dəftər-kitab, irəli-geri
E) dərə-təpə, əziz-hörmətli, güc-qüvvə
**458. Hansı variantda əsl Azərbaycan sözləri verilmişdir?**
A) yapalaq, aslan, göstərmək, gəlmək
B) kitab, sahil, tarix, abidə
C) zəif, ailə, dairə, Cəbrayıl
D) hiss, xətt, həya, şagird
E) alim, namərd, sahib, qalstuk
**459. Morfoloji yolla düzəlmiş sözlər cərgəsini tapın:**
A) döngə, döyüş, meşəlik, sulu
B) kitablar, suya, kitab, meşədə
C) yalanlar, dəftərlərin, kitabda
D) meşəni, kitabın, sudan
E) yalanlara, suyun, kitablarda
**460. Arxaizmlər verilən variantı tapın:**
A) sayru, yanşaq, ayıtmaq
B) yayxanmaq, sayrışmaq, yataq
C) tayfa, qəbilə, sinif
D) portret, loja, nimdər
E) qlobus, fonem, akt
**461. Dünya dillərinin bir çoxunda işlənən sözlər necə adlanır?**
A) beynəlmiləl sözlər
B) arxaizmlər
C) neologizmlər
D) dialekt sözlər
E) tarixizmlər
**462. Arxaizmlərin cərgəsini göstərin:**
A) ayıtmaq, əsən, sayru
B) oğul, qız, uşaq

C) təlis, məhrəba, doqqaz
D) ölkə, tarix, şüur
E) çuxa, arxalıq, çarıq
**463. Hansı sıradakı sözlər antonim deyil?**
A) ağarmaq – qızarmaq
B) aparmaq – gətirmək
C) küsmək – barışmaq
D) gəlmək – getmək
E) açmaq – bağlamaq
**464. Köhnəlmiş sözlər hansı üslubda işlənir:**
A) bədii üslubda
B) publisistik üslubda
C) məişət üslubunda
D) rəsmi üslubda
E) epistolyar üslubda
**465. Poetik sözlər hansı üslub üçün xarakterikdir:**
A) bədii üslub
B) elmi üslub
C) publisistik üslub
D) məişət üslubu
E) rəsmi üslub
**466. Hansı bənddə arxaizm işlənmişdir?**
A) İrişdi sübhi-gül, aç imdi nərgisi-məxmur; Ulaşdı olara ata-ana. (M.Füzuli)
B) Bəy yerə düşən kimi sərkar çaparaq qaçıb onun çamadanlarından yapışdı.
C) Gənc xəfiyyə həddindən artıq sevinirdi.
D) Ağbirçəkli anan yeri behişt olsun (Kitabi-Dədə Qorqud).
E) Bütün bunlar Bahara yuxu kimi gəlirdi.
**467. Hansı bənddə leksik arxaizm işlənmişdir?**
A) Ağ saqqallı baban yeri uçmaq olsun (Kitabi-Dədə Qorqud).
B) Bəy dediyin nədir, bəyənmədiyin nədir (Atalar sözü)
C) Dini dinara satan dindən də olar, dinardan da (Zərb-məsəl)
D) Buğda yeyib biz çıxmışuz behiştdən (Q.B.Zakir)
E) Koroğlu qılıncını çəkib girdi meydana ("Koroğlu")
**468. Hansı cərgədə iki müxtəlif mənalı sözün birləşməsi ilə - sintaktik yolla yaranan söz verilmişdir:**
A) istiot
B) yavaş-yavaş
C) yorğan-döşək
D) oğul-uşaq
E) asta-asta
**469. Hansı söz digər sözlərlə eyniköklü deyil?**
A) işarə
B) işçi
C) işlək
D) işsiz
E) işcil
**470. Hansı bənddə dialekt söz işlənmişdir?**
A) Zərnişan doqqazın ağzında uşaqlardan ayrılıb aynabənd artırmaya qalxdı (X.Hasilova).
B) Güllə səslərini eşidən dəstə dayanmayıb Nəbinin müəyyən etdiyi yerə toplandı.
C) Qulam İçərişəhərdə yaşayırdı (S.Rəhman).
D) Dilsiz sükunəti sən udacaqsan.
E) Məşədibəy dəstəsini izdihama qatdı (H.Mehdi).

**471. “Əkinçilikdən” sözü hansı üsulla düzəlmişdir?**
A) morfoloji üsulla
B) sintaktik üsulla
C) semantik üsulla
D) leksik üsulla
E) leksik-semantik üsulla
**472. Sözlərdən biri “gül” ismi ilə eyniköklü sayıla bilməz:**
A) gülüş
B) güllük
C) gülçü
D) gülüstan
E) güllü
**473. Dialekt sözlər işlənən cərgəni göstərin?**
A) ağzıbir, saytal, arğaz
B) yeg, ozan, qopuz
C) çuxa, çarıq, arxalıq
D) lələ, cibişdan, sülənmək
E) sambrero, sari, kimano
**474. Müasir Azərbaycan ədəbi dilini zənginləşdirən dialekt sözləri hansı cərgədə verilmişdir?**
A) vağanımaq, suç, sayrışmaq
B) həri, doqqaz, məkə
C) hancarı, veyillənmək, lələ
D) bardan, məhrəba, nimdar
E) qənbər, yelpənək, təlis
**475. Hansı cərgədəki sözlərin hamısı morfoloji üsulla yaranmışdır?**
A) üzlük, sınaq
B) sözlük, kəklik
C) bağban, qardaş
D) doğru, sözümüz
E) yoxuş, kitablar
**476. “Dostlarımızın, tanışlarımızın gəlişini çoxdan gözləyirdik” çümləsində neçə söz morfoloji üsulla yaranmamışdır?**
A) 1
B) 2
C) 3
D) 4
E) 5
**477. Hansı bənddə sintaktik yolla yaranan söz verilmişdir?**
A) Vaqondan düşüb yeraltı yolla vağzal meydançasına çıxırlar (Q.İlkin).
B) Babək addımını irəli atdı, dostları da onun ardınca getdilər (N.Süleymanov).
C) İçərisində belə qanlı səhifələr yüzlərcədir (S.Hüseyn).
D) Təmir emalatxanası qapqara qaralmış evciklərdə yerləşirdi (S.Rəhman).
E) Mən heç bir zaman I dünya müharibəsinin törətdiyi fəlakətləri yadımdan çıxara bilmərəm (A.Şaiq).
**478. Sintaktik üsulla düzələn sözlərdən biri iki düzəltmə sifətin birləşməsindən əmələ gəlib:**
A) soyuqqanlı
B) istiqanlı
C) beşhecalı
D) dəvədabanı
E) ucaboylu
**479. Alınma şəkilçili söz hansıdır?**

A) əməkdar
B) qayıqçı
C) küləkli
D) kəndli
E) ucalıq
**480. İsimlərdən sifət düzəldən –i(-vi) şəkilçisi hansı sözün fonetik tərkibinə təsir göstərmir?**
A) inqilab
B) kimya
C) dünya
D) xalq
E) məna
**481. Azərbaycan dilində vurğu yerini dəyişdikdə sözün mənası dəyişirmi?**
A) dəyişmir
B) dəyişir
C) sözdən asılıdır
D) alınma sözlərdə mümkündür
E) Azərbaycan dili üçün xarakterikdir
**482. Biri omonim sözdür:**
A) alışmaq
B) çalışmaq
C) görüşmək
D) büzüşmək
E) küsüşmək
**483. Hansı sıradakı antonimlər alınma sözlərdən ibarətdir?**
A) qalib - məğlub
B) axşam - səhər
C) yer – göy
D) iri – xırda
E) ağ – qara
**484. Hansı cərgədə dialekt sözlər verilmişdir:**
A) qağa,bardan, vağanımaq
B) qatıq, qonaq, qarğı
C) qapı, toxmaq, yovşan
D) qarpız, yemiş, qovun
E) qayıq, çəkic, balta
**485. "Quru çörək" və "quru adam" birləşmələrindəki "quru" sözü aşağıdakılardan hansına uyğun gəlir?**
A) həqiqi mənalı, məcazi mənalı
B) omonim, çoxmənalı
C) omonim, paronim
D) antonim, sinonim, omonim
E) təkmənalı söz
**486. Hansı cərgədəki sözlər məcazi mənada işlənmişdir?**
A) şirin dil, dəmir iradə, qızıl söz, gümüş saç
B) qızıl saat, gümüş üzük, şirin alma, dəmir qapı
C) dəmir sandıq, qızıl bilərzik, şirin üzüm, gümüş açar
D) gümüş kəmər, dəmir açar, qızıl diş, şirin nar
E) dəmir alət, gümüş diş, qızıl söz, çirin söhbət
**487. Hansı sıradakı sözlər məcazi mənada işlənmişdir?**
A) şirin yuxu, çiy söz, gözəl fikir, daş ürək
B) qızıl üzük, gözəl mənzərə, çiy ət, daş bina
C) sehrli xalat, ağıllı uşaq, daş ev

D) gözəl qız, polad balta, polad dirək
E) maraqlı kitab, mehriban dosr, vəfalı yoldaş
**488. Antonimlər hansı sırada verilmişdir?**
A) quru-yaş, sərt-mülayim, şirin-acı, gec-tez
B) geniş-müxtəsər, çalışqan-tənbəl, irəliyə-qabağa
C) baha-ucuz, yoxsul-varlı, adlı-sanlı, ağ-qara
D) gülmək-ağlamaq, yatmaq-durmaq, oturmaq-əyləşmək
E) ziyan-xeyir, atlı-piyada, ağıllı-bacarıqlı
**489. Dialekt sözləri hansı sıradadır?**
A) kora, cələf, sinmək, taytımaq, dambat, həri
B) tənbəl, anbar, sünbül, şənbə, lovğa, bəli
C) pambıq, əriştə, güllü, saniyə, axsamaq
D) bəyaz, dava-dərman, azarlı, mismar
E) gözlük, istək, müştük, müştəri, zəif
**490. Hansı sıradakı sözlərin hamısı morfoloji yolla düzəlmişdir?**
A) güllü, güllük, gülçülük, gülüş
B) gül, gülün, gülə, gülləri
C) gülmək, gülürlər, gülərlər, güldü
D) gülmüşdü, gülərmiş, gülsə, güldüsə
E) gülürsə, güldüsə, gülərsə, güləcəksə
**491. Hansı sıradakı bütün sözlər morfoloji yolla düzəlmişdir?**
A) döngə, döyüş, meşəlik, sulu
B) suya, gözəlin, yalanlar, meşədə
C) yalanları, gözəldə, meşənin, sudan
D) yalana, gözəldə, meşəni, sudan
E) meşələrin, suyun, yalanlara
**492. Terminlər hansı sırada verilmişdir?**
A) tənlik, sait, abzas
B) göl, su, içmək
C) vuruş, gül, sarı
D) susmaq, demək, görmək
E) hadisə, əhvalat, qəhrəman
**493. Ərəb və fars mənşəli alınma sözlər hansı sıradadır?**
A) namərd, səadət, cahangir, təbiət, qiyamət
B) polad, seyrək, tüstü, sürü, bulaq
C) qələm, ata, bahadır, qardaş, bacı
D) qanad, boyun, səkkiz, otuz, doqquz
E) almaq, kəsəyən, çalağan, turac, səksən
**494. Asılı tərəfi məcazi mənada işlənmiş söz birləşmələrini göstərin:**
A) şirin söhbət
B) dəmir qapı
C) daş bina
D) uşağın yuxusu
E) dərin dəniz
**495. "Çaşıb qalmaq" ifadəsi hansı frazeoloji birləşmə ilə əvəz edilə bilər?**
A) kələfin ucunu itirmək
B) yaxasını kənara çəkmək
C) başı daşdan-daşa dəymək
D) hirsi başına vurmaq
E) əldən düşmək
**496. Sözlərin üçünün də omonim olduğu cərgəni göstərin:**
A) kök, yol, top

B) top, üz, meyvə
C) yol, qatıq, acı
D) kök, doğru, ana
E) baş, hirs, oğul
**497. Yeni sözlər işlənmiş sıranı göstərin:**
A) əyləc, soyad, çağdaş, soydaş, öndər
B) radio, televizor, telefon, kino
C) maşın, lampa, universitet, direktor
D) elektrik, televizor, avtomobil, tramvay
E) qatar, vağzal, tramvay, direktor, teleqraf
**498. Frazeoloji birləşmə hansıdır?**
A) başdan çıxarmaq
B) budağı kəsmək
C) işdən çıxmaq
D) gedə bilmək
E) sözünü demək
**499. Neologizmlər cərgəsini göstərin:**
A) menecer, internet, çağdaş
B) hakim, həkim, şahid
C) direktor, rektor, vağzal
D) diyar, vətən, oba
E) məktəb, katib, elm
**500. Fonetik arxaizmlər hansı sırada verilmişdir?**
A) qamu, ol, kim, xansı
B) ozan, qopuz, tamu
C) yüzbaşı, yüz, duş
D) çöl, uçmaq, yazı
E) uymaq, ayıtmaq, irişmək
**501. Aşağıdakı xüsusiyyətlərdən hansı sözün leksik mənasına aid deyil?**
A) leksik məna qrammatik mənadan asılıdır
B) leksik məna sözün fərdi mənasıdır
C) sözün leksik mənası hamı tərəfindən başa düşülür
D) leksik məna sözün kökü, əsası ilə ifadə olunur
E) leksik məna müstəqil mənalı sözlərə aiddir
**502. Aşağıdakı xüsusiyyətlərdən hansı əsas lüğət fonduna aid deyil?**
A) əsas lüğət fondu dildəki sözlərin hamısını əhatə edir
B) əsas lüğət fondu uzunömürlüyü və sabitliyi ilə seçilir
C) əsas lüğət fondu ümumxalq xarakterlidir
D) əsas lüğət fondu böyük işlədilmə əmsalına malikdir
E) əsas lüğət fondu xarici təsirlərə qarşı müqavimətli olması ilə fərqlənir
**503. Aşağıdakılardan hansı dilin appelyativ leksikasına aid deyil?**
A) toponimlər
B) loru sözlər
C) ekzotik sözlər
D) ekspressiv sözlər
E) hibrid sözlər
**504. Aşağıdakı xüsusiyyətlərdən hansı əsl Azərbaycan sözlərinə aid deyil?**
A) apostroflu sözlər
B) əsl Azərbaycan sözləri təkhecalı olur
C) söz kökündə sait-samit sıralanması
D) Azərbaycan sözlərində vurğu son hecanın üzərinə düşür
E) Azərbaycan sözlərində ön şəkilçi (predloq) olmur

**505. Hansı ərəb mənşəli söz deyil?**
A) xırdavat
B) elan
C) ismət
D) aqibət
E) rəsm
**506. Hansı fars mənşəli söz deyil?**
A) vəsait
B) fəndgir
C) ahəng
D) cəng
E) ləng
**507. Hansı əsl Azərbaycan sözüdür?**
A) dodaq
B) qəşəng
C) pərvaz
D) ahəstə
E) elan
**508. Aşağıdakı xüsusiyyətlərdən hansı əsl Azərbaycan sözlərinə aiddir?**
A) Azərbaycan sözlərində ahəng qanunu qorunur
B) sonu “mal” komponenti ilə qurtaran sözlər
C) “mə” önşəkilçili sözlər
D) sonu “ng” səs birləşməsi ilə qurtaran sözlər
E) qoşa saitli sözlər
**509. Hansı əsl Azərbaycan sözüdür?**
A) el, al
B) süni, cürət
C) emal, ehmal
D) Şirvani, Gəncəvi
E) nəsr, sərf
**510. Hansı fars mənşəli sözdür?**
A) zəng
B) ərazi
C) fəal
D) təam
E) qadir
**511. Hansı rus mənşəli söz deyil?**
A) ülfət
B) şlanq
C) stəkan
D) kolxoz
E) sovxoz
**512. Aşağıdakılardan hansı monqol dili ilə ortaqlı olan sözlərə aiddir?**
A) ayran
B) torağay
C) yorğan
D) çalağan
E) burulğan
**513. Hansı qıpçaq və oğuz qrupu dilləri ilə ortaqlı olan Azərbaycan sözüdür?**
A) torağay
B) bulaq
C) zindan

D) damğa
E) elçi
**514. Aşağıdakılardan hansı tarixizm deyil?**
A) sərf
B) darğa
C) çavuş
D) girvənnə
E) xalvar
**515. Aşağıdakılardan hansı leksik arxaizm deyil?**
A) kişi
B) əsrük
C) yey
D) iraq
E) uyumaq
**516. Aşağıdakılardan hansı fonetik arxaizm deyil?**
A) aş - (yemək mənasında)
B) adaq-ayaq
C) xəlq-xalq
D) ur-vur
E) yigirmi-iyirmi
**517. Hansı xüsusiyyət tarixizmlərə aid deyil?**
A) tarixizmlər hal-hazırda mövcud olan əşyaların, məfhumların köhnəlmiş adıdır
B) tarixizmlər köhnəlmiş əşyaların, məfhumların adı olduğundan hal-hazırki dövrümüzdə işlənmir
C) həyatımızdan, məişətimizdən çıxmış əşyaların adını çəkməyə ehtiyac olduqda tarixizmlərdən istifadə olunur.
D) tarixizmlər həyat tərzinin, ictimai-iqtisadi quruluşun dəyişməsi ilə əlaqəli olaraq yaranır
E) tarixizmlər köhnəlmiş sözlərin bir növüdür
**518. Aşağıdakılardan hansı dilin daxili imkanları hesabına yaranmış neologizmlərə aiddir?**
A) tozsoran
B) marşal
C) direktor
D) orbit
E) ekstremist
**519. Okkazional sözü tapın.**
A) arvadlaşar
B) kafel
C) jiquli
D) neylon
E) menecer
**520. Aşağıdakılardan hansı sintaktik yolla əmələ gələn neologizmlərə aiddir?**
A) ikihecalı
B) soyuducu
C) qapalı
D) dilçi
E) aylıq
**521. Hansı söz əsl Azərbaycan sözüdür?**
A) gəl
B) cənnət
C) məhkəmə
D) elan
E) anormal

**522. Təqlidi sözlər cərgəsini seçin.**
A) tappıltı, xışıltı, fısıltı
B) ağlamaq, qışqırmaq, qaçmaq
C) xışıldamaq, gülmək, qaçmaq
D) fısıldamaq, çağırmaq, bağırmaq
E) atılmaq, qaçmaq, tappıldatmaq
**523. Dilin lüğət tərkibinin əlavə hissəsinə aid olan söz qrupları hansılardır?**
A) terminlər, dialektizmlər, vulqarizmlər
B) arxaizmlər, sinonimlər, omonimlər
C) ümumişlək sözlər, antonimlər, sinonimlər
D) frazemlər, omonimlər, terminlər
E) vulqarizmlər, antonimlər, terminlər
**524. Hansılar onomastik leksikaya aiddir?**
**1- zoonimlər**
**2- terminlər**
**3- hibrid sözlər**
**4- saf sözlər**
**5- etnonimlər**
**6- hidronimlər**
A) 1, 5, 6
B) 1, 2, 3
C) 3, 4, 5
D) 4, 5, 6
E) 2, 4, 6
**525. Alınma şəkilçilər cərgəsini göstərin.**
A) baz, keş
B) $çı^4$, $lı^4$
C) $da^2$, $dan^2$
D) $ım^4$, $ımız^4$
E) $ma^2$, $maq^2$
**526. Sadə şəxs adlarından ibarət olan cərgəni seçin.**
A) Çiçək, Şəkər, Qara
B) Əli, Adil, Akif, Yaşar
C) Baxış, Gülüş, Sevil
D) Nazlı, Elçin, Ovçu
E) Bəyim, Sevil, Akif
**527. Dağ, dərə, təpə, aşırım, biçənək və s. yerlərin adlarını bildirən termin hansıdır?**
A) oronimlər
B) oykonimlər
C) dromonimika
D) antroponimlər
E) zoonimlər
**528. Azərbaycan dilinin leksik sistemi neçə yerə bölünür?**
A) iki yerə: appelyativ lksika, onomastik leksika
B) iki yerə: elmi leksika, bədii leksika
C) iki yerə: üslubi leksika, onomastik leksika
D) üç yerə: elmi leksika, üslubi leksika, bədii leksika
E) iki yerə: onomastik leksika, bədii leksika
**529. Appelyativ leksikaya hansılar aiddir.**
A) loru sözlər, qədim sözlər, terminlər
B) hibrid sözlər, jarqon sözlər, zoonimlər
C) hidronimlər, yeni sözlər, saf sözlər

D) etnonimlər, sinonimlər, omonimlər
E) antonimlər, terminlər, kosmonimlər
**530. Azərbaycan dilindəki onomastik vahidlər hansı üsulla yaranmır?**
A) fonetik üsulla
B) leksik üsulla
C) semantik üsulla
D) morfoloji üsulla
E) sintaktik üsulla
**531. Quruluşca düzəltmə olan toponimi göstərin.**
A) Yaqublu
B) Padar
C) Qarabulaq
D) Bucaq
E) Qonaqkənd
**532. Hansı onomastik vahid morfoloji üsulla yaranıb?**
A) Söyüdlü
B) Qara
C) Solmaz
D) Qoşakənd
E) Dönməz
**533. Paronimlərin neçə növü var?**
A) leksik, poetik
B) elmi, bədii
C) leksik, semantik
D) poetik, bədii
E) sintaktik, fonetik
**534. Dəniz adını bildirən hidronimləri seçin.**
A) Aralıq, Xəzər
B) Araz, Kür
C) Ağnohur, Qızıl nohur
D) Göygöl, Maral göl
E) Qarabulaq, Göybulaq
**535. Hansı omonim kosmonimdir?**
A) Zöhrə, Mərak
B) Məstan, Alabaş
C) Adil, Akif
D) Qıpçaq çayı, Xəzər dənizi
E) Əlican çay, Aralıq dənizi
**536. Aşağıdakı hansı cərgədə neologizmlərin növləri göstərilmişdir?**
A) leksik-semantik, leksik, semantik
B) qrammatik, fonetik, morfoloji
C) semantik, sintaktik
D) leksik, fonetik
E) semantik, leksik, fonetik
**537. Ahəng qanunu pozulmuş əsl Azərbaycan sözlərini göstərin.**
A) ildırım, işıq, ilğım
B) dırnaq, məktəb, inad
C) ilğım, qılınc, əzgin
D) dərman, qələm
E) hürriyyət
**538. Hansı sözün vurğusunu dəyişəndə mənası da dəyişir?**
A) gəlin

B) qara
C) qırmızı
D) günəş
E) ildırım
**539. Önşəkilçili sözlərdən hansı əsl Azərbaycan sözləridir?**
A) nadinc, nakişi
B) anormal, baməzə
C) nakam, nadan
D) biçarə, bixəbər
E) nakam, bixəbər
**540. Hansı sözdə incə və dodaqlanan saitlərin ahəngi var?**
A) üzüm
B) odun
C) uğur
D) ördək
E) ümid
**541. Azərbaycan dilindəki sözlər tərkibinə görə hansı hissələrə ayrılır?**
A) saf və hibrid sözlər
B) milli və dialekt sözlər
C) köhnəlmiş sözlər və neologizmlər
D) ərəb-fars və türk mənşəli sözlər
E) omonim və sinonimlər
**542. Hansı variant doğrudur?**
Dilin lüğət tərkibi iki hissədən ibarətdir:
A) əsas və əlavə hissələrdən
B) baş və əlavə hissədən
C) sinonim və antonimlərdən
D) termin və dialektlərdən
E) loru sözlər və terminlər
**543. Uzun müddət dəyişməyən, sabit qalan zəruri əşyaların, predmetlərin, məfhumların adı hansı hissədə hesab olunur?**
A) əsas hissə
B) əlavə hissə
C) köhnəlmiş sözlər
D) loru sözlər
E) qədim sözlər
**544. Dialektizmlər, arxaizmlər, terminlər və s. dilin lüğət tərkibinin hansı hissəsinə daxildir?**
A) əlavə hissəyə
B) baş hissəyə
C) neologizmlərə
D) tarixizmlərə
E) loru sözlərə
**545. Müasir Azərbaycan ədəbi dilinin leksik sistemini neçə hissəyə ayırmaq olar?**
A) 2
B) 3
C) 4
D) 5
E) 6
**546. Appelyativ leksikaya daxildir:**
A) ümumişlək sözlər
B) antroponimlər

C) toponimlər
D) kosmonimlər
E) etnonimlər
**547. Aşağıdakı sözlərdən hansı əsl Azərbaycan sözləridir?**
A) yarpaq, göz
B) açıq, şöbə
C) süni, cürət
D) irad, isbat
E) üsul, qəzəb
**548. Bu xüsusiyyətlərdən hansı əsl Azərbaycan sözlərinə aiddir?**
A) əsl Azərbaycan sözləri əsasən təkhecalı olur
B) apostroflu sözlər
C) sonu iki samitlə qurtaran sözlər
D) i və ü saitləri ilə başlayan sözlər
E) sonu ng səs birləşməsi ilə qurtaran sözlər
**549. Aşağıdakı sözlərdən hansı ərəb mənşəli sözlərdir?**
A) elan, etimad
B) məsud, zəng
C) qəşəng, cəng
D) xırdavat, kəfgir
E) sazəndə, ahəstə
**550. Aşağıdakı sözlərdən hansı rus mənşəli sözlərdir?**
A) replika, realist
B) radist, şöbə
C) seminar, şöbə
D) filosof, isbat
E) elastik, etimad
**551. Şairin, alimin, yazıçının yaradıcılığında əsərlərində məqsədlə bağlı olaraq yaradılmış fərdi sözlər necə adlanır?**
A) okkazional sözlər
B) ümumişlək sözlər
C) alınma sözlər
D) neologizmlər
E) arxaizmlər
**552. Aşağıdakılardan hansı okkazional sözlərdir?**
A) pasportlaşma, arvadlaşar
B) orbit, ekstremist
C) azadlıq, solçuluq
D) respublika, çimərlik
E) jiquli, kafel
**553. Aşağıdakılardan hansı semantik neologizmlərdir?**
A) yoldaş, müqəddəs
B) robot, diktatura
C) lakator, lunaxod
D) şura hököməti, neytron bombası
E) darülfünun, aşkarlıq
**554. Aşağıdakı terminlərdən hansı mənanın köçürülməsi ilə yaranıb?**
A) yaddaş
B) nənni
C) tor
D) yuva
E) bölmə

**555. Ekzotik sözlər nəyə deyilir?**
A) mənşəcə başqa dilə mənsub olub, xalqın məişətini, adət-ənənəsini, milli xüsusiyyətlərini göstərir
B) kobud, qeyri-ədəbi sözlərdir
C) nisbətən elvari, saya xarakterli söz qruplarıdır
D) yüksək obrazlılığa, emosionallığa malik sözlərdir
E) bir kökdən ibarət olan sözlərə deyilir
**556. Aşağıdakılardardan hansı loru sözlərdir?**
A) lələş, cibişdan
B) quyruq, kalan
C) soqlasit, çestnı
D) uçitel, syezd
E) goplamaq, kaftar
**557. Qohum sözlər nəyə deyilir?**
A) bir kökdən yaranan sözlərə
B) eynicinsli varlıqların adını bildirən sözlər
C) eynicinsli varlıqların birini digərindən fərqləndirən sözlər
D) bir kökdən ibarət olan sözlər
E) dildə mövcud olan ilkin sözlərdən yaranan sözlər
**558. Aşağıdakı təriflərdən hansı semasiologiyaya aiddir?**
A) sözün mənası haqqında elmdir
B) dilin lüğət tərkibi haqqında elmdir
C) danışıq səslərindən bəhs edən elmdir
D) dildə olan bütün sabit söz birləşmələrinin, bölünməz ifadə və ibarələrin məcmusuna deyilir
E) lüğətləri öyrənən elmdir
**559. Aşağıdakılardan hansı tam antonimlərə aiddir?**
A) ağ-qara, var-yox
B) yaş-quru, ağ-yaşıl
C) gözəl-çirkin, qış-payız
D) dağ-dərə, ağ-boz
E) ağ-qırmızı, qış-payız
**560. Dilin daxili imkanları hesabına yaranmış antonimlərə aiddir:**
A) quru-yaş, az-çox
B) böyük-kiçik, sual-cavab
C) isti-soyuq, avam-mədəni
D) düz-əyri, aqil-cahil
E) az-çox, halal-haram
**561. Aşağıdakı fikirlərdən biri yanlışdır.**
A) leksik məna qrammatik vasitələrlə, qrammatik məna isə sözün əsası kökü ilə ifadə olunur
B) leksik məna sözün fərdi mənasıdır
C) sözün ilkin, başlanğıc mənası onun leksik mənasıdır
D) leksik məna hamı tərəfindən anlaşılır
E) sözün leksik mənası dəyişəndə onun qrammatik mənası da dəyişir
**562. Məhdud dairədə işlənən sözlərə daxildir:**
A) neologizmlər
B) peşə-sənət sözləri
C) terminoloji sözlər
D) ictimai-siyasi sözlər
E) idman və hərbi sözlər
**563. Leksik məcazların neçə növü vardır?**
A) 3
B) 2

C) 6
D) 1
E) yoxdur

**564. Nümunələrdən biri nəticə yaxınlığı əsasında yaranan metonimiyadır?**
A) dondurma
B) dolanmaq
C) gecə
D) məktəb
E) süründürmək

**565. Sinonimlər nitqdə neçə formada işlənir?**
A) 3
B) 5
C) 4
D) forması yoxdur
E) 1

**566. Aşağıdakılardan biri ləqəblə təxəllüs arasında olan fərqlərə aid edilə bilməz.**
A) həm təxəllüs, həm də ləqəb köməkçi adlar qrupuna daxildir
B) təxəllüslər sayca az, ləqəblər isə çoxdur
C) təxəllüsü şəxsin özü seçir. Ləqəblər isə şəxsə adamlar tərəfindən verilir
D) təxəllüslər rəsmi, ləqəblər isə qeyri-rəsmi xarakter daşıyır
E) təxəllüslər başqa dilə tərcümə olunmur, ləqəblər isə olunur

**567. Hansılar türk dillərinə məxsus titullardır?**
A) xatun, bəy, xaqan
B) əmir, bəyim, hacı
C) kral, xanım, xan
D) bəy, hersoq, şah
E) şah, bəy, ağa

**568. Qədim toponimlərə daxildir.**
A) Ucar, Dondarlı, Gəncə
B) Yenigün, Bakı, Füzuli
C) Aşağı Qışlaq, Bəydili, Şəki
D) Qarabağ, Yenigün, Bakı
E) Bakı, Ucar, Yeniyol

**569. Fikirlərdən biri doğrudur.**
A) frazeoloji vahidlərin sintaktik vəzifəsi vardır
B) frazeoloji vahidlər həqiqi mənaya malikdir
C) frazeoloji vahidlər milli xüsusiyyətə malik deyil
D) frazeoloji vahidlərin antonimi olmur
E) frazeoloji sinonimlər yalnız bir sözlə ifadə olunur

**570. Frazeoloji vahidlər tərəflərinin hansı nitq hissəsi ilə ifadə olunmasına görə neçə yerə ayrılır?**
A) 3
B) 5
C) 4
D) 2
E) ayrılmır

**571. Bunlardan biri universal regional ensiklopediyalar sırasına daxildir.**
A) Sibir Sovet Ensiklopediyası
B) Tarix Ensiklopediyası
C) Özbək Sovet Ensiklopediyası
D) Tibb Ensiklopediyası
E) Kiçik Sovet Ensiklopediyası

**572. İlk Azərbaycan dilinin dialektoloji lüğəti neçənci ildə nəşr edilmişdir?**
A) 1964
B) 1958
C) 2001
D) 2004
E) 1970
**573. Dilin daxili imkanları əsasında lüğət tərkibi aşağıdakı yollarla zənginləşir. Biri yanlışdır.**
A) peşə-sənət sözləri hesabına
B) yeni söz və ifadə yaratmaqla
C) kalka üsulu ilə sözyaratmaqla
D) dialekt və şivələrdən söz götürməklə
E) sözün mənasının genişlənməsi hesabına
**574. Azərbaycan leksikoqrafiyasında çoxdilli lüğətləri əhatə etdikləri dillərə görə neçə yerə bölmək olar?**
A) 5
B) 2
C) 3
D) 4
E) 6
**575. Dilimizəki toponimlər dil tərkibinə görə aşağıdakı qruplara ayrılır. Biri yanlışdır.**
A) ingilis və fransız dillərinə mənsub olan toponimlər
B) monqol dilinə mənsub olan toponimlər
C) rus dilinə mənsub olan toponimlər
D) ərəb-fars dillərinə mənsub olan toponimlər
E) Azərbaycan-türk dillərinə mənsub olan toponimlər
**576. Azərbaycan dilindəki onomastik vahidlər neçə üsulla əmələ gəlir?**
A) 4
B) 2
C) 5
D) 6
E) 3
**577. Omonimlərin hansı tipinə omofonlar deyilir?**
A) fonetik omonimlər
B) leksik omonimlər
C) morfoloji omonimlər
D) fonetik və leksik omonimlər
E) leksik və morfoloji omonimlər
**578. Fikirlərdən biri yanlışdır.**
A) sözlər ahəngsiz olmalıdır
B) sözün mənası olmalıdır
C) sözün vurğusu olmalıdır
D) sözlər anlaşılı olmalıdır
E) sözlər fonetik cəhətdən formalaşmalıdır
**579. Onomastik məna hansı vasitələrlə ifadə olunur?**
A) zaman şəkilçiləri vasitəsilə
B) omonimlərlə
C) sifətlərlə
D) frazeoloji birləşmələrlə
E) ifadə vasitəsi yoxdur
**580. İşləkliyinə görə sözlərin qrupları hansılardır?**
A) aktiv və passiv

B) loru və danışıq sözləri
C) passiv və poetik sözlər
D) kitab və danışıq sözləri
E) aktiv və poetik sözlər

**581. Aşağıdakı terminlərdən hansıları milli terminlərdir?**
A) çaylaq, çimərlik
B) isim, dekan
C) poeziya, filologiya
D) məhkəmə, fel
E) siyasət, muğam

**582. Hansı sırada yalnız alınma terminlər verilmişdir?**
A) müayinə, segah
B) örüş, zərf
C) çimərlik, mükafat
D) çaylaq, əmlak
E) yarış, hekayə

**583. Hansı sırada yalnız alınma terminlər verilib?**
A) qafiyə, bənd
B) rübai, yarış
C) sovet, çaylaq
D) örüş, təşbih
E) çimərlik, material

**584. Avropa mənşəli terminlər hansı sırada düzgün verilmişdir?**
A) kapitan, kamerton, natural
B) zülal, əmlak, dastan
C) gözəl, mükafat, rəis
D) cinas, katib, təşbih
E) şeir, sənəd, sərəncam

**585. Ərəb-fars mənşəli terminlər hansı sırada düşgün göstərilib?**
A) lətifə, əmlak, sincab
B) arqo, disk, media
C) valyuta, epiloq, fayl
D) spiker, novella, sayt
E) kross, qamma, reaksiya

**586. Hansı sırada ekzotik sözlər verilmişdir?**
A) lira, ananas, cənab
B) həştad, zəvzək, daxma
C) molodes, acgöz, goplamaq
D) yekəbaş, boşboğaz, nanəcib
E) hırıldamaq, lələş, zırrama

**587. Biz gündəlik nitqimizdə, əsasən, hansı sözlərdən istifadə edirik?**
A) ümumişlək sözlərdən
B) dialekt sözlərdən
C) terminlərdən
D) neologizmlərdən
E) alınma sözlərdən

**588. Nümunələrdən neçəsi frazeoloji birləşmədir: başa vurmaq, can qoymaq, söz salmaq, işə düşmək, kitabı qaytarmaq, dağdan enmək, söz götürmək, ağac əkmək, məzmununu danışmaq.**
A) 5
B) 4
C) 2

D) 3
E) 6
**589. Hansı cərgədə frazeoloji birləşmənin qarşılığı səhv verilib?**
A) özünü çəkmək – mülayim olmaq
B) bel bağlamaq – inanmaq
C) gözdən pərdə asmaq – aldatmaq
D) qulaq asmaq – dinləmək
E) əldən düşmək – yorulmaq
**590. Türk mənşəli çağdaş sözü hansı alınmanın qarşılığıdır?**
A) müasir
B) mübariz
C) mütərəqqi
D) humanist
E) mötəbər
**591. Hansı cərgə yalnız terminlərdən ibarətdir?**
A) karikatura, portret, akvarel, not
B) lampa, becid, yerpənək
C) mişar, su, neft, kitab
D) dəniz, ixtisas, həyat, namərd
E) saat, lüğət, zərf, sənəd
**592. Nümunələrdən biri dialekt sözdür.**
A) qarqundey
B) qalxan
C) arşın
D) nəqliyyat
E) mişar
**593. Əsl Azərbaycan sözlərindən ibarət olan cərgəni göstərin.**
A) yanaşı, iyirmi, işıq
B) cahangir, üfüq, vərəq
C) ehsan, ehram, qonaq
D) elan, səy, rəy
E) ilham, mülk, ünsiyyət
**594. Həsr-həsir, əski-əksi, ahəng-əhəng tipli sözlər necə adlanır?**
A) paronim
B) antonim
C) sinonim
D) dialekt
E) neologizm
**595. Zoonim mənşəli hidronimlər hansı sırada verilmişdir?**
A) Ördək gölü
B) Zoğalı çay
C) Söyüdlü bulağı
D) Gəncə çayı
E) Arpa çayı
**596. Azərbaycan dilinə məxsus kosmonimlər hansılardır?**
A) Qartal, Böyük Ayı
B) Dübb, Mərkab
C) Mərak, Eridop
D) Delfin, Oktant
E) Dübb, Oktant
**597. Fitonim mənşəli hidronim hansı sırada verilib?**
A) Zoğalı çay

B) Çalağan çayı
C) Qurbağalı çay
D) Ördək gölü
E) Astara çayı

**598. Dini əfsanə və rəvayətlər əsasında yaranan frazeologizm hansıdır?**
A) Nuhu beşikdə görmək
B) Leyli Məcnun olmaq
C) Kərəm kimi alışmaq
D) Çin səddi çəkmək
E) Nadiri taxtda görmək

**599. Tarixi şəxsiyyət adı yaranan frazeologizm hansı variantda verilib?**
A) Nadiri taxtda görmək
B) Nuhu beşikdə görmək
C) Kərəm kimi alışmaq
D) Çin səddi çəkmək
E) Nuh tufanı qopmaq

**600. Əsas tərəfi fellə ifadə olunan frazeologizm hansı variantda verilib?**
A) dərd çəkmək
B) təmiz ürək
C) şirin dil
D) alnı açıq
E) əli uzun

**601. Frazeoloji sinonimlər  hansı cərgədədir?**
A) ümid bəsləmək – bel bağlamaq
B) ürəyi düşmək – ürəyində saxlamaq
C) baş çəkmək – ad çəkmək
D) gözə gəlmək – başa gəlmək
E) əldən düşmək – gözdən düşmək

**602. "Ağız büzmək" frazeoloji birləşməsinin antonimini göstərin.**
A) xoşuna gəlmək
B) ağzını aramaq
C) ürəyi ağzına gəlmək
D) ağzı açıla qalmaq
E) ağız açmaq

**603. "Çaşıb qalmaq" ifadəsi hansı frazeoloji birləşmə ilə əvəz edilə bilər?**
A) kələfin ucunu itirmək
B) yaxasını kənara çəkmək
C) başı daşdan daşa dəymək
D) hirsi başına vurmaq
E) əldən düşmək

**604. "Aman verməmək" frazeoloji birləşməsinin antonimi hansıdır?**
A) xahiş etmək
B) arzu etmək
C) danışmaq
D) dil-dil ötmək
E) yalvarmaq

**605. Hansı cərgədəki sinonim cütlük əsl Azərbaycan sözlərindən ibarətdir?**
A) isti - soyuq
B) zəif - güclü
C) ələm – nəşə
D) nainsaf – rəhmdil
E) sülh – müharibə

**606. Leksikalogiyanın növlərini seçin:**
**1- təsviri leksikalogiya**
**2- müasir leksikalogiya**
**3- müqayisəli leksikalogiya**
**4- dialektik leksikalogiya**
**5- tarixi leksikalogiya**
A) 1, 3, 5
B) 1, 2, 4
C) 2, 4, 5
D) 3, 4, 5
E) 1, 3, 4
**607. Əsl Azərbaycan sözləri, əsasən, neçə hecalı olur?**
A) Bir, iki, az bir qismi üçhecalı olur
B) Üçhecalı olur
C) Ancaq iki və dördhecalı olur
D) Ancaq bir və üçhecalı olur
E) Üç və dördhecalı olur
**608. Vasitəsiz alınma sözlər başqa dillərdən necə alınır?**
A) Başqa dilin sözləri bilavasitə mənbə dildən alınır
B) İkinci bir dilin iştirakı ilə keçir
C) Sözlər eynilə keçir
D) Sözlərə şəkilçi artırılır
E) Sözlərdə fonetik fərq yaradılır
**609. Azərbaycan dilindəki köhnəlmiş sözlər hansı iki qrupa bölünür?**
A) tarixizm və arxaizm
B) yeni və köhnə sözlər
C) dialektizm və neologizmlər
D) tarixizm və köhnə sözlər
E) dialektizm və arxaizm
**610. Hansı alınma söz beynəlmiləl alınma sözdür?**
A) opera
B) qanun
C) əsas
D) kitab
E) əlamət
**611. Hansı abreviaturanın yazılışında səhvə yol verilib?**
A) BMT-nun
B) ATƏT
C) NATO
D) MDB
E) GUAM
**612. Hüquq sahəsinə aid termini seçin.**
A) hakim
B) kvadrat
C) qılınc
D) ariya
E) inteqral
**613. Terminlər hansı üsullarla yaranır:**
**1- semantik**
**2- morfoloji**
**3- kalka;**
**4- leksik;**

**5- sintaktik;**
**6- abreviatura;**
**7- dəyişmə;**
**8- köçürmə**
A) 1, 2, 3, 5, 6
B) 1, 4, 6, 7, 8
C) 1, 6, 7, 4, 8
D) 2, 3, 4, 5, 8
E) 3, 4, 6, 7, 8
**614. Söz üçün daxili cəhətlərdən biri yanlışdır:**
A) ahəngə tabelilik
B) məna müstəqilliyi
C) semantik valentlik
D) sabitlik
E) anlaşıqlıq
**615. Azərbaycan dilinin lüğət tərkibinin vahidləri hansılardır?**
**1- Qrammatik vahidlər**
**2- Leksik vahidlər**
**3- Fonetik vahidlər**
**4- Frazeoloji vahidlər**
**5- Etimoloji vahidlər**
A) 2, 4
B) 1, 2, 3
C) 4, 5
D) 1, 3, 5
E) 2, 5
**616. Neçə hibrid söz var: davakar, yazmaq, həmfikir, toyxana, oxu, beş, atam, sözbaz.**
A) 4
B) 7
C) 5
D) 1
E) yoxdur
**617. Aşağıdakılardan hansı doğrudur?**
A) Dildə olan bütün sözlərin və sabit birləşmələrin məcmusuna lüğət tərkibi deyilir.
B) Alınma sözlər də saf sözlərə daxildir.
C) Dilçilikdə sözün leksik şəklinin dəyişməsi sözün forması adlanır.
D) Appelyativ leksika dedikdə xüsusi sözlərin və adların məcmusu başa düşülür.
E) Dialektizmlər, arxaizmlər, loru sözlər, vulqarizmlər və s. dilin lüğət tərkibinin əsas hissəsinə aiddir.
**618. Azərbaycan dilinin onomastik leksikasına aşağıdakılardan hansılar daxil deyildir?**
**1- antroponimlər**
**2- paronimlər**
**3- hidronimlər**
**4- etnonimlər**
**5- antonimlər**
**6- evfemizmlər**
A) 2, 5, 6
B) 1, 3, 5
C) 2, 4, 6
D) 3, 4, 5
E) 5, 6
**619. Məhdud dairədə işlədilən sözlərə daxil deyil.**

A) terminoloji sözlər
B) dialektizmlər
C) köhnəlmiş sözlər
D) neologizmlər
E) jarqon sözlər
**620. Mənşəyinə görə sözlərin qrupları hansılardır?**
A) Azərbaycan sözləri, alınma sözlər
B) Azərbaycan sözləri, Avropa mənşəli sözlər
C) Alınma sözlər, Qafqaz mənşəli sözlər
D) Avropa mənşəli və Qafqaz mənşəli sözlər
E) Avropa mənşəli və Azərbaycan sözləri
**621. Okkazional sözlərin xüsusiyyətlərinə daxil deyil:**
A) öz yeniliyini uzun müddət saxlaya bilmir
B) kim tərəfindən yarandığı məlum olur
C) yarandığı tarix məlum olur
D) işlənmə sahəsi məhduddur
E) mənasını mətn daxilində başa düşmək, anlamaq olur
**622. Biri doğru deyil:**
A) Dialektizm ilə dialekt leksikası bir-birindən fərqlənmir.
B) Dialektizm dialektlərin dialekt xüsusiyyətini özündə birləşdirən termindir.
C) Dialekt leksikası anlayışı daha genişdir.
D) Dialekt leksikasında dialekt və şivənin yerli həyatı, məişəti ilə əlaqədar işlənən sözlər nəzərdə tutulur.
E) Bütün cavablar doğrudur.
**623. Terminlərin xüsusiyyətlərinə daxil deyil.**
A) sinonimlilik, çoxvariantlılıq
B) dəqiqlik, konkretlik
C) təkmənalılıq, sistemlilik
D) ekspressivsizlik, qısalıq
E) sistemlilik, anlaşıqlıq
**624. Biri doğru deyil.**
A) Tarixizmlər və arxaizmlər konkret bir tarixi dövrün xüsusiyyətlərini əks etdirmir.
B) Tarixizmlər və arxaizmlər nitq prosesində çalarlar yaratmaq üçün istifadə olunur.
C) Tarixizmlər və arxaizmlər dövrün dil xüsusiyyətlərini nəzərə çatdırmaq üçün istifadə olunur.
D) Dilin lüğət tərkibinin nə dərəcədə dəyişməsini müəyyən etməkdə tarixizmlərin və arxaizmlərin də rolu var.
E) Köhnəlmiş sözlər obrazların xarakterini, ictimai mənşəyini və s. məsələləri oxucuya çatdırmaq məqsədilə də istifadə olunur.
**625. Biri doğrudur:**
A) Semantik neologizmlər mənaca yeni olan neologizmlərdir.
B) Dilin daxili imkanı hesabına yaranan neologizmlər yoxdur.
C) Dilin lüğət tərkibinə daxil olmuş yeni sözlər həmişə neologizm olaraq qalır.
D) Sözə tarixi kateqoriya kimi yanaşılma doğru deyil.
E) Neologizmlər fərdi üslubi şəkildə yarana bilməz.
**626. Dialektizmləri seçin.**
A) qəmbər, cələfir, qora
B) tay, külək, qəhmər
C) becid, ipək
D) tütün, yalaq
E) girəvə, araba, lapdan
**627. Dilin lüğət tərkibinin əsas hissəsinin xüsusiyyətlərinə daxil deyil:**
A) Əsas lüğət fondu xarici təsirlərə qarşı müqavimətli deyil.

B) Əsas lüğət fondu uzunömürlülüyü və sabitliyi ilə seçilir.
C) Əsas lüğət fondu ümumxalq xarakterlidir.
D) Əsas lüğət fondu böyük işlədilmə əmsalına malikdir.
E) Əsas lüğət fondu yeni sözlərin yaranması üçün baza rolunu oynayır.
**628. Appelyativ leksik sistemə daxil deyil:**
A) etnonimlər, ktematonimlər
B) ilkin sözlər, alınma sözlər
C) poetik sözlər, arqo sözlər
D) yeni sözlər, loru sözlər
E) hibrid sözlər, terminlər
**629. Onomastik leksikaya daxil deyil:**
A) ekzotik sözlər, ekspressiv sözlər
B) antroponimlər, zoonimlər
C) etnonimlər, kosmonimlər
D) toponimlər, hidronimlər
E) zoonimlər, etnonimlər
**630. Aktiv sözlərə daxil deyil:**
A) köhnəlmiş sözlər, neologizmlər
B) ümumişlək sözlər, danışıq sözləri
C) loru sözlər, poetik sözlər
D) danışıq sözləri, kitab sözləri
E) loru sözlər, ümumişlək sözlər
**631. Sözlərin əlamətləri kimi verilənlərdən biri yanlışdır:**
A) Sözlər mürəkkəb olmalıdır.
B) Sözlər fonetik cəhətdən formalaşmalıdır.
C) Sözün mənası olmalıdır.
D) Sözlər müstəqil olmalıdır.
E) Sözlər ahəngə tabe olmalıdır.
**632. Qrammatik məna verilən vasitələrdən biri ilə ifadə olunur:**
A) leksik şəkilçilər vasitəsilə
B) hal şəkilçiləri vasitəsilə
C) mənsubiyyət şəkilçiləri vasitəsilə
D) şəxs şəkilçiləri vasitəsilə
E) zaman şəkilçiləri vasitəsilə
**633. Yalnız ismə aid omonim sözlər cərgəsini seç.**
A) aşıq, bağ, bal
B) qol, sağ, əqrəb
C) bal, şit, zər
D) ağ, gün, göy
E) dağ, alma, qol
**634. Yalnız felə aid omonim sözlər cərgəsini seç.**
A) çapmaq, çalmaq
B) oyaq, at
C) dolma, sağ
D) qala, oyaq
E) çalmaq, alaq
**635. Bəndlərdən biri yanlışdır:**
A) Ləqəbləri şəxsin özü seçir, təxəllüs isə şəxsə adamlar tərəfindən verilir.
B) Təxəllüslər rəsmi adlardır.
C) Təxəllüslər sayca az, ləqəblər isə çoxdur.
D) Təxəllüslər rəsmi, ləqəblər isə qeyri-rəsmi xarakter daşıyır.
E) Təxəllüslərin bir qismi şəxs adlarına çevrilir.

**636. Frazeoloji vahidlərin xüsusiyyətlərinə daxil deyil:**
A) Frazeoloji vahidlərin tərəfləri həm həqiqi, həm məcazi mənada işlədilir.
B) Frazeoloji vahidlər möhkəm milli xüsusiyyətə malik olur.
C) Frazeoloj vahidlər dildə hazır şəkildə mövcuddur.
D) Frazeoloji vahidlər obrazlı, emosional olur.
E) Frazeoloji vahidlər bir ümumi mənanı bildirir.
**637. Frazeoloji vahidlərin məna qruplarına daxil deyil:**
A) Təkmənalı frazeoloji vahidlər
B) Çoxmənalı frazeoloji vahidlər
C) Omonim frazeoloji vahidlər
D) Sinonim frazeoloji vahidlər
E) Antonim frazeoloji vahidlər
**638. Sinonimlər lüğətinin tərtib olunma prinsipi kimi verilənlərdən biri yanlışdır:**
A) Sinonimlər lüğətində sinonim sememlər yox, sinonim leksemlər verilməlidir.
B) Sinonim sözlər arasındakı əlaqə və fərqi lüğət özündə əks etdirməlidir.
C) Lüğətdə sinonim cərgə üçün ümumi olan əşyavi-məntiqi məzmun izah olunmalıdır.
D) Leksik sinonimlərin hansı nitq hissələrinə aid olmaları göstərilməllidir.
E) Sinonimlər arasında olan leksik əlaqə fərqləri misallarla şərh olunmalıdır.
**639. Omonimlər hansı sırada verilmişdir?**
A) top, gün, qol
B) günü qara, çayın qolu, dastanın qolu
C) gün görməmək, gün keçirmək, ağacın qolu
D) sazın qolu, paltarın qolu, günü ağ olmaq
E) qolundan yapışmaq, gün verməmək, qol atmaq
**640. Omonimlər hansı sırada verilmişdir?**
A) düz, mürəkkəb, köç
B) bənd, çay, qapı
C) yaş, gözəl, vergi
D) yad, tam, pəncərə
E) biz, söz, yol
**641. Sinonimlər hansı sırada verilmişdir?**
A) demək-söyləmək, arzu-istək, atmaq-tullamaq
B) düz-düzmək, köç-köçmək, ağ-bəyaz
C) zəngin-varlı, varlı-dövlətli, yol-yoldaş
D) varlı-kasıb, gözəl-göyçək, qohum-qonşu
E) qaçmaq-tutmaq, xoşbəxt-bədbəxt, səadət-sədaqət
**642. Sinonimlərin verildiyi cərgəni göstərin.**
A) ağ-bəyaz, incə-zərif, qoca-yaşlı
B) qumluq-qumlaq, külək-yel, qəlb-ürək
C) son-sonra, əvvəl-əvvəlcə, gen-dar
D) dünya-cahan, bərk-yumşaq, gödək-qısa
E) getmək-çatmaq, içəri-irəli, səhər-sabah
**643. Sinonimlər hansı sırada verilmişdir?**
A) qoca-yaşlı, sulu-nəm, əqidə-məslək
B) dava-müharibə, qarğış-alqış, yiyə-sahib
C) sevmək-vurulmaq, nişanlanmaq-evlənmək, dəli-gic
D) təlim-tərbiyə, sevmək-eşqə düşmək, öyüd-nəsihət
E) hərb-sülh, vuruş-döyüş, irəli-geri
**644. Antonimlər hansı cərgədə verilmişdir?**
A) gec-tez, səhər-axşam, quru-yaş
B) baha-ucuz, yoxsul-varlı, adlı-sanlı
C) getmək-gəlmək, durmaq-oyanmaq, acı-turş

D) sərt-mülayim, bir-min, ağıllı-bacarıqlı
E) şirin-acı, gec-tez, daim-mütəmadi
**645. Hansı sıradakı sözlər antonimdir?**
**1- ağıllı-dəli**
**2- açmaq-yummaq**
**3-qurucu-dağıdıcı**
**4- birinci-axırıncı**
**5- yıxmaq-dağıtmaq**
**6- tikmək-qurmaq**
**7- boş-yumşaq**
**8-əhatəli-geniş**
**9- bərk-möhkəm**
**10- sərt-tünd**
A) 1, 2, 3, 4
B) 1, 2, 3, 5, 7
C) 2, 4, 5, 6, 8
D) 4, 6, 7, 8
E) 1, 2, 3, 9, 10
**646. Hansı sıradakı sözlər antonimdir?**
**1- saf-çürük, dərin-dayaz**
**2- ağıllı-səfeh, sıx-aralı**
**3- pinti-natəmiz, ağıllı-müdrik**
**4- toy-büsat, vəfasız-bivəfa**
**5 sülh-müharibə, iri-xırda**
**6- açıq-örtülü**
**7- birləşdirmək-qoşmaq, süzmək-oynamaq**
A) 1, 2, 5, 6
B) 1, 2, 4, 5
C) 1, 2, 3, 4
D) 4, 6. 7, 8
E) 3, 4, 6, 7
**647. Peşə və sənət sözləri hansı cərgədədir?**
A) qəlib, dəri, gön, biz, çəkic
B) kotan, yaba, oraq, maşın, bəyaz
C) albalı, toyuq, cücə, yumru, yumurta
D) kürə, qarğa, kök, çuğundur, dayaz
E) at, çaşmaq, dalğın, bayatı
**648. Terminlər hansı sırada verilmişdir?**
**1- sait, heca, faiz**
**2- hadisə, əhvalat, qəhrəman**
**3- vurma, bölmə, tənlik**
**4- vurğu, abzas, səs**
**5- vuruş, gül, sarı**
**6-payız, meşə, ağac**
**7- göl, su, içmək**
**8- susmaq, demək, görmək**
A) 1, 3, 4
B) 2, 3, 4
C) 1, 5, 7
D) 4, 7, 8
E) 2, 3, 6
**649. Hansı cərədəki sözlərin sinonimi yoxdur?**

A) cümlə, nitq, xəbər, təyin
B) paltar, gül, gözəl, fikir
C) ev, igid, çəkmək, baxmaq
D) külək, isti, soyuq, bərk
E) iri, dolu, açıq, örtülü

**650. Hansı cərgədəki sözlər məcazi mənada işlənmişdir?**
A) şirin dil, dəmir iradə, qızıl söz, gümüş saç
B) qızıl saat, gümüş üzük, şirin alma, dəmir qapı
C) dəmir sandıq, gümüş açar, qızıl bilərzik, şirin üzüm
D) dəmir alət, gümüş diş, qızıl söz, şirin söhbət
E) gümüş kəmər, dəmir açar, qızıl diş, şirin nar

**651. Hansı sıradakı sözlər məcazi mənada işlənmişdir?**
A) şirin yuxu, çiy söz, gözəl fikir, daş ürək
B) qızıl üzük, gözəl mənzərə, çiy ət, daş bina
C) sehrli xalat, ağılı uşaq, ətirli çay
D) gözəl qız, polad balta, polad dirək
E) maraqlı kitab, mehriban dost, vəfalı yoldaş

**652. Arxaizmlər hansı sırada verilmişdir?**
A) sayru, yanşaq, ayıtmaq, yağmalamaq
B) yayxanmaq, sayrışmaq, ayıltmaq, yataq
C) tayfa, qəbilə, sinif, icma
D) parter, loja, foye, fleyta
E) qlobus, kurs, rebus, akt

**653. Verilmiş arxaizmlərin qarşılığı hansı sıradadır?**
A) gümüş, qızıl, yuxu, qoşun, təmiz
B) pul, varlı, yuxu, yatmaq, əsgər, gözəl
C) dövlət, zəngin, düşmək, igid, aydın
D) ağca, altı, düşmək, qanad, bəyənmək
E) vaqeə, ordu, xəzinə, duru, qırmızı

**654. Tarixizmlər hansı sırada verilmişdir?**
A) koxa, darğa, nizə, çarıq, toppuz
B) molla, şeyx, sələmçi, mədrəsə, məktəb
C) gimnaziya, kotan, at, araba, dəstək
D) fəsil, kəsək, qəlpə, mərmi, sələm
E) qılınc, qalxan, saz, balaban, zurna

**655. Neologizmlər hansı sırada verilmişdir?**
A) birja, önəmli, əzəl, biznesmen, test
B) mühazirə, dərs, yoxlama, imtahan, dekan
C) mismar, bolt, bint, şüşə, lift
D) üçbucaq, kvadrat, teorem, məxrəc
E) insan, vuruş, qoşun, bayraq, istiqlaliyyət

**656. Hansı sıradakı bütün sözlər dialekt-çərçivəsindən çıxaraq ədəbi dilə daxil olunmuşdur?**
A) ilğım, sayrışmaq, şum, tığ
B) sayrışmaq, sınamaq, çalxalamaq, danlanmaq
C) şum, şumal, şumlamaq, nohur
D) toy, gəlin, ilğım, ildırım
E) sırsıra, sıra, vər, biçənək

**657. Hansı sıradakı sözlər ümumişləkdir?**
A) hava, kainat, su, çörək, qənd, çinar
B) mahlıc, tütün, toxum, silos, mahud
C) poema, roman, süjet, təsvir

D) vurğu, tamamlıq, zərflik, isimləşmə
E) toplama, çıxma, vuruğ, hasil, cəm
**658. Dialekt sözləri hansı sıradadır?**
A) kora, cələf, sinmək, taytımaq, dambat, həri
B) tənbəl, anbar, sünbül, şənbə, lovğa, bəli
C) pambıq, əriştə, güllü, saniyə, axsamaq
D) bəyaz, dava-dərman, azarlı, mismar
E) gözlük, istək, müştək, müştəri, zəif
**659. Ərəb və fars mənşəli alınma sözlər hansı sıradadır?**
A) namərd, səadət, cahangir, təbiət, qiyamət
B) polad, seyrək, tüstü, sürü, bulaq
C) qələm, ata, bahadır, qardaş, bacı
D) qanad, boyun, səkkiz, otuz, doqquz
E) almaq, kəsəyən, çalağan, turac, səksən
**660. Əsl Azərbaycan sözləri hansı sıradadır?**
A) yapalaq, aslan, göstərmək, soruşmaq, süpürgə, qatar
B) qanun, tarix, sahil, abidə, nümunə, məlum
C) zəif, ailə, dairə, nalayiq, Pirsaat, Cəbrayıl
D) hiss, həya, xətt, xassə, ləzzət, şagird
E) alim, namərd, nadan, sahib, qəzəl, çarpayı
**661. Rus və Avropa mənşəli sözlər hansı sıradadır?**
A) kran, asfalt, qlobus, fizika, orfoqrafiya
B) alt-üst, çiçək, dialoq, metod, termos
C) maqnit, filosof, ahəng, zalım, qabil
D) yol, bitki, daraq, batıq, palıd
E) qarmaq, yazma, yanıq, palçıq, üzük
**662. Leksik mənası olmayan sözlər hansı sıradadır?**
A) qətiyyən, əsla, yoxsa, hətta, belə
B) həyəcan, təfəkkür, yainki, həmçinin
C) habelə, halbuki, qorxu, zehin, yuxu
D) xəyal, xəbərçi, ağız, bazar
E) qan uddurmaq, dost tutmaq, ucuz etmək
**663. Hansı sıradakı sözlər leksik (sözdüzəldici) şəkilçi qəbul edib?**
A) güllü, güllük, gülçülük, gülüş
B) gül, gülün, gülə, gülləri
C) gülmək, gülürlər, gülərlər, güldü
D) gülmüşdü, gülərmiş, gülsə, güldüsə
E) gülürsə, güldüsə, gülərsə, güləcəksə
**664. Hansı sıradakı bütün sözlər leksik (sözdüzəldici) şəkilçi qəbul edib?**
A) döngə, döyüş, meşəlik, sulu, kitabça
B) kitablar, suya, kitabı, gözəlin, yalanlar, meşədə
C) yalanları, gözəldə, meşənin, sular, kitabda
D) yalana, gözəldə, meşəni, sudan, kitabın
E) yalanlara, meşələrin, suyun, kitablarda
**665. Hansı cümlələrdə onomastik leksik vahid var?**
**1- Baharda nərgiz və yasəmənlər göz oxşayır.**
**2- Bahar, nərgiz və yasəmən gəzməyə çıxdılar.**
**3- Cəmiyyətdə ədalət görünmürdü.**
**4- Cəmiyyətdə ədalət düzlük görmürdü.**
**5- Baş alıb gedirsən hayana, ceyran?**
**6- Araqçının məndədir, ceyran.**
A) 2, 4, 6

B) 1, 3, 5
C) 2, 6
D) 2, 3, 5
E) 2, 4, 5
**666. Elmi-publisistik əsərlərdə işlənən varvarizmlərə aid deyil.**
A) pul vahidlərinin adları
B) mətbuat adları
C) nəşriyyat adları
D) idarə və təşkilat adları
E) futbol klubu adları
**667. Aşağıdakı xüsusiyyətlərdən hansı Azərbaycan sözlərinə aid deyil?**
A) qoşa və yanaşısaitli sözlər də Azərbaycan dilinə məxsusdur.
B) söz kökləri əsas etibarilə təkhecalı olur.
C) sözün əvvəlində r samitinə təsadüf edilmir.
D) Azərbaycan sözləri digər türk dilləri ilə də ümumilik təşkil edir.
E) sözlərin əvvəlində qoşa samit olarsa, belə sözlər Azərbaycan sözləri deyil.
**668. Yeni sözlərə (neologizm) aid deyil:**
A) dilin lüğət fondunun aktiv hissəsinə aiddir.
B) neologizmlərin bir qismi başqa dillərdən gəlir.
C) Avropa dillərindən dilimizə gələn neologizmlərin çoxu beynəlmiləl sözlərdir.
D) neologizmlərin böyük bir hissəsini dil özü yaradır.
E) neologizmlər bir müddət keçdikdən sonra öz neologizmliyini itirir.
**669. Aşağıdakı sözlərdən hansıları həm çoxmənalılıq, həm də omonimlik keyfiyyətinə malikdir?**
**1- qol**
**2- çay**
**3- yay**
**4- çaxmaq**
**5- dolu**
**6-üz**
A) 1, 3, 5, 6
B) 1, 2, 3, 4
C) 1, 2, 4, 5
D) 2, 4, 5, 6
E) 3, 4, 5, 6
**670. Terminlərdən hansı üslubda daha çox istifadə olunur?**
A) elmi üslubda
B) fərdi üslubda
C) məişət üslubunda
D) bədii üslubda
E) publisistik üslubda
**671. Aşağıdakı xüsusiyyətlərdən hansı sinonimlərə aid edilə bilməz?**
A) ifadəni qüvvətləndirmək üçün sinonim sözlərdən istifadə olunur.
B) sinonim sözlərə ən çox isim, sifət, fel və zərflərdə təsadüf edilir.
C) həm eyni, həm də müxtəlif nitq hissələrinə aid ola bilər
D) bir məna qrupunu ifadə edən sözlər "sinonimik cərgə" adlanır.
E) sinonimik cərgədə bir dominant söz olur.
**672. Aşağıdakılardan hansı xüsusiyyət terminlərə aid edilə bilməz?**
A) başqalarının başa düşməməsi üçün süni yaranan sözlərdir.
B) elmi üslubda daha çox işlənir.
C) beynəlmiləl xarakterə də malik ola bilir.
D) hər bir sahənin özünəməxsus terminologiyası vardır.

E) cəmiyyət inkişaf etdikcə terminlər ümumişlək sözlərə də çevrilə bilər.
**673. Söyüş xarakterli vulqar söz hansı bənddədir?**
A) nanəcib
B) dəli
C) acgöz
D) rədd ol
E) tıxmaq
**674. Məhdud dairədə işlənən sözlərə aid deyil.**
A) ümumişlək sözlər
B) texniki sözlər
C) peşə-sənət sözləri
D) neologizmlər
E) vulqar sözlər
**675. Dildə tabu sözləri əvəz etmək üçün hansı sözlərdən istifadə olunur?**
A) evfemizm
B) arqotizm
C) sinonim
D) termin
E) omonim
**676. Cəmiyyət, müstəqil, mərhələ, təzyiq, əməkdaşlıq sözlərini əvəz edən neologizmlərin ardıcıllığını göstərin.**
**1- dönəm**
**2- toplum**
**3- işbirliyi**
**4- bağımsız**
**5- basqı**
A) 2, 4, 1, 5, 3
B) 2, 4, 5, 1, 3
C) 4, 1, 3, 2, 5
D) 4, 3, 2, 1, 5
E) 2, 5, 4, 3, 1
**677. Uyğunluq pozulmuşdur:**
A) ümumxalq sözlərinə neologizmlər, danışıq sözləri, loru sözlər və s. aiddir
B) sözlər işləkliyinə görə aktiv və passiv söz qruplarına ayrılır
C) onomastikada xüsusi adlar öyrənilir
D) mənşəyinə görə sözlər Azərbaycan sözləri və alınma sözlər olmaqla 2 yerə bölünür
E) çoxhecalılıq əsl Azərbaycan sözləri üçün yaddır
**678. Sözlərdən biri omonimlik xüsusiyyəti daşıyaraq, fel və sifət kimi işlənə bilər:**
A) sağ
B) yağ
C) gül
D) yar
E) dağ
**679. Bir-birinin sinonimi olan frazeoloji birləşmələri göstərin:**
**1- cana doymaq**
**2- can almaq**
**3- can vermək**
**4- boğaza yığılmaq**
**5- can qoymaq**
**6- təngə gəlmək**
A) 1, 4, 6
B) 2, 3, 4, 5

C) 2, 3, 5
D) 1, 5, 6
E) 2, 4, 5, 6
**680. Aşağıdakılardan hansı leksik yolla sözlərin yaranmasına aid deyil?**
A) şəkilçilər artırmaqla yaranan söz artımı
B) dialekt və şivələr hesabına söz artımı
C) alınma sözlər hesabına söz artımı
D) fonetik tərkibin dəyişməsi ilə söz artımı
E) düzəltmə sözlərin sadələşməsi hesabına söz artımı
**681. Bu söz həm dilçilik, həm də ədəbiyyatşünalıq termini kimi işlənir:**
A) qoşma
B) omonim
C) ədat
D) xəbər
E) bağlayıcı
**682. Aşağıdakı lüğətlərdən hansı birdilli lüğətlərə aid deyil?**
A) tərcümə lüğəti
B) etimoloji lüğət
C) izahlı lüğət
D) omonimlər lüğəti
E) orfoqrafiya lüğəti
**683. Azərbaycan dilinin əsas lüğət fondu hansı dillər ilə ümumilik təşkil etmir?**
A) ərəb-fars dilləri ilə ortaq sözlər
B) monqol dili ilə ortaq sözlər
C) qıpçaq qrupu dilləri ilə ortaq sözlər
D) oğuz qrupu dilləri ilə ortaq sözlər
E) ümumtürk dilləri ilə ortaq olan sözlər
**684. Aşağıdakı sözlərdən hansı ərəb-fars mənşəli sözlərə aid deyil?**
A) leksika
B) qiraət
C) laləzar
D) dahi
E) arzu
**685. Frazeoloji birləşmələrə aid deyil:**
A) vulqar sözlər
B) hikmətli sözlər
C) idiomlar
D) atalar sözləri
E) ibarələr
**686. Azərbaycan dilinin leksikası neçə qismə bölünür və hansılardır?**
A) 2 qismə: onomastik və apelyativ
B) 3 qismə: leksik, qrammatik və semasioloji
C) heç bir qismə bölünmür
D) 2 qismə: tarixi və müasir
E) 2 qismə: leksik və qrammatik
**687. Çəxmənalı sözlər daha çox hansı nitq hissələrinə aid olur?**
A) isim, fel
B) sifət, fel
C) isim, say
D) əvəzlik, say
E) əvəzlik, sifət
**688. Morfoloji omonimlər və ya omoformlar nəyə deyilir?**

A) qrammatik şəkilləri hesabına omonimləşən sözlərə
B) vurğunun yerini dəyişməklə omonimləşən sözlərə
C) fonetik səsləşməsinə görə omonimləşən sözlərə
D) leksik şəkilçi qəbul edərək omonimləşən sözlərə
E) sinonimlərdən yaranan omonimlərə
**689. Fonetik arxaizmlərin əsas mahiyyəti nədir?**
A) bir səs fərqi ilə seçilmiş arxaizmlər olması
B) mənaca daralmaya məruz qalan arxaizmlər olması
C) mənaca genişlənməyə məruz qalan arxaizmlər olması
D) fransız mənşəli arxaizmlər olması
E) mənaca köçürməyə məruz qalan arxaizmlər
**690. Alınma sözlər hesabına yaranan neologizmləri göstərin.**
A) marketinq, flaşkart, smartfon
B) cəbhədaş, dikuçar, cangüdən
C) öncə, dönər, soyqırım
D) menecment, açıqca, veb sayt
E) cangüdən, spiker, soyad
**691. Ümumxalq danışıq-məişət leksikasının əsas xüsusiyyəti hansıdır?**
A) yalnız məişətdə, gündəlik dildə istifadə olunması
B) yalnız danışıq dilində istifadə olunması
C) əsas xüsusiyyəti yoxdur
D) həm danışıq, həm də ədəbi dildə istifadə olunması
E) dialektlərdə işlənən sözlər
**692. Biri ədəbiyyatşünaslığa aid termin deyil.**
A) zökəm
B) əruz
C) təkrir
D) cinas
E) qafiyə
**693. Hansı sözlər mənsubiyyət şəkilçisi qəbul edərkən bitişdirici "s" samiti deyil "y" samiti qəbul edir?**
A) tale, mənbə, mənafe
B) mənşə, ata, hökm
C) qismət, məhkəmə, mənbə
D) mənbə, mənşə, hökm
E) mövqe, məişət, su
**694. Hikmətli sözlərə aid olmayan xüsusiyyəti göstərin.**
A) hikmətli sözlər əsas etibarilə folklora aid olur
B) hikmətli sözlərin mənşəyi olur
C) hikmətli sözlər inkişaf edib atalar sözünə keçə bilər
D) hikmətli sözlərdə, əsasən, müsbət münasibətlər özünü göstərir
E) hikmətli sözlər atalar sözlərinə nisbətən məhdud xarakter daşıyır
**695. Azərbaycan dilinə məxsus qədim sözlərin xüsusiyyətlərinə aid deyil:**
A) iki və üçhücalı sözlərdə qoşa saitli sözlərə təsadüf edilir
B) sözlərin kökləri əsas etibarilə təkhecalı olur
C) əvvəlində r samiti olan sözlərə təsadüf edilir
D) tərkibində j samiti olan sözlər Azərbaycan sözləri deyildir
E) əvvəlində ı saiti və ğ samiti olan sözlərə dilimizdə rast gəlinmir
**696. Hikmətli sözlərə aid fikirlərdən biri yanlışdır.**
A) hikmətli sözlər atalar sözlərinə keçə bilməz
B) hikmətli sözlər atalar sözlərinə nisbətən məhdud xarakter daşıyır
C) hikmətli sözlərin mənşəyi məlum olur

D)hikmətli sözlərdə, əsasən, müsbət münasibət öz əksini tapır
E) hikmətli sözlər yazılı ədəbiyyat üçün səciyyəvidir
**697. Leksika və qrammatika sahələrinin hər ikisinə xidmət edən şəkilçilər qrupuna daxil deyil.**
A) leksik, leksik-semantik
B) leksik-şəkilçilər
C) leksik-qrammatik şəkilçilər
D) qrammatik-leksik şəkilçilər
E) qrammatik şəkilçilər
**698. Mürəkkəb sözlərin yaranmasında maddi əsaslara daxil deyil.**
A) kəmiyyətə görə
B) funksiyaya görə
C) əlamətə görə
D) bənzətməyə görə
E) mənsubiyyətə görə
**699. Müasir Azərbaycan dilinin üslublarına daxil deyil.**
A) ədəbi dil üslubu
B) bədii üslub
C) elmi üslub
D) ictimai-puplisistik üslub
E) rəsmi üslub
**700. Antonimlərin məna qruplarına daxil deyil.**
A) miqdarla əlaqədar məfhumları ifadə edən
B) zamanla əlaqədar məfhumları ifadə edən
C) məkanla əlaqədar məfhumları ifadə edən
D) təbiət hadisələri ilə əlaqədar məfhumları ifadə edən
E) bilavasitə insanın özü və onun iş fəaliyyəti ilə əlaqədar məfhumları ifadə edən antonimlər